Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
State Tourism Agency of the Republic of Azerbaijan

Azərbaycan Turizm və Menecment Universiteti
Azerbaijan Tourism and Management University

"PANDEMİYA DÖVRÜNDƏ KEYFİYYƏTLİ TƏDRİSİN TƏŞKİLİ PROBLEMLƏRİ"

mövzusunda

Beynəlxalq elmi konfransın

MATERİALLARI

PROCEEDINGS

of the International Scientific Conference on

"MANAGEMENT AND QUALITY OF EDUCATION DURING THE PANDEMIC"

5 May 2021
Bakı

May 5, 2021
Baku

“Pandemiya dövründə keyfiyyətli tədrisin təşkili problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları / Proceedings of the International Scientific Conference on "Management and Quality of Education during the Pandemic". – Bakı: Mütərcim, 2021. – 108 səh.

ISBN: 978-9952-28-572-7

© ATMU, 2021

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:

1. **İlham Mədətov –** Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Sədr müavinləri:

1. **Zaur Bağırov, *f.ü.e.d.,prof.*** – ATMU-nun Tədris işləri üzrə prorektoru;
2. **İranə Əliyeva, *p.ü.e.d., prof.*** – ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru;

Üzvlər:

1. **Sənan Hüseynov** – rektor müşaviri;
2. **Elvin Yusifli** – rektor müşaviri;
3. **Nəsirulla Nəsirli**, **f-r.e.n., dos.** – Elm və innovasiya şöbəsinin müdiri;
4. **Bahadur Bilalov**, **t.e.n., dos.** – Turizm və qonaqpərvərlik fakültəsinin dekanı;
5. **Kənan Allahverdiyev**, **f.e.n., dos.** – Sosial menecment fakültəsinin dekanı;
6. **Vüqar Nəzərov, i.ü.f.d.,dos.** – Biznes idarəçiliyi fakültəsinin dekanı səlahiyyətlərini icra edən;
7. **Hafiz Hüseynov, f.ü.f.d., dos.** – Turizm biznesi kafedrasının müdiri;
8. **Orxan Musa** – Beynəlxalq əlaqələr şöbəsinin müdiri.

Katiblik:

1. **Sənubər Qənbərova** – Elm və innovasiya şöbəsinin “Elm” bölməsinin rəhbəri;
2. **İncə Əliyeva** – Beynəlxalq əlaqələr şöbəsinin mütəxəssisi;
3. **Aynur Hüseynzadə** – Turizm biznesi kafedrasının baş müəllimi.

ORGANIZING COMMITTEE

Chairman:

1. **Ilham Madatov –** Rector of the Azerbaijan Tourism and Management University

Vice-Chairmen:

1. **Zaur Bagirov, Sc.D., Prof.** – Vice-Rector for Academic Affairs,ATMU;
2. **Irana Aliyeva, Sc.D., Prof.** – Vice-Rector for Science and Development, ATMU;

Members:

1. **Sanan Huseynov** – Counselor to the Rector;
2. **Elvin Yusifli** – Counselor to the Rector;
3. **Nasirulla Nasirli, *Ph.D., Assoc.Prof.*** – Head of the Science and Innovation Department, ATMU;
4. **Bahadur Bilalov, *Ph.D., Assoc.Prof*.** – Dean of the Faculty of Tourism and Hospitality;
5. **Kanan Allahverdiyev, *Ph.D., Assoc.Prof.*** – Dean of the Faculty of Social Management;
6. **Vugar Nazarov, P*h.D., Assoc.Prof.*** – Acting Dean of the Faculty of Business Administration
7. **Hafiz Huseynov, *Ph.D., Assoc.Prof.*** – Head of the Department of Tourism Business;
8. **Orkhan Musa** – Head of International Relations Department

Secretariat

1. **Sanubar Ganbarova** – Head of the "Science" sector of the Science and Innovation Department;
2. **Incha Aliyeva** – International Relations Department Specialist;
3. **Aynur Huseynzada** – Senior Teacher of the Tourism Business Department.

MÜNDƏRİCAT/CONTENTS

PLENAR İCLAS/ PLENARY SESSION

AÇILIŞ NİTQİ /WELCOME SPEECH 8

İlham MƏDƏTOV
İCTİMAİ FƏNLƏRİN ONLAYN TƏDRİSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ 10

Arzu TAİRQULİYEVA-NAĞIYEVA
BÖHRAN FÜRSƏT KİMİ: TURİZM TƏHSİLİ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN STRATEJİ DƏYİŞİKLİYİN ƏSAS İSTİQAMƏTLƏRİ 13

Зияфат ХАБИБОВА
ВУЗЫ ВО ВРЕМЯ ПАНДЕМИИ И ПОСТПАНДЕМИИ:
ПРОБЛЕМЫ И НОВЫЕ ПОДХОДЫ 15

Светлана ВАСИНА
РОССИЙСКИЙ ТУРИЗМ В УСЛОВИЯХ ПАНДЕМИИ 22

Назар ХАКИМОВ
ВТОРОЕ ВЫСШЕЕ ОБРАЗОВАНИЕ КАК ВАЖНАЯ ФОРМА ПОДГОТОВКИ КОНКУРЕНТОСПОСОБНЫХ КАДРОВ В УСЛОВИЯХ ПАНДЕМИИ 25

BÖLMƏ 1/PARALLEL SESSION 1
PANDEMİYA DÖVRÜNDƏ ALİ TƏHSİLİN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: PROBLEMLƏR VƏ YENİ YANAŞMALAR/
ASSESSING THE QUALITY OF HIGHER EDUCATION DURING PANDEMIC: CHALLENGES AND NEW APPROACHES

Шахло МАШАРИПОВА, Шахзод ЭРКИНОВ, Умиджон РАХИМОВ
DISTANCE EDUCATION AS A NEW FACTOR IN THE DEVELOPMENT EDUCATIONAL SYSTEM IN REPUBLIC OF UZBEKISTAN 31

Fidan MURADOVA
PANDEMİYA DÖVRÜNDƏ ALİ TƏHSİLDƏ DAXİLİ KEYFİYYƏT TƏMİNATI 37

Наталья МИЛОВАНОВА
ПОВЫШЕНИЕ ЦИФРОВОЙ ГРАМОТНОСТИ ПРЕПОДАВАТЕЛЕЙ
В КАЗАХСТАНЕ В ПЕРИОД ПАНДЕМИИ 42

Ellada HACIYEVA
COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ ALİ TƏHSİL SİSTEMİNDƏ YARANAN DÖNÜŞ... 46

Zərövşən BABAYEVA
ONLAYN AUDİTORİYA – ÖYRƏTMƏ-ÖYRƏNMƏ PROBLEMLƏRİ 51

Sevda TAHİRLİ
PANDEMİYA DÖVRÜNDƏ ALİ MƏKTƏBLƏRDƏ DİSTANT TƏHSİLƏ KEÇİDİN SWOT ANALİZİ..... 57

Vəfa İSGƏNDƏROVA
DİSTANT TƏHSİLƏ KEÇİD: PROBLEM VƏ PERSPEKTİVLƏR 62

Fəridə MÖVSÜMOVA
PANDEMİYA DÖVRÜNDƏ ALİ TƏHSİLİN KEYFİYYƏTİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ 66

Nigar AĞAYEVA
ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ В УСЛОВИЯХ ПАНДЕМИИ: ПЛЮСЫ И МИНУСЫ ... 69

Yasin CƏFƏROV, Arzu PAŞAYEVA, Ləman CƏFƏROVA
PANDEMİYA DÖVRÜNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLMƏSİNDƏ İNNOVATİV FƏALİYYƏTİN ROLU 73

BÖLMƏ 2/ PARALLEL SESSION 2
TURİZM SƏNAYESİNDƏ KADR HAZIRLIĞI VƏ İQTİSADİYYATIN TURİZM TƏHSİLİNƏ TƏSİRİ/
STAFF TRAINING IN TOURISM INDUSTRY AND THE IMPACT OF THE ECONOMY ON TOURISM EDUCATION

Pəri HƏSƏNOVA
AZƏRBAYCAN İQTİSADİYYATI MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ 78

Нозила АШУРОВА
ОСОБЕННОСТИ ПОДГОТОВКИ КАДРОВ В СФЕРЕ ТУРИЗМА И ГОСТЕПРИИМСТВА В УЗБЕКИСТАНЕ: ТРАДИЦИОННЫЙ И СОВРЕМЕННЫЙ ПОДХОДЫ 81

Qadir QAFAROV, Cəmilə ATAKİŞİYEVA
ANLAYIŞ XƏRİTƏLƏRİNİN TƏLİM STRATEGİYASI KİMİ SƏRİŞTƏ ƏSASLI MODULLARDA TƏTBİQİ İMKANLARI..... 87

Mehriban YADULLA
EKONOMİKS – ARAŞDIRILMASI VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNİN ƏSASLANDIRILMASI 92

Dilarə ƏMİRASLANOVA
MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏNİN İDARƏ OLUNMASINDA KADR POTENSİALININ ROLU..... 97

Günel ƏLİYEVA
PANDEMİYA ŞƏRAİTİNDƏ ONLAYN TƏHSİL FORMASI 101

Фарход КАРАКУЛОВ, Шахло МАШАРИПОВА, Аида БАТИРБЕКОВА
ИНТЕГРАЦИИ УЧЕБНОГО ПРОЦЕССА С ПРОИЗВОДСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТЬЮ ПРЕДПРИЯТИЯМИ НАРОДНОГО ХОЗЯЙСТВА ВО ВРЕМЯ ГЛОБАЛЬНОЙ ПАНДЕМИИ COVID-19..... 105

PLENAR İCLAS/ PLENARY SESSION

AÇILIŞ NİTQİ /WELCOME SPEECH

Hörmətli konfrans iştirakçıları!

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Pandemiya dövründə keyfiyyətli tədrisin təşkili problemləri" adlı beynəlxalq elmi-praktiki konfransda Sizin hər birinizi salamlayıram.

Konfransın keçirilməsində əsas məqsəd qlobal problemə çevrilmiş pandemiya dövründə ali təhsilin təşkilində keyfiyyətin təşkili təcrübəsi, təhsil və təlim bacarıqlarının dəyişən sənayenin tələblərinə uyğunlaşdırılması, təhsil proseslərinin səmərəliliyinin artırılmasında səylərin ortaya qoyulması və təhsildə beynəlxalq əməkdaşlığın artırılmasından ibarətdir.

Bügünkü tədbirdə Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistandan mütəxəssislər iştirak edirlər.

Azərbaycan təhsilinin mühüm inkişaf mərhələləri məhz ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin təhsil sahəsinə diqqət və qayğısı əvəzsiz olub.

Hələ ölkəmizə rəhbərliyinin birinci dövründə – 1969-1982-ci illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin təhsilimizə böyük qayğısının nəticəsi olaraq Azərbaycanda çoxlu sayda məktəb binası tikilərək istifadəyə verilib. Ölkədə yeni ali təhsil müəssisələri açılıb, təhsil ocaqlarının maddi-texniki bazası möhkəmləndirilib, lazımi avadanlıqla təchiz olunub. Ulu Öndər daim gənclərin hərtərəfli inkişafına böyük önəm verirdi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə hər il yüzlərlə Azərbaycan gənci SSRİ-nin müxtəlif şəhərlərinə ali təhsil almağa göndərilirdi. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar.

Dahi şəxsiyyət Heydər Əliyev təhsilə həmişə prioritet sahə kimi baxırdı. "Təhsil millətin gələcəyidir" deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövrü olan 1993-2003-cü illərdə də bu sahənin fəaliyyətinin yüksəldilməsinə xüsusi diqqət göstərib. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Xeyli sayda məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb və şagirdlərə pulsuz verilib. Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilib.

Dahi rəhbər Heydər Əliyev təhsil sahəsi ilə bağlı mühüm fərman və sərəncamlar imzalayıb və bu sahənin inkişafında həmin sənədlərin xüsusi rolu olub.

Görkəmli dövlət xadimi Heydər Əliyevin parlaq ideyaları bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Son illər ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar, layihələr, dövlət proqramları bu sahəyə böyük töhfələr verib və verir. 2005-ci ildə Azərbaycan dünya təhsil məkanına - Bolonya prosesinə qoşulub. Təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası istiqamətində mühüm tədbirlər həyata keçirilir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc Türkiyə, Almaniya, Fransa, Kanada, Rusiya, Sinqapur, ABŞ, Litva, Böyük Britaniya, İtaliya və digər ölkələrin ən nüfuzlu universitetlərində təhsilin müxtəlif pillələrində oxumağa göndərilib. Hazırda Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramına" əsasən ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədi ilə milli kadrların hazırlanması üçün xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsi həyata keçirilir.

Günümüzün ən aktual problemi olan qlobal koronavirus pandemiyası dünyada mövcud olan bütün sahələrə ciddi təsir etdiyi kimi təhsil sənayesi üçün də arzu olunmaz problemlər yaratmışdır. Dünyanın bir çox ölkələrində qəbul edilmiş sərt karantin qaydaları səbəbindən təhsilin ali məktəblər

daxilində tədrisi qeyri-mümkün olmuşdur. Yaranmış vəziyyətlə bağlı ali məktəblər məsafədən təhsilin tətbiqi yolunu seçərək, təhsilin davamlılığının təmin olunmasını prioritet vəzifə kimi həyata keçirməyə başlamışdır. Sevindirici haldır ki, bu prosesə Azərbaycanın ali təhsil müəssisələri çevik formada adaptasiya olundular.

Azərbaycan Turizm və Menecment Universiteti qlobal pandemiya dövründə ali məktəb səviyyəsində tədrisin məsafədən geniş tətbiqinə karantin dövrünün ilk günlərindən başlamışdır. Heç şübhəsiz ki, koronavirus infeksiyası səbəbindən ölkəmizdə təlim və tədris prosesinin dayandırılması bütün ali təhsil müəssisələri kimi ATMU üçün də ənənəvi olmayan fəaliyyət mexanizminin tətbiqini zəruri etmişdir.

Ali təhsil müəssisələrinin fəaliyyətlərinin əsasını tədris təşkil etdiyindən karantin müddətində əsas hədəf tədris prosesində davamlılığın təmin edilməsi olmuşdur.

Konfrans "Pandemiya dövründə ali təhsilin keyfiyyətinin qiymətləndirilməsi: problemlər və yeni yanaşmalar", "Turizm sənayesində kadr hazırlığı və iqtisadiyyatın turizm təhsilinə təsiri" adlı bölmələrdə işini davam etdirəcəkdir.

Ümidvaram ki, bugünkü müzakirəmiz də çox faydalı olacaq və nəticəyə istiqamətlənəcək.

Diqqətinizə görə təşəkkür edirəm!

İlham Mədətov
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

İlham MƏDƏTOV
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru,
tarix üzrə fəlsəfə doktoru
i.madatov@atmu.edu.az

İCTİMAİ FƏNLƏRİN ONLAYN TƏDRİSİNİN BƏZİ XÜSUSİYYƏTLƏRİ

НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОНЛАЙН-ОБУЧЕНИЯ СОЦИАЛЬНЫХ ПРЕДМЕТОВ

SOME FEATURES OF ONLINE LEARNING OF SOCIAL SUBJECTS

Xülasə: Azərbaycan ərazisində yeni növ koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə 2020-ci il mart ayının 3-dən bütün təhsil müəssisələrində ənənəvi tədris prosesi müvəqqəti dayandıraraq onlayn tədrisə keçirilmişdir. Məqalədə distant təhsilin forması kimi onlayn təhsilin bəzi xüsusiyyətləri tədqiq olunub. Məqalə əsas diqqət ictimai fənlərin onlayn tədrisinə verilib.

Açar sözlər: *Distant, onlayn, ictimai fənlər, pandemiya.*

Abstract: In order to prevent the spread of a new type of coronavirus (COVID-19) pandemic in the territory of Azerbaijan, from March 3, 2020, the traditional teaching process in all educational institutions was suspended and transferred to online teaching. The article examines some features of online education as a form of distance education. The article focuses on online teaching of social sciences.

Keywords: *Distance, online, social sciences, pandemic.*

Резюме: В целях предотвращения распространения пандемии коронавируса нового типа (COVID-19) на территории Азербайджана с 3 марта 2020 года традиционный учебный процесс во всех учебных заведениях был приостановлен и переведен на онлайн-обучение. В статье исследуются некоторые особенности онлайн-образования как формы дистанционного обучения. Статья посвящена онлайн-обучению общественным наукам.

Ключевые слова: *дистанция, онлайн, общественные науки, пандемия.*

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycan Respublikasında da pandemiya bir sıra sahələrin, o cümlədən mədəniyyət, turizm, təhsilin inkişafına mənfi təsir göstərməkdədir.

Azərbaycan ərazisində yeni növ koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə 2020-ci il mart ayının 3-dən bütün təhsil müəssisələrində ənənəvi tədris prosesi müvəqqəti dayandırılıb. ÜST-ün tövsiyəsinə əsasən Azərbaycan Respublikasında təhsildə yaranan fasilələri məhdudlaşdırmaq üçün 2019-2020-ci tədris ilinin ikinci yarısından başlayaraq vəziyyətdən yeganə çıxış yolu kimi tədrisin onlayın qaydada keçirilməsinə üstünlük verilib. Tədris prosesinin internet vasitəsilə, onlayn qaydada təşkili müəllim və tələbələrdən daha çox məsuliyyət, yeni vərdişlər tələb edir. Skype, Zoom, Microsoft Teams və Hangouts Meet proqramları vasitəsilə müəllimlər dərsləri evdən və ya iş yerindən canlı həyata keçirə bilirlər. Onlayn tədrisdə təhsilin keyfiyyətinə nəzarət, təlimdə fərqli vasitə və texnologiyalardan istifadə əsas yer tutur. Burada ənənəvi tədrisdən fərqli olaraq müəllimin bilavasitə təşkilatçılığı ilə operativ, müntəzəm dialoq, əks-əlaqə əsasında, uzaq məsafədən fənn tədris olunur.

Bizim onlayn adlandırdığımız tədris distant təhsil sisteminin bir formasıdır. Hazırda dünyada tələbələrə distant təhsil təklif edən universitetlərin çoxu "açıq universitet" adı altında fəaliyyət göstərir. Distant formatda keçilən dərslər adi universitetlərdə tədris olunan dərs proqramından ciddi fərqlənmir. Distant təhsil zamanı tələbə və müəllim arasında ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir.

Distant təhsilin araşdırıcıları bu təhsil formasının ilkin rüşeymlərini pedaqogika elminin atası sayılan Yan Amos Komenskinin 1633-1638-ci illərdə qələmə aldığı "Böyük didaktika" əsərindəki fikirlərində olduğunu qəbul edirlər.

1892-ci ildə Amerikada "Poçt xidməti vasitəsi ilə təhsil"in atası hesab edilən Vilyam Reyni Harper Çikaqo Universitetində ilk dəfə olaraq distant təhsil mərkəzi açır.

1917-ci il inqilabından sonra Rusiyada da distant təhsil forması yaranmağa başlayır. Sovet İttifaqında distant təhsilin yeni modeli işlənib hazırlanır ki, bu da konsultativ təhsil və ya qiyabi təhsil adlanırdı. XX əsrin əvvəllərində radionun yaranması ilə distant təhsil də yeni forma və məzmun alır. Radio vasitəsi ilə ilk distant təhsil verən Pensilvaniya Universiteti 1922-ci ildən öz yayımına başlayır.

XX əsrin sonlarında internetin təhsil sahəsində tətbiqi distant təhsilin inkişafına təkan verdi. 1997-ci ildə yaradılan Kaliforniya Virtual Universiteti (California Virtual University), daha sonra 1999-cu ildə ABŞ-da fəaliyyətə başlayan ilk dövlət akkreditasiyalı distant təhsil universiteti- Jones Beynəlxalq Universitet onlayın təhsilin inkişafına yeni tövhələr Verdi [4].

İnkişaf etmiş ölkələrdə bir sıra xüsusiyyətləri ilə seçilən distant təhsil geniş şəkildə istifadə edilir. Təhsil sahəsində çalışan ekspertlərin fikrinə görə, mühazirə zamanı tədris materialının 5-10%-i, tədrisə aid ədəbiyyatın sərbəst oxunuşu zamanı 10-20%-i mənimsənilir. Tədris materialının qrup şəklində müzakirə olunması zamanı mənimsəmə 50%-ə qədər olmuşdur. Yeni biliklərin təcrübi istifadəsi prosesində mənimsəmə 75%-ə yaxınlaşır. Ən yüksək mənimsəmə dərəcəsinə (90%) başqalarını öyrədəndə çatmaq müşahidə olunmuşdur [1].

Dünyada təhsil sisteminin informasiyalaşdırılması məsələsi 1995-ci ildən aklual bir problem kimi ortaya çıxmışdır. İnformasiya texnologiyalarına əsaslanan amillər belə səciyyələndirilir: təlim prosesini təşkil etmək, təlim vasitələrini hazırlamaq, yeni materialların öyrədilməsi üçün tələbələrin biliklərinə kompüterlə nəzarət etmək, internet şəbəkəsindən informasiyanın alınması və onunla işləmək, İKT vasitasilə təlim sistemi [2, s.88].

Müasir dünyada ölkələrin rəqabətə davamlılığı məsələsi bütün hökümətləri düşündürən prioritet məsələlərdəndir. Ölkələrin rəqabətə davamlığında digər sahələr kimi təhsil sistemi də mühüm rola malikdir. Artıq 30 ilə yaxındır ki, İKT-nin təhsil sisteminə təsiri bu sahəni qlobalaşma prosesində ön sıraya çıxarmışdır.

2020-ci ilin əvvələrindən pandemiyanın təsiri ilə bəzi dünya ölkələrində onlayn təhsilə keçid problemsiz olsa da, bəzilərində müəyyən çətinliklərlə üzləşdi. Hansı ölkələr ki, son 20-25 il ərzində effektiv distant təhsil sistemi yarada bilmişdilər, həmin ölkələr problemsiz olaraq 3-4 gün ərzində bütün ölkə boyu təhsil sistemini onlayn təhsilə asanlıqla transformasiya edə bildilər. Hansı ölkələrdə ki, distant təhsil sistemi yox idi, bu ölkələrdə bu prosesə keçid ağrılı oldu [3].

Azərbaycan Respublikasında distant təhsilin hüququ bazası yeni Təhsil qanununda bu öz əksini tapıb. "Təhsil haqqında" Qanunun (19 iyun 2009-cu il) 13-cü maddəsində qeyd olunur ki, "Azərbaycan Respublikasında aşağıdakı təhsilalma formaları müəyyən edilir: əyani; qiyabi; distant (məsafədən); sərbəst (eksternat)." Qanunun 13.2. maddəsində göstərilir ki, Azərbaycan Respublikasında müəyyən edilmiş təhsilalma formaları çərçivəsində evdə təhsil, fərdi təhsil və stasionar təhsil təşkil oluna bilər" [6].

Azərbaycan Respublikasında hüquqi baza olmasına baxmayaraq distant təhsilin təşkili bir qədər yubandığından pandemiya ilə əlaqədar onlayn təhsilə keçidin ilk dövründə bir sıra çətinliklər üzə çıxdı. Bunlara respublikanın bütün ərazisində sürətli internet şəbəkəsinin olmamasını, bir çox ailələrdə müasir tələblərə cavab verən kompüterlərin yoxluğunu, müəllim və tələbələrdə onlayn təhsil vərdişlərinin olmamasını və s. çətinlikləri göstərə bilərik.

Azərbaycan Ombudsmanı Milli Məclisin 2021-ci il aprelin 2-də keçirilən iclasında distant təhsilə əlçatanlıq məsələsinə toxunub. O bildirib ki, bütün uşaqların distant təhsilə qoşulması üçün lazımi şərait yaradılmalıdır. S.Əliyevanın sözlərinə görə, kənd yerlərində bir sıra hallarda internetin, texniki təchizatın olmaması uşaqların vaxtında dərslərə qoşulmasına mane olur. O,qeyd edib ki, bu problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlər görülməlidir [5].

Onlayn dərslərin yuxarıda qeyd olunan mövcud çətinlikləri ilə yanaşı bəzi aşağıdakı müsbət cəhətləri də vardır:

- Ənənəvi tədrisdən fərqli olaraq onlayın tədrisdə aşkarlıq, şəffaflıq daha çox təmin olunub. Son vaxtlara qədər Azərbaycanın bir sıra universitetlərində auditoriyalara kameralar vasitəsilə xüsusi mərkəzdən dərslərə nəzarət təşkil olunurdu. Pandemiya şəraitində internet vasitəsilə dərslərə nəzarət daha asan və effektiv həyata keçirilir.
- Ənənəvi tədrisdə ildə bir dəfə keçirilən açıq dərslər onlayın tədrisdə demək olar ki, daimi hal alıb. Bu da müəllimlərin dərslərə daha məsuliyyətlə yanaşmasına, öz üzərlərində daha çox çalışmalarına səbəb olub.
- Ənənəvi tədrisdən fərqli olaraq dərslərdə tələbələrin iştirakı və onların fəallığının tədrisə daha çox şüurlu yanaşmalarının nəticəsində baş verməsi fikrimizcə onlayn dərslərin uğuru hesab oluna bilər.

Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının qərarı ilə tədrisin onlayn təşkili ilə bağlı bütün məsələlər həll olunmuşdur. Dərslərin və imtahanların nəticələri deməyə əsas verir ki, bu sahədə müəllim və tələbələr elə bir ciddi problemlərlə üzləşməmişlər. Onlayn təhsil sahəsində mövcud çətinliklərin qısa müddətdə aradan qaldırılması ilə təhsilin təşkilini müəllim və tələbələrimizin uğuru hesab edə bilərik.

Onlayın tədrisdə kimya, fizika kimi texniki fənlərdən fərqli olaraq ictimai fənlərin tədrisində elə də böyük ciddi problemlər mövcud deyil. Əksinə ənənəvi təhsildə müəllimlərin istifadə edə bilmədiyi bir sıra elektron materialları onlayn dərslərədə asanlıqla istifadə etmək olur. Buna görə də ictimai fənlərin tədrisi ilə bağlı ənənəvi dərslərdə metodik göstərişlərdə qeyd olunan bütün məsələləri onlayın dərslərdə də müvəffəqiyyətlə tətbiq etmək mümkündür. Məsələn, "Azərbaycan tarixi" fənninin tədrisinə aid olan aşağıdkı metodik göstərilşlərlə onlayn dərsləri təşkil etmək mümkündür:

- Təlimdə tarixin dərk olunmasının əsas amilləri;
- Şifahi şərh metodu, onun istiqamətləri və funkslyalarları;
- Tarlxin əyani təlim metodları, təlimdə əyanilik prinsipi;
- Tarixi hadisələrin zamanca və məkanca lokallaşdırılması;
- Tarixiı tadrisində ekran vasltələri va digər texnlki vasitələr, tələbələrlə sinifdənkənar iş;
- Tarixin tədrisində tarixi sənəd ilə iş və bədii ədəbiyyatdan istifadə;
- Tarix dərslikləri. Tarix təlimində mətnlə iş metodları;
- Tarixi anlayışlar üzərində iş metodikası;
- İKT (informasiya kommunikasiya texnologiyaları) və tarixin tədrisi [2, s.4].

Fikrimizcə postpandemiya dövründə ənənəvi təhsilə keçərkən onlayn tədrisdə əldə olunmuş müsbət təcrübədən də istifadə olunması zəruridir. Bu tədrisin inkişafına müsbət təsir göstərə bilər.

Ədəbiyyat

1. Ağayev Ş. Tədrisdə distant təhsil. "Azərbaycan müəllimi" qəz.29 avqust 2020
2. Məmmədova M. S. Tarixin tədrislnin aktual problemləri. Dərs vəsaiti. Bakı, Bakı Universiteti nəşrilyatı, 20l5, 1l2s.
3. Əhmədov İ. Distant təhsil sistemi ölkə təhsilinin səviyyəsini göstərir. https://www.bizimyol.info/az *28 mart, 2020*
4. https://az.anadolu.edu.tr/az/distant
5. https://sputnik.az/science/ 03.04.2021
6. http://www.e-qanun.az.

Arzu TAİRQULİYEVA-NAĞIYEVA
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi,
Təhsil və təlim sektorunun müdiri
arzu.tairquliyeva@tourism.gov.az

BÖHRAN FÜRSƏT KİMİ: TURİZM TƏHSİLİ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN STRATEJİ DƏYİŞİKLİYİN ƏSAS İSTİQAMƏTLƏRİ

Birləşmiş Millətlər Təşkilatının baş katibi Antoniu Quterreş "Təhsil kəsildikdə hər kəsə təsir edir" və "hamımız əvəzini ödəyirik" deyib. Sözsüz ki, təhsil, imkanları genişləndirmək, iqtisadiyyatları inkişaf etdirmək, dözümsüzlüklə mübarizə, planetimizi qorumaq və Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün təməldir. Pandemiyadan əvvəl də təxminən 258 milyon uşaq və yeniyetmə təhsildən kənarda qalırdı və əksəriyyəti qızlar idi. Həqiqətən də, aşağı və orta gəlirli ölkələrdə 10 yaşlı uşaqların yarısından çoxu sadə bir mətn oxumağı bacarmırdı. Bu vəziyyətin indi daha da ağırlaşması təəssüf ki, qaçılmaz olub. COVID-19 pandemiyasına görə 800 milyondan çox tələbə, 31 ölkədəki tam məktəb bağlamalarından, digər 48 ölkədəki azaldılmış və ya məsafədən akademik cədvəllərə keçməklə təhsillərində ciddi pozuntularla üzləşirlər. Biz yaranmış bu vəziyyətdə təhsilə yenidən baxmaqla – müəllimlərin hazırlanması, rəqəmsal uçurumun aradan qaldırılması və tədris proqramlarını sürətlə dəyişən dünyamıza uyğun olan bacarıq və biliklərlə təhciz etməklə uyğunlaşdırmalıyıq.

Covid-19 pandemiyasının təhsilə və turizm sənayesinə indiki təsiri və gələcək təsirləri ilə bağlı kifayət qədər araşdırma aparılsa da məhz "turizm təhsili"nə təsiri nisbətən az araşdırma mövzusu olmuşdur. Bu sahədəki azsaylı mövcud beynəlxalq araşdırmalar isə ümumilikdə mövcud kurrikulumlarda dəyişikliklərin edilməsini qaçılmaz hesab edir. Bu dəyişikliklərin əsasən aşağıdakı istiqamətləri təhsil proqramlara daxil edilməsi məsləhət görülür.

1. İnnovasiya və kreativ bacarıqlar
2. Böhran menecmenti
3. Soft (yumşaq) bacarıqlar (dil, İT bilikləri, analitik düşünmə, sosial ünsiyyət bacarıqları)
4. Peşə bacarıqları

Turizm təhsili və Azərbaycan

Son zamanlar sənayenin sürətlə dəyişən tələb və ehtiyaclarına eyni cəldliklə və müxtəlifliklə cavab verə bilməməsi dünya təhsilini çağırışlarla üz üzə qoymuşdur. Eyni tendensiya Azərbaycan turizm təhsilində də özünü göstərir. Belə ki, Azərbaycanda turizm təhsilinin qarşısında duran əsas problemlər peşəkar kadrların yetişdirilməsi, dolayısı ilə isə xidmət səviyyəsinin yüksəldilməsidir. Bu da öz növbəsində Azərbaycanda turizm təhsili sahəsinə, pandemiya şəraitində yaranmış fasilədən istifadə edərək, yeni strateji aspektdən baxılmasını şərtləndirir.

Turizm peşə təhsili əmək bazarının tələblərinə uyğun olaraq işçi qüvvəsinin keyfiyyəti və miqdarı və təlim nəticəsində verilən sənədlərin etibarlılığı baxımından qənaətbəxş meyarlara əsaslanmır. Bununla yanaşı hazırda praktiki yanaşma tələb edən ixtisasların təhcizat məsələsi də tam olaraq yenilikləri tətbiq etməyə imkan vermir. Azərbaycanda turizm sənayesi nümayəndələri, xüsusilə ixtisaslı işçi tapa bilməməsindən şikayət edirlər. Yerli və xarici turist məmnuniyyətini artımaq üçün yüksək səviyyədə xidmət göstərə bilən peşəkarların olması ən vacib elementlərdən biridir. Bu səbəbdən 2019-cu ildə Dövlət Turizm Agentliyi tərəfindən regionlarda təlim ehtiyacının öyrənilməsi məqsədi ilə regional turizmin təhlili ilə bağlı araşdırma xarakterli hesabat hazırlanmışdır. Ümumilikdə demək olar ki, hədəf olaraq seçilmiş bütün bölgələrdə müəssisələrin təlim ehtiyacları, problem və çətinliklərinin olduğu aşkar edilmişdir.

İnnovativ yanaşmaların tətbiqi, yeni turizm reallıqlarını anlayan və yeniliklər gətirə bilən yüksək ixtisaslı kadrların hazırlanması turizmə yanaşmanı daha üst səviyyəyə gətirir. Bunu əsas götürərək ali təhsil səviyyəsində turizm təhsilinə daha fərqli yanaşmanı şərtləndirir. Qeyd olunanları nəzərə alaraq, ali təhsil müəssisələrində təcrübi dərslərin sayının artırılması, infrastruktur və maddi-texniki bazanın gücləndirilməsi, sənaye ilə daha güclü əlaqələrin qurulması təhsil müəssisələri qarşısında duran əsas vəzifələrdəndir. Eyni zamanda, Avropa təcrübəsindən yararlanaraq, təlim hotellərinin yaradılması, təhsil və təcrübənin eyni bina daxilində keçirilməsi, praktik təlimlərin artırılması əsas çağırışlar arasındadır.

Növbəti istiqamət Azərbaycanda turizmin və turizm təhsil sahəsinin araşdırmaya yönəlik platformaya keçirilməsidir. Yeni informasiya mühitini formalaşdıran rəqəmsal əsrdə davamlı elmi inkişafın təmin olunmasında əsas vəzifələrdən biri beynəlxalq elektron elmi informasiya məkanına inteqrasiya olunmaqdır. Son illərdə beynəlxalq yüksək indeksli jurnallarda Azərbaycanlı mütəxəssislərin turizmlə bağlı işlərinin dərcinin az sayda olması bu sahəyə xüsusi diqqəti tələb edir. Bu sahədə peşəkarlıq və beynəlxalq standartlara uyğunlaşma və digər məsələlərin təşkilatlanmasına ehtiyac vardır. Bu həm də kadrların hazırlığı zamanı tələbələrin səhih məlumatlarla təmin olunması və ölkənin yeni turizm imkanlarının dəyərləndirilməsi baxımından əhəmiyyət daşıyır.

Daha keyfiyyətli məhsul və ya xidmətlərin ortaya çıxması üçün ixtisaslı işçi qüvvəsi vacibdir. Ölkədə turizm ixtisasına yiyələnmiş məzunların sayının və keyfiyyətinin yüksəldilməsi, gənclər arasında turizm sahəsinə rəğbətin daha da artırılması turizm təhsilinin əsas vəzifələrindəndir. Azərbaycanda ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili məktəblərində turizm və hotelçiliklə bağlı ixtisaslar üzrə praktik səriştələrin aşılanması üçün mövcud olan maddi-texniki bazanın beynəlxalq standartlara uyğunlaşdırılması və tələbələrə nəzəri biliklərlə yanaşı praktiki biliklərin tədris olunması turizm təhsilinin inkişafını şərtləndirən əsas amillərdəndir. Eyni zamanda, Avropa təcrübəsindən yararlanaraq, təlim hotellərinin yaradılması, təhsil və təcrübənin eyni bina daxilində keçirilməsi, praktik təlimlərin artırılması əsas çağırışlar arasındadır.

2013-cü ildən etibarən təhsil sitemi "Azərbaycan Republikasında təhsilin inkişafı üzrə dövlət strategiyası" əsasında yenidən canlanma mərhələsinə qədəm qoymuşdur. Bu səbəbdən Dövlət Turizm Agentliyində sektorda baş verən yenilikləri və Azərbaycan Republikasında təhsilin inkişafı üzrə dövlət strategiyası əsas götürərərək ölkənin turizm təhsili strategiyasına yenidən baxılmasına və yüksək standartlara cavab verən təhsil və təlim proqramlarının və mexanizmlərinin qurulmasına ehtiyac vardır. Strateji baxışın aşağıdakı istiqamətləri nəzərdə tutulub

1. Turizm təhsili sahəsində çalışan pedaqoji heyətin araşdırma potensialının inkişafı
2. Yüksək ixtisaslı təhsilalanları formalaşmasını təmin edən təhsil məzmununun inkişafı və təhsil proqramların tətbiqi:
3. Şaffaflığı və səmərəliliyi təmin edəcək elektron idarəetmə sistemlərinin tətbiqi və idarəetmənin optimallaşdırılması:
4. Müasir yanaşmaları əhatə edən dayanıqlı maliyyələşmə mexanizmlərinin tətbiqi:
5. Müasir infrastruktur, maddi-texniki və tədris bazasına malik təhsil müəssisələrinin formalaşdırılması:
6. Dövlət-biznes tərəfdaşlığının təşviq edilməsi:
7. Turizm potensialını atırılması üçün xidmətdən ayrılmadan təlimlərin təşkili və icmalar arasında maarifləndirmə:
8. Turizm sahəsində elmi araşdırmaların artırılması.

Зияфат ХАБИБОВА
Azərərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası,
siyasi elmlər üzrə elmlər doktoru, professor
Dia.library@mail.ru

ВУЗЫ ВО ВРЕМЯ ПАНДЕМИИ И ПОСТПАНДЕМИИ: ПРОБЛЕМЫ И НОВЫЕ ПОДХОДЫ

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ PANDEMİYA VƏ POSTPANDEMİYA DÖVRÜNDƏ: PROBLEMLƏR VƏ YENİ YANAŞMALAR

HİGHER EDUCATİON INSTİTUTİONS İN THE PANDEMİC AND POSTPANDEMİC PERİOD: PROBLEMS AND NEW APPROACHES

Xülasə: Bəlli olduğu kimi, ətraf mühitdəki dəyişikliklər xidmət sahəsinə ciddi təsir göstərir. COVİD-19 pandemiyasının yaratdığı böhran iqtisadiyyatın bütün sahələrində transformativ dəyişikliklərə yol açıb, yeni iş texnologiyaları və formalarını aktuallaşdırıb. Qlobal dəyişikliklər və təhlükəsizlik məqsədilə distant texnologiyaların inkişafı zərurəti ilə ilk olaraq təhsil sistemi üzləşib. Məqalədə bu dəyişikliklər fonunda Azərbaycan və dünyada təhsil müəssisələinin üzləşdikləri çətinliklər, bu prosesin üstünlükləri və çatışmazlıqları təhlil olunub.

Açar sözlər: *xidmət sektoru, təhsil, COVID-19, distant təhsil texnologiyaları, virtual məkan, qanunvericilik dəyişiklikləri, təhsil məkanının transformasiyası, distant təhsil, onlayn öyrənmə.*

Abstract: Changes in the external environment can have a major transformative impact on the service sector. The crisis caused by the COVID-19 pandemic affected all sectors of the economy, contributed to the actualization of new forms and technologies of work, including remote access and employment at home. The education system was one of the first to face global changes and the need to develop distance learning technologies for security purposes. In this regard, it is advisable to consider what consequences and results for the educational process can be in crisis conditions. The advantages and disadvantages of such training, which faced the school and higher school both in Azerbaijan and in the world, are analyzed.

Keywords: *service sector, education, COVID-19, distance learning technologies, virtual space, legislative changes, transition of the educational space, distance education, distance education technologies, online education.*

В 2020 году весь мир захватила пандемия коронавирусной инфекции COVID-19. Пандемия коренным образом меняет условия функционирования всех отраслей и сфер народного хозяйства. Начать хотя бы с того, что даже точно определить, когда наступит период «после пандемии» сегодня не представляется возможным. В любом случае ясно, что человечество столкнулось с серьезнейшим глобальным вызовом. Нужен профессиональный системный анализ новой ситуации со стороны экспертного сообщества для выработки адекватной стратегии, позволяющей снизить возможные риски и найти оптимальные пути дальнейшего развития. Вирус затронул все сферы общественной жизни, было приостановлено производство, закрыты границы многих стран, введены карантинные и ограничительные меры. Кардинальные преобразования коснулись и образовательного сектора, школьники и студенты перешли на дистанционный формат обучения. Все учащиеся в один миг перестали ходить в школу и

высшие учебные заведения, в связи с ограничительными мерами были запрещены прогулки и посещение спортивных и развлекательных мероприятий. За последние 30 лет в мире произошел целый ряд экономических кризисов, включая Глобальный финансовый кризис 2007-2009 годов. Каждый из них сильно ударил по экономическому развитию, но в целом выгоды от связанного с этим развития превысили ущерб в мировом масштабе в годовом исчислении», – сказал администратор United Nations Development Programme (Программа развития ООН-ПРООН) Ахим Штайнер. «COVID-19 – с его тройным ударом по здравоохранению, образованию и доходам - может изменить эту тенденцию». Спад в основных областях человеческого развития ощущается в большинстве стран – богатых и бедных – в каждом регионе. Пандемия коронавирусной инфекции стала глобальным вызовом, потребовавшим выработки адекватных стратегий, системы мер по снижению возникающих рисков. Сфера образования оказалась одной из немногих важнейших областей человеческой деятельности, способной продолжать эффективное функционирование в особых (чрезвычайных) условиях. Для этого образовательные организации должны были перейти на новую - удаленную - организацию своей деятельности, включающую:

■ обеспечение качественного образовательного процесса на основе дистанционных образовательных технологий;

■ обеспечение удаленного функционирования самой образовательной организации как объекта управления.

Новая ситуация существенно меняет правовой, экономический и организационно-управленческий режим их функционирования, создает дополнительные вызовы, в том числе финансового характера. Для выполнения своей миссии - подготовки высококвалифицированных специалистов международного уровня на основе реализации образовательных программ, соответствующих лучшим мировым стандартам, - образовательные организации в новых чрезвычайных условиях сталкиваются с серьезными трудностями. С одной стороны, необходимы существенные вложения в новые дистанционные образовательные технологии, обеспечивающие перевод учебного процесса в формат опосредованного (удаленного) взаимодействия педагогов и студентов, организацию удаленного функционирования образовательных организаций как объектов управления, формирование принципиально нового контента, переподготовка преподавательских и административно-управленческих кадров и многое другое. С другой - объективно сужается финансовая база (доходы) образовательных организаций: падает платежеспособный спрос населения, что для образовательной организации выражается в возникновении существенных рисков: значительном росте обращений обучающихся и их родителей с ходатайством об отсрочке (или снижении) платы за обучение; под вопросом оказывается обеспечение контрольных цифр нового набора студентов и др.

С переходом на новый формат, учебным заведениям пришлось столкнуться с множеством трудностей, основными из которых являлось отсутствие опыта и практики массового внедрения технологий удаленного доступа к получению образовательных услуг. Здесь следует заметить, что на самом деле важен не процент формально перешедших на дистант вузов, а качество предоставляемых ими образовательных услуг. А оно, к сожалению, пока у разных университетов очень различается.

Переход на дистанционную форму обучения оказал влияние на всех участников образовательного процесса, стрессовая ситуация отразилась на учениках и студентах, преподавателях и руководстве общеобразовательных и высших учебных заведений. Таким образом, в 2020 году социализация населения в виртуальном пространстве развивалась ускоренными темпами. Социальное пространство человека было разделено на реальную и виртуальную жизнь, и необходимо было адаптироваться к этому положению в кратчайшие сроки. Общественная и профессиональная оценка изменений системы образования разносторонняя, от положительных до резко негативных мнений, осуждения [2].

Как отмечает ректор Российского экономического университета им. Г.В.Плеханова В.И.Гришин, «если у вас нет проблем, значит, у вас нет дистанта. Решение проблем происхо-

дило поэтапно, да и сами проблемы были разноплановыми». Приведенная В.И.Гришиным структуризация проблем перехода на дистант в значительной мере характерна для всех вузов [8].

Первый блок проблем - инструментальный. Преподаватели провели ревизию имеющихся у них технических средств, и первые две недели были посвящены овладению новым инструментарием.

Второй блок проблем - методический. Преподаватели столкнулись с тем, что необходимо методически переформатировать учебные материалы, загрузить их в новый дистанционный формат.

И третий блок проблем, возможно, самый сложный - психологический. Профессуре пришлось перейти определенный психологический барьер при переходе на дистант. Профессия преподавателя сродни актерской. Профессор без студенческой аудитории чувствует себя, как артист перед пустым зрительным залом. Частично эту нехватку живого общения компенсируют занятия в формате вебинаров.

Что касается студентов, то, с одной стороны, они относятся к поколению Z, молодые прогрессивные пользователи интернета и различных гаджетов. Технические аспекты не вызвали у ребят никаких затруднений, им даже было интересно апробировать новые форматы проведения занятий. С другой стороны, студенты признаются, что им пришлось выполнять больший объем заданий и больше прикладывать самостоятельных усилий к освоению учебных курсов.

Также определился ряд других проблем [8]:

- отсутствие обратной связи от учителей, следовательно, непрозрачная система оценивания и невозможность осмыслить ошибки;
- резкое снижение зрения;
- не всегда благоприятная домашняя атмосфера, что сказывается на образовании;
- низкая мотивация и самоорганизованность;
- определенные дисциплины не воспринимаются без контакта с учителем;
- перегруженность преподавателей;
- больше возможностей для списывания на контрольных работах.

Таким образом, необходимо отметить, что при введении информационно-коммуникационных ресурсов в процесс дистанционного образования нужно учитывать многие психологические и образовательные факторы. Помимо этого, при развитии информационно-образовательных технологий дистанционного образования, необходимо учитывать региональные, национальные, культурные характеристики, духовные и нравственные ценности населения нашего государства.

Для общей характеристики особенностей позиционирования образовательной организации в новых условиях можно рассмотреть результаты обобщенного SWOT-анализа деятельности типичного вуза, например, при переходе на дистанционные образовательные технологии.

Сильные стороны:

■ Наличие опыта реализации образовательного процесса в электронной информационно-образовательной среде на основе дистанционных образовательных технологий.

■ Наличие специального подразделения отвечающего за качественное обеспечение образовательного процесса на основе дистанционных образовательных технологий.

■ Наличие современной информационно-коммуникационной инфраструктуры, собственной платформы (включающей программное обеспечение и аппаратно-технический комплекс) для реализации образовательных программ в удаленном формате.

■ Наличие высококвалифицированного преподавательского состава.

■ Постоянный мониторинг качества реализации образовательного процесса, изучение степени удовлетворенности обучающихся, обратная связь со студентами.

Слабые стороны:

■ Риски снижения доходной базы Университета (снижение платежеспособности потенциальных абитуриентов/студентов и др.).

■ Недостаток собственных ресурсов для постоянного развития учебно-методической базы и материально-технической инфраструктуры дистанционного образования.

■ Недостаточная подготовленность некоторых «традиционных» преподавателей при необходимости одномоментно перейти на дистанционные образовательные технологии.

■ Недостаточная техническая оснащенность некоторых преподавателей для ведения качественного образовательного процесса в удаленном формате.

■ Недостаточная техническая оснащенность некоторых студентов для качественного обучения в удаленном формате.

■ Психологические проблемы (у преподавателей и студентов) при переходе на удаленное обучение.

Возможности:

■ Принятие базовых решений со стороны регулятора (Правительство, Министерство образования) в области применения дистанционных образовательных технологий.

■ Меры по поддержке вузов (в том числе негосударственных) со стороны государства.

■ Наличие определенного доступного (в том числе бесплатного) отечественного и зарубежного положительного опыта по разработке и применению современных дистанционных образовательных технологий (платформы, контент образовательных программ, методические указания и др.).

■ Повышение готовности потенциальных студентов к обучению в удаленном формате.

Угрозы:

■ Снижение качества образования, уровня подготовки и квалификаций специалистов.

■ Недостаточная проработанность нормативной юридической базы регулирования дистанционного образования.

■ «Вымывание» из образовательного пространства небольших (особенно негосударственных) вузов, неспособных выдерживать конкуренцию с крупными государственными университетами.

Рассмотрим некоторые стороны цифровой трансформации образовательного процесса на основе перехода к обучению в электронной информационно-образовательной среде и дистанционным образовательным технологиям подробнее.

Условия для дистанционного обучения

Для оценки происходящего в настоящее время вынужденного перехода на дистанционное обучение необходимо ответить на следующие вопросы:

■ Какие факторы (социальные, институциональные, административные) определили готовность вузов к переходу на дистанционные технологии обучения?

■ Достаточны ли внутренние и внешние ресурсы для осуществления такого перехода? В частности, достаточен ли уровень развития IT-инфраструктуры для технической поддержки изменений? Обладают ли сотрудники и преподаватели необходимыми компетенциями для осуществления поставленных задач?

■ Какие этапы процесса перехода вызвали наибольшие затруднения у участников? Какие организационные механизмы давали сбои?

■ Каковы результаты перехода на дистанционное обучение для студентов, преподавателей, руководителей вузов, административно-управленческого и вспомогательного персонала? В чем причина недостижения целей или негативной обратной связи от участников? Какие проблемы необходимо решить для улучшения результатов?

Естественной реакцией на кризисную ситуацию может стать попытка воспроизвести знакомые системы, например, начать видеотрансляцию традиционных лекций (типа «говорящая голова»). Однако это было бы существенным упрощением и даже профанацией. Цифровые технологии дают возможность организовать обучение по-новому, помочь переосмыс-

лить основные принципы организации современного образования. В данной ситуации пандемический вызов может стимулировать поиск новых творческих решений.

Одним из магистральных путей трансформации современного образования является предоставление обучающемуся возможности самостоятельно формировать гибкие образовательные траектории, обеспечение академической мобильности, позволяющей изучать дисциплины, относящиеся к различным отраслям знаний/специальностей и преподаваемые в различных учебных заведениях. Дистанционные образовательные технологии открывают в этом отношении широкие возможности.

Анализ зарубежного опыта перехода на дистант в условиях пандемии позволяет выявить ряд проблем, с которыми сталкивается и азербайджанское образование. Часть малообеспеченных студентов откажутся от высшего образования в пользу более насущных потребностей. В первую очередь это касается стран с высокой платой за обучение (США, Великобритания, Австралия и пр.). Активный переход на онлайн-образование может отбросить эти страны на несколько лет назад в вопросах равенства между студентами из разных социально-экономических групп. В ряде стран разворачиваются дискуссии о том, должны ли университеты поддерживать своих студентов, и если да, то как. Африканские университеты дарят или предоставляют на время своим студентам компьютеры и предлагают оплатить им доступ в интернет. Университет Чикаго, элитный исследовательский вуз США, пообещал, что стоимость обучения и других университетских услуг за 2020/21 учебный год не вырастет. 52 тайских университета и ряд вузов в Объединенных Арабских Эмиратах уменьшили плату за обучение. И этот процесс продолжится. Университеты будут предлагать стипендии, фиксировать или снижать плату за обучение для того, чтобы удержать лучших студентов. Это хорошо с точки зрения меритократии и социальной справедливости, но ставит вопрос о дополнительном финансировании университетов со стороны государства [11].

Среди университетов кризис в первую очередь затронет частные вузы, университеты, зависимые от платы за обучение и в значительной степени от денег, поступающих от иностранных студентов. Так, бюджет австралийских вузов на пятую часть состоит из платы за обучение иностранных студентов. Правительства Австралии, Великобритании и США уже выделили существенные суммы для поддержки своих университетов. В некоторых странах (например США) создаются экстренные фонды для поддержки иностранных студентов. Сами университеты поддерживают своих студентов, выплачивая материальную помощь, доставляя документы по миграционному сопровождению в общежития и устраивая регулярные онлайн-встречи по поддержке [11].

Передовые мировые университеты сейчас уделяют особое внимание психологической поддержке своих студентов и сотрудников, настраивая системы сервисов по ментальному здоровью под онлайн-формат и повышенный уровень тревоги, страха и одиночества. Здесь наиболее уязвимы университеты, в которых такие сервисы отсутствуют, включая китайские и российские. И там и там есть точечные инициативы в отдельных вузах, обычно идущие от самих студентов и не закрывающие все риски и трудности. Университеты зачастую просто не знают о том, кто нуждается в помощи. Изменения должны произойти в деятельности сотрудников и преподавателей университетов. Чтобы быть конкурентоспособными, им придется осваивать технологии владения информационными ресурсами, инструментами, взаимодействия со студентами в онлайн-формате. Тот, кто сможет это лучше сделать, тот и будет конкурентоспособным в новой академической среде. Но при этом не следует преувеличивать значимость инструментов, в том числе цифровых технологий. Важнейшим фактором эффективности образовательного процесса остается профессионализм самого преподавателя как носителя современных знаний и навыков, которые он передает студентам. Многим, даже хорошим «традиционным» преподавателям не хватает навыков работы в цифровой среде. Зачастую у них не было достаточно времени и мотивации на освоение новых инструментов, перестройку образовательного процесса, поддержки со стороны технических служб университета, которые играют важную роль при внедрении новых технологий. Обучение

преподавателей в столь сжатые сроки, как правило, свелось к инструктивным внутренним совещаниям, коротким вебинарам от экспертного сообщества, рекомендациям и инструкциям по работе с различными сервисами и платформами, размещенными на сайтах организаций. Вопросы педагогического дизайна и проработки проектов курсов даже не ставились в повестке перехода на дистанционное обучение. Это было оправданно вследствие форс-мажорных обстоятельств, которые заставили вузы мобилизовать все имеющиеся ресурсы и совершить рывок в массовом экстренном внедрении дистанционных образовательных технологий, но не может считаться удовлетворительным в планомерном использовании инструментов онлайн-обучения, требующем гораздо более длительного времени.

Электронный контент, созданный для решения вызванных пандемией кризисных сиюминутных проблем, следует отличать от полноценных онлайн-курсов, предполагающих создание гибкой интерактивной «студентоцентричной» онлайн-среды для контролируемого освоения знаний и навыков обучающимися. И, как следствие, - нет оснований судить об эффективности онлайн-обучения в целом только по тем результатам, которые будут получены в этом «глобальном эксперименте» экстренного перехода на дистанционное обучение.

При переходе в онлайн, естественно, возникают новые роли у сотрудников университетов, связанных с менеджментом и сопровождением образовательного процесса. Онлайн - это не анархия. Когда хочешь - тогда и смотришь лекции. Она требует поддержания электронного расписания, распределение образовательной деятельности, заданий. Большая часть из этого будет переведена в электронный формат. Будет внедряться электронная цифровая подпись преподавателей, ответственных администраторов и менеджеров образовательного процесса. И это тоже принципиально изменит учебный процесс.

Сейчас одна из главных задач - развитие технологий оценивания. Нужно проводить идентификацию того, кто сдает экзамен или выполняет задание. И вообще, отслеживать процесс проведения экзамена, если он проходит в дистанционном формате. Для этого нужно построить систему распознавания лиц. Отработать систему отслеживания самостоятельной работы студента. Эти технологии в последнее время развивались в связи с появлением различных форматов онлайн-образования. Но сейчас их настройка становится задачей национального масштаба.

По мнению экспертов, через некоторое время возникнут центры передачи и оценки знаний, где студент может в виртуальном формате получить доступ к выбранному им самим курсу, пройти тот или иной экзамен в виде диалога с преподавателем или в формате выполнения различных заданий [12]. Правильно подобранные материалы курса, исходя из целей и задач обучения и характеристик учебного процесса в онлайн-среде, обеспечат обучающимся образовательный результат, а преподавателю - положительную обратную связь. Такой подход подразумевает, что онлайн-обучение - это прежде всего когнитивный и социальный процесс, а не просто процесс передачи информации посредством интернета.

Son aylarda məsələlərin onlayn həlli misli görünməzdir. Qısa müddətdə təhsil işçiləri şəhərciklərin qəfil və məcburi bağlanması ilə əlaqədar tamamilə ənənəvi təhsildən distant təhsilə keçərək "ilk yardım" həllini tətbiq etdilər. Ancaq uzaqdan öyrənmənin, tələbə cəlbetmə üçün effektiv vasitələri və müəllim hazırlığı kimi düşünülmüş onlayn təhsil təklif etmək üçün uzun bir səyahətdə yalnız kiçik bir sınaq təcrübəsi olduğunu dərhal anlayırlar. Universitetlər, onlayn təhsil şirkətləri və texnologiya təminatçıları arasında yaranan bəzi ortaqlıqlar pandemiyadan sonrakı dövrlərdə də davam edə bilər. Bu dövr nə qədər ağrılı və stresli olsa da, təhsil sistemlərimizin çoxdan gözlənilən yenilənməsinə səbəb ola bilər. Pandemiya, müəyyən mənada, hazırkı təhsil sistemlərimizin zəif tərəflərini daha yaxşı başa düşərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdəki bütün maraqlı tərəfləri (təhsil işçiləri, tələbələr, siyasətçilər və ümumiyyətlə cəmiyyət) tarazlaşdırmışdır. Sosial uzaqlaşma, xidmətlərin daha geniş rəqəmsallaşdırılması və daha çox rəqəmsal yönümlü ünsiyyətin norma ola biləcəyi bir dünyada fəaliyyət göstərmək və inkişaf etmək üçün əhalimizin rəqəmsal savadlı olmasının nə qədər vacib olduğunu vurğuladı. Üstəlik, COVID-19 bizə təhsili nə vaxt, harada və necə verdiyimiz, kollec və universitetlərin rolu, ömür boyu öyrənməyin əhəmiyyəti və ənənəvi və qeyri-ənənəvi şagirdlər arasında fərq qoymağımız barədə köklü fikirlərə meydan oxumağımızı tələb edir.

Pandemiya, insanlara həyatımızı davam etdirmək üçün aşağı ixtisaslı işçilərdən nə qədər asılı olduğumuzu da başa saldı. Qapanmalar, komendant saatı zamanı çatdırılma təmin etmək və təməl ehtiyaclarımızı ödəmək üçün çox növbədə işləyərək ön cəbhədə olan bu işçilərdir. Vaxt keçdikcə avtomatlaşdırma bu işləri istehlak etməyə davam edəcəkdir. Hər zaman aşağı ixtisaslı işçilər tərəfindən göstərilən xidmətlər mövcud olsa da, yeni iş yerlərinin çoxu daha yüksək bacarıq səviyyəsi tələb edəcəkdir. Sürətlə dəyişən bu dünyada yenidən hazırlıq keçmək və bacarıqları inkişaf etdirmək imkanı yalnız zərurət deyil, həm də iqtisadi şərtdir. COVID-19, təhsil sistemimizi bir ildırım kimi vurdu və kökündən sarsıtdı. İlk Sənaye İnqilabı bugünkü təhsil sistemini qurduğu kimi, COVID-19-dan da fərqli bir təhsil modelinin ortaya çıxacağını gözləyə bilərik.

Bu məqaləni yalnız məni həqiqətən narahat edən bir düşüncə ilə bitirmək istəyirəm və ümid edirəm ki, bu vəziyyət tamamilə dəyişəcək. Və kaş ki, bu daha tez baş versin. Bu çətin vaxtlarda çox çalışan və şagirdlərin öyrənmələrini davam etdirmələri üçün əllərindən gələni əsirgəməyən müəllimlərin rolunu onlayn dərslərdə iştirak edən valideynlər və uşaqların qiymətləndirmələrini istəyirəm. Valideynlər üçün çətin və ya uşaqlar üçün qarışıq olsa da, vəziyyət müəllimlərimiz üçün eyni dərəcədə çətin və əlverişsizdir.

Dünyanın əksər kollec və universitetləri bir sıra onlayn təhsili öz kurslarına inteqrasiya etsə də, bütün proqramlarını onlayn gətirmək çətin ola bilər. Bəzi universitetlər onsuz da güclü onlayn sistemlərə sahib olsa da, kiçik universitetlər tələb səbəbiylə çətinlik çəkə bilər. Universitet kursu yaradıcıları, proqramlarının onlayn dəstəklənməsini təmin etmək üçün İT şöbələri ilə sıx əməkdaşlıq etməlidirlər.

Tədqiqatlar onlayn öyrənmənin məlumat tutma səviyyəsini artırdığını və daha az vaxt aldığını göstərir, beləki, COVID-19-un səbəb olduğu dəyişikliklərin qalması davamlı ola bilər.

COVID-19 bitdikdən sonra yeni bir modelin ortaya çıxacağını gözləyə bilərik.Əminəm ki, bütün bunlar bitdikdə təhsil sistemimiz əvvəlkindən daha yaxşı olacaq və hər birimiz bu dəyişikliyin bir parçası olduğumuza görə məmnun olacağıq.

Ədəbiyyat

1. https://www.weforum.org/agenda/2020/05/how-covid-19-is-sparking-a-revolution-in-higher-education/
2. https://en.wikipedia.org/wiki/Impact_of_the_COVID-19_pandemic_on_education
3. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC7869946/
4. https://www.emerald.com/insight/content/doi/10.1108/JRIT-10-2020-0051/full/html

Zərövşən BABAYEVA
Naxçıvan Dövlət Universiteti,
pedaqogika üzrə elmlər doktoru, dosent
bababyeva_z@yahoo.com

ONLAYN AUDİTORİYA – ÖYRƏTMƏ-ÖYRƏNMƏ PROBLEMLƏRİ

ONLINE AUDITORIUM – TEACHING-LEARNING PROBLEMS

ОНЛАЙН-АУДИТОРИЯ – УЧЕБНО-ПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ

Xülasə: Məqalədə öyrədən-öyrənən arasındakı fərqli formatda fəaliyyətlərin gündəmə gəlməsi ilə ali və orta məktəblərdə tədrisin idarə edilməsinin dövrün problemlərinə müvafiq şəkildə təşkili zərurətə çevrilməsi, gələcəkdə də yarana biləcək qarışıqlıqlara hazırlıqlı olmağımızı diqqətə çatdırır. Həmçinin müasir texnologiyalar sayəsində karantin şəraitində təhsil fəaliyyətinin davam etdirilməsi - onlayn, virtual format, a-sosial mühit, məsafələrin uzanması digər problemləri də yaratmışdır. Bunun üçün ali məktəblərdə tələbələrin yeni formatda müəllim kimi yetişdirilməsinin əsas məqsəd olması məqalədə öz əksini tapmışdır.

Açar sözlər: *onlayn, virtual format, sosial mühit, məsafələrin uzanması*

Abstract: The article draws attention to the need to organize education management in higher and secondary schools in accordance with the challenges of the time, with the emergence of activities in different formats between teachers and students, and to be prepared for future confusion. Also, thanks to modern technologies, the continuation of educational activities in quarantine conditions - online, virtual format, an asocial environment, an increase in distances created other problems. The main goal of this is to train university students as teachers in a new format, the article says.

Keywords: *online, virtual format, an asocial environment, an increase in distances.*

Резюме: В статье обращено внимание на необходимость организации управления образованием в высших и средних школах в соответствии с проблемами времени, с появлением деятельности в разных форматах между учителями и учащимися, и быть готовыми к будущей неразберихе. Также благодаря современным технологиям продолжение образовательной деятельности в условиях карантина - онлайн, виртуальный формат, асоциальная среда, увеличение расстояний создало другие проблемы. Основная цель этого - подготовка студентов высших учебных заведений в качестве преподавателей в новом формате, говорится в статье.

Ключевые слова: *онлайн, виртуальный формат, асоциальная среда, увеличение расстояний.*






XXI əsr auditoriyası – sabahın biolog, müəllim, metodist, məktəb rəhbəri, valideynini hazırlamaq üçün fərqli formatdan istifadə etmək zərurətu doğurur. Bu hazırlıq işləri professor-müəllim, metodistlərin yeniliklərə açıq, yeni təhsil islahatlarından xəbərdar olub, işlərində tətbiq etməsindən başlayır. İndi əsas məqsəd – öyrətməyi öyrənib – öyrənməyi öyrətməkdir. Hazırda nəinki təhsil sistemini, bütövlükdə həyatın bütün sahələrini iflic vəziyyətindən qurtaran internet, müxtəlif texnologiyalar və müasir təlim məqsədli proqramların həyatımızda önəmi bir daha özünü göstərdi. Müasir rəqəmsal əsrdə informasiyalı təhsil mühitinin formalaşdırılması, təkmilləşdirilməsi son illər daha da aktuallaşmışdır. Bu, çox mürəkkəb və lazımi avadanlıqların toplanmasını, idarəetmə mexanizmini, müxtəlif müəssisə və təşkilatların inteqrasiyasını tələb edir. Yeni formata uyğun kadrların yetişdirilməsi də dövrün vacib şərtlərindəndir. İndi əsas məqsəd müasir dərsə verilən tələblər, elektron tədris vəsaitlərindən səmərəli istifadə [4; 5; 8-10], interaktiv rejim, onlayn, video dərslərin, e-təhsil, distant təhsilin daha verimli olması qayğısına qalınmasıdır. İnteraktiv təlim, interaktiv rejim son illər təhsil sahəsinə səmərəlilik gətirmişdir. Bu rejim sayəsində öyrədən-öyrənən münasibətlərində yeni yanaşmalar tədris prosesində elmi biliklərin verilməsi, mənimsənilməsi, bilik-bacarıq-vərdişlərin formalaşmasına xüsusi imkan yaratmışdır. Təlimin keyfiyyətinin yüksəldilməsi və dünya standartları səviyyəsinə qaldırılması bir çox amillərdən asılıdır. Son aylar yaşadığımız problemlər bütün dünyada modern texnologiya və proqramlardan istifadənin zərurətini dərk etməklə yanaşı, müxtəlif sahələrdə mütəxəssislərin öz sahəsi üzrə yeniliklər etmək məcburuyyəti yaratmışdır. Qədəm qoyduğumuz yeni dünyada bizi daha hansı sürprizlərin gözlədiyini bilməsək də perspektiv planların hazırlanmasına başlamalıyıq. Bunun üçün hər kəs yeni formatda yaşamağa uyğunlaşmaq tələbinə şəxsi fəaliyyəti ilə cavab verməlidir. Son aylar internet texnologiyası, Cisco Webex Meetings, Screen Hunter, Zoom, Loom və s. proqramlar yeganə ünsiyyət vasitəsi kimi cəmiyyətlərin və fərdlərin həyatında, eləcə də təhsil sahəsinin canlandırılmasında canqurtaran rolu oynamışdır. Son iki il məlum vəziyyətlə əlaqədar təhsil sistemində baş verən durğunluğu aradan qaldırmaq üçün onlayn dərslərin keçirilməsi və videodərslərin nümayişi təhsil sahəsində canlanmaya səbəb olmuşdur. Artıq onlayn simpoziumlar, forumlar, konqreslər, elmi seminarlar keçirilməklə, tədris prosesinin keyfiyyətini yüksəldən metod və vasitələrin (təlim proqramları, tədris vasitələri və s.) keyfiyyətcə yeni formatda təqdimi probleminin həlli qaçılmaz olmuşdur [6].



Distant təhsilin zərurətə çevrildiyi hazırkı şəraitdə təhsil sisteminin yeni ideyalara, tələb-təklif paketlərinə ehtiyacı yaranmışdır. Bu sahədə aidiyatı olan hər bir kəs öz yeni fikirlərini, tədrisin səmərəliliyini artırmaq üçün fərqli metod-üsullarını təklif etməli, ən yeni texnologiya və proqramların təhsil sahəsində tətbiqi problemlərini araşdırmalıdır. Çünki interaktiv rejim o zaman yaranır ki, öyrədən və öyrənən qarşılıqlı bilik mübadiləsi ilə yeni biliklərin öyrədilməsinə nail ola bilsin. Bundan başqa ali məktəb müəllimləri, metodistlər və s. artıq dərs vəsaitlərinin hazırlanması zamanı fərqli dizayn düşünməli, həmin dərsliklərin e-variantının sistemə yerləşdiriləcəyini də nəzərə alıb interaktiv sual-cavab, qeyri-formal çalışmalar, təcrübə nümunələrini də əlavə etməyin öyrətmə prosesini sürətləndirəcəyini nəzərə almalıdırlar. Artıq yeniləşən və kəskin dəyişən dünya təhsil sisteminə yalnız ənənəvi baza ilə davam etmə şansı buraxmamışdır. Ümumiyyətlə, müasir təlim metodları və yeni pedaqoji texnologiyaların tətbiqində baş verən sürətli yenilənmə təhsil sahəsi insanının da özü-

nü yeniləməsini təkidlə tələb etməkdədir. Bu gün onlayn, virtual, video dərslərin aktuallıq qazanması, videokonfransların zəruri hal alması yeni dünya insanından verimli yaradıcılıq tələb edir. Buna görə də istənilən peşə sahəsində çalışanların daim dəyişən, inkişaf edən, qloballaşan dünyada səmərəli fəaliyyət göstərməsinin vacibliyi artıq zərurətə çevrilmişdir. Təhsil sahəsi üçün isə bu zərurətin tərkib hissəsi – *ən yeni təlim texnologiyalaridir [1-3; 7]*.



Elektron, yoxsa ənənəvi kitab? Müasir dövrdə internetin zəngin informasiya ehtiyatları ilə yanaşı, kağız kitabları əvəzləyən elektron formatda kitabların meydana gəlməsi tədrisdə yeni imkanlar açmışdır. Xüsusən də yeni nəslin adi kitablardan daha çox elektron kitablara üstünlük verməsi e-bookların müəyyən qədər normal kitabların yerinə keçəsəyi ehtimalını artırır. Hazırda planşet və digər mobil cihazlardan elektron kitab oxuyanların sayı kitabxanalarda kitab axtaranlardan çoxdur. Bəs elektron kitablar həqiqətən də ənənəvi kitabları əvəz edə bilərmi? Və nə üçün gənclər elektron kitablara daha çox üstünlük verirlər? Əksəriyyət belə hesab edir ki, məhsul olaraq elektron və kağız kitabın fərqi yoxdur. Lakin elektron kitablar daha rahat və münasibdir. Əlbəttə zaman keçdikcə elektron cihazlarla kitab oxunması rahat olduğundan bəziləri üçün kağız kitabları əvəzləyəcəyi mümkündür. Bəzi tədqiqatçılar isə hesab edir ki, dünyada olduqca aktual olan elektron kitablar elektron qurğular vasitəsilə daha da geniş yayılmaqdadır. Bütün bunlar ölkəmizdə də elektron kitablara tələbatı artırdığından bu sahədə müəyyən çatışmazlıqlar nəzərə çarpır. Bu boşluğu aradan qaldırmaq üçün dərslik və dərs vəsaitlərinin elektron formatının hazırlanması istiqamətində əsaslı işlər aparılmalıdır. Bəzi mütəxəssislər iddia edir ki, elektron kitabların çoxalması, kağız nəşrlərin sayının azalması isə ağacları kəsilməkdən qoruyacaqdır [9-11, s.16]. Yaxın illərdə kütləvi xarakter daşıyacaq «Elektron kitab və ya E-book - 16 Mb elektron kitab fləş-yaddaşın köməyi ilə 3200 mətn səhifəsini və ya 10-a qədər orta həcmli kitabı yaddaşda saxlayır. Microsoft Word mətn redaktorlarında yaradılan DOC formatında, HTML və ya ZIP, RAR, ARJ mətnləri HTML dilinin vasitəsilə müxtəlif freym strukturların yaradılması, mətn və şəkillərin formalaşdırılması, siyahı və cədvəl strukturlarının təşkil edilməsi, şərh və istinadların daxil edilməsi əsasında yaradılır ***[12; 14].*** Bundan başqa, elektron dərsliklərdə axtarış funksiyaları mövcuddur ki, bu da xüsusi məlumatların axtarılması prosesini sürətləndirir və asanlaşdırır. Elektron dərsliklər asanlıqla daşınan cihazlarda, o cümlədən kompüterdə, leptop, planşet və mobil telefonlarda istifadə oluna bilir.



Elektron kitabda fayl dedikdə oraya - şəkil, qrafik, diaqram, səs də daxil edilə bilər. Elektron kitabları planşet kompüter sinfinə daxil etmək olar. Planşet fərdi kompüterin adi kompüterdən fərqi onun məhdud funksiyaları avtonom iş zamanı geniş vaxta malik olmasıdır. Müasir elektron kitablar adətən, sensorlu ekran ilə təchiz edilirlər və geniş funksiyalar toplusuna malik olurlar ki, bu da istifadəçinin tələbatlarını daha çox ödəyir. Ali məktəblərdə tələbələrin imtahana, seminara hazırlıq, sərbəst işlər üçün verdiyimiz tapşırıqlara multimedialı təqdimatların hazırlanması və nümayişi bacarıqlarının formalaşdırılması onların orta məktəb təcrübələrində pedaqoji prosesin interaktiv üsul və texnologiyalarla təşkilində mühüm rol oynayır. Tədqiqatlar göstərir ki, təhsilin modernləşdirilməsinin əsas məqsədi ona yeni keyfiyyət qazandırıb müsbət nəticələr əldə etməkdir. İKT əsasında yeni təhsil mühitinin formalaşdırılması biologiyanın tədrisində onun metodik əsasının aydınlaşdırılması yeni nəsil müəllimlərin hazırlanmasında peşəkarlıq nəticələrinə yeni tələbatın əksidir. Artıq elektron təlim resurslarının (ETR) didaktik imkanlarının analizi informasiya təlim mühitinin həyata keçirilməsi probleminin həllinə istiqamətlənmişdir. Bu sahədə rəqəmsal kitabxanaların, elektron ensiklopediyaların da rolu böyükdür.

Təklif etdiyimiz sistem bundan ibarətdir ki, yuxarıda sadalananları nəzərə almaqla, hər auditoriyanın tələb və təklifləri də nəzərə alınsın. Məsələn, Botanikadan hazırlanmış multimedialı təqdimatda üllistrasiyaların izahlı təqdimi zəruri olduğu halda, ümumi biologiyada daha mürəkkəb fakt və hadisələr yalnız müəllimlərin izahı ilə nümayiş olunmalı, müzakirə üçün də vaxt ayrılmalıdır. Bundan məqsəd aşağı sinif şagirdlərinin həm eşitmə, həm də görmə analizatorunu eyni anda qıcıqlandırıb yüksək səmərə qazanmaqdır. Botanika-zoologiya fənlərinin tədrisi zamanı bitki və heyvanların təsnifatı, morfologiyası və s. məsələlərin öyrədilməsini əyləncəli, daha maraqlı təqdim edib yüksək səmərə almaq olar. Botanika üzrə rəngarəng şəkillərlə zəngin slaydların nümayiş etdirilib müqayisə etmək; şəkildəki bitkinin, yaxud heyvanın hansı sinfə, fəsiləyə aidliyini və s. soruşmaq; zoologiya üzrə əyləncəli krosvordların tərtib edilməsi və s. metodikaların tətbiqi öyrənənləri biliklərin saxlandığı papka vəziyyətindən çıxara bilərik. Başqa bir medodikada *Youtube*-dan götürülmüş biologiyaya aid videofraqmentlərin səsini bağlamaqla izahının auditoriyadan tələb edilməsi də öyrənənlər arasında marağa və yarışmaya səbəb olur. Eksperiment dərslərində müşahidə etdik ki, hər bir şagird daha çox bildiyini göstərib digərlərindən fərqlənməyə çalışır. Tədqiqat müddətində bu üsuldan motivasiya və problem situasiya kimi istifadə edib yaxşı nəticələr almışıq. Bu yaşda gənc oğlan və qızların fərqlənmək istəyindən bacarıqla istifadə edib fənnin öyrənilməsinə nail olmaq məharətindən də faydalanmaq məqsədəuyğundur. Eksperimentlər zamanı belə dərslərin daha çox marağa səbəb olduğunu, şagird və tələbələrin fərqli metodikanı maraqla qarşıladıqlarının şahidi olduq. Qloballaşma şəraitində təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən bu istiqamətdə potensiallı kadrlara da ehtiyac yaranmışdır. Bu səbəbdən istər ali təhsil müəssisələrində tələbələrin, istərsə də orta məktəblərdə şagirdlərin müasir təhsil standartlarına uyğun hazırlanması qarşıda duran əsas vəzifələrdən biridir. Həmçinin öyrənənlərin tədqiqatçılıq meyllərinin inkişafı da nəzərdən qaçırılmamalıdır. Cəmiyyətlərin inkişafı təhsilə qoyulan yatırımlardan asılıdır. Bu işdə professor-müəllim heyəti yenilikləri izləyən, müasir, dünya təcrübəsindən xəbərdar, ən yeni texnologiyalardan istifadə etmək potensialına malik olmalı və buna xüsusi səy göstərməlidirlər.

Təhsil islahatlarının tədris sisteminə gətirdiyi yeni metod, üsul, təlim və vasitələr arasında konstruktiv təlim də öz səmərəsini təsdiqləmişdir. Konstruktiv yanaşma ilə biologiya dərslərinin planlaşdırılması zamanı əsas diqqət biliklərin hərtərəfli öyrədilməsi ilə yanaşı, öyrənənlərin bu bilikləri öyrənmə işində bütün öyrəndiklərindən istifadə edə bilmək bacarıqlarının formalaşdırılmasına yönəldilməlidir. Bunun üçün bir neçə fəaliyyət planını nəzərə almaq zəruridir: Keçirilmiş biliklərin xatırladılması; Yeni biliklərin öyrədilməsi ilə yanaşı gələcək biliklərə giriş; Motivasiya, düşünməyə yönəltmə, dərketmə, düşünmə mərhələlərinin təşkili və s. Sonda müəllim-şagird fəaliyyətinin qiymətləndirilməsi mənimsəmə səviyyəsi ilə yanaşı, öyrədilmiş, öyrədilən və öyrəniləcək biliklər üzərində aparılması işlərinə də diqqət yetirilməlidir. Məhz bu meyarlar biliklərin öyrənilməsi və onlardan düzgün istifadə etmək imkanı yaradır. Diqqətin əsas xüsusiyyətləri olan cəmlənmə və möhkəmlik ehtiraslı, yaradıcı insanları xarakterizə edir. Müxtəlif şəraitlərdə diqqətlə işləməyi öyrənmək, kənar qıcıqlara yayınmamaq idarə oluna bilər. Diqqətin davamlılığının inkişafı insanın iradi

xüsusiyyətlərinin tərbiyəsi, onun daxili nizam-intizamı ilə bağlıdır. İnsan beyni bir çox işi eyni anda yerinə yetirən sistemə malikdir. Məsələn, bir insan beynindəki qüsursuz quruluş sayəsində bir tərəfdən avtomobili sürərkən, digər tərəfdən maqnitofonu işə sala bilir, həmçinin sükanı da rahatlıqla idarə edə bilir. Bir çox işi eyni anda yerinə yetirməyimizə baxmayaraq qarşımızdakı avtomobillər və ya piyadalarla toqquşmuruq. Eyni anda ayaqlarımız ilə avtomobili idarə edir, radio dinləyərkən deyilənləri də tam şəkildə anlayırıq. Söhbətə qaldığımız yerdən davam edir və ən əsas odur ki, bütün bu proseslərin hamısını eyni anda mükəmməl idarə edirik. Bütün bu faktlar insan zəkasının üstünlüyünü göstərir. Elə bu imkanlardan düzgün istifadə etməklə istər təhsil, istərsə də həyatın müxtəlif sahələrində yüksək nailiyyətlər qazana bilərik.

Təcrübələr göstərir ki, təhsildə istənilən səviyyəyə çatmaq üçün öyrənənlərdə aşağıdakı bacarıqların formalaşdırılması vacib sayılmalıdır: Yeni biliklərə məntiqi, tənqidi yanaşmaq, təxəyyülə sahib olmaq, yaradıcı tətbiqetmə, fərqli tədris formatı, dinləmə, kommunikasiya, təhlil, analiz-sintez, düşündürücü sual vermək bacarığı və s. Bütün bunlar təhsildə, dolayısı ilə cəmiyyət həyatında innovasiyalardan istifadəni təmin edəcəkdir:

Təhsildə nələri dəyişək? – öyrənənlərin müstəqilliyinə, sərbəstliyinə imkan yaradıb həvəsləndirmək, vaxt vermək. Gənc nəslin suallarına ciddi yanaşıb birlikdə tədqiqat aparmaq, gələcəyin məsuliyyətini dərk etdirmək.

Yeni dövrdə təhsil necə olmalı? – Bacarıqları inkişaf etdirməklə. Gənclər fundamental bacarıqlarını təkmilləşdirməklə yeni dövrdə yer tuta bilərlər. Artıq dünyada ixtisaslaşmış təhsil geri qalmış təhsil sayılır. Fərdi yanaşma və müşahidə ilə öyrənənləri dəyərləndirməliyik. Yəni bu əsrdə insanın qəlbinin, ruhunun bacarıqları da önə çəkilməli, empatiya qurularaq qarşıdakının fikirlərinə önəm verilməlidir.

Dünyanı dəyişmək üçün müəllimlər nə etməli? – Məlumatların canlı, öyrənənlərin yaradıcı olmalarına diqqət yetirilməli, tədris edilən fənlərin önəminə diqqət edilməli; Dünyagörüşün zənginliyi, yaradıcı işə xüsusi fikir verilməlidir. Xüsusilə son illər tənhalaşmaq, təcridolunmaq işin keyfiyyətinə mənfi təsir etmişdir. Bu baxımdan cəmiyyətlərin və dövlətlərin müəllimlərin problemləri ilə maraqlanması, həyat şəraitlərinin yaxşılaşdırması qayğısına qalması işin xeyrinə olardı.

Yeni dünyada yeni məktəb modeli necə olmalı? – Tələbələrin yaradıcılığı, gördüyü iş qiymətləndirilməli; Biliklərin yaradıcı tətbiqi; Müəllimlər kollektiv şəkildə fəaliyyət göstərməlidir. Bu həm motivasiya edici təsir edər, həm də yaradıcılıq, tədqiqatçılığa meyli artırardı.

Təhsildə hesabatlılq bacarığı nədir? – Tələbələrin ən nümunəvi işlərinin nümayişinin, süni zəkanın təhsilə təsiri imkanlarının qiymətləndirilməsinin fərdi inkişafa təsiri daha çox olacaqdır. Texnologiyaların tətbiqi zərurəti bu sahəyə diqqətin artırılmasını diktə etməkdədir. Ölkə, dövlət, müəssisələr arasında cəmiyyətin inkişafı qiymətləndirilməlidir. Dünyanın necə dəyişdiyini anlamaq; Birlikdə öyrənməni dəqiqləşdirmək, şərait yaratmaq, dəyişməyə hazır olmaq. Gənc nəslin təkmilləşməsi, yeni dünyaya hazırlanması, fərqli formata istiqamətləndirilməsi [16].

Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illüstrasiyalar şagirdlərin idraki fəaliyyətinə, məntiqi, tənqidi təfəkküründən formalaşmasına müsbət təsir göstərir, intellektual bacarıqlarını artırır, əyani öyrənmə imkanları genişləndirir. Müasir TMPT-lər (təlim məqsədli proqram təminatı) növbəti təlim üslublarını və ya onların cəmini uzlaşdırır: **uzlaşdırılmış fəaliyyət, müəllim və şagirdin müsahibəsi, izahlı təlim, konstruktiv (məsləhətçi) təlim.** Proqram-aparat vasitələrinin, kompüterlərin təlim prosesində istifadə edilməsi təcrübəsinin və təlim proseslərinin təşkilinin müasir mərhələsində TMPT-ləri aşağıdakı kimi şərtləndirmək olar: ***kompüter diskləri; fənnə yönəlmiş mühitlər (virtual reallıqlar, mikrodünyalar, modelləşdirici proqramlar, təlim paketləri); laboratoriya məşğələləri; trenajorlar; nəzarətçi proqramlar; təlim məqsədli «soraq kitabları», məlumatlar bazası.*** Baxılan layihə üzrə realizə olunan proqram, orta və ali təhsil müəssisələrinin müəllimlərinin tədris prosesində İKT-nin səmərəli tətbiq olunması istiqamətində geniş perspektivə malik olan təlim texnologiyasıdır. Tədris sahəsində bütün baş verənləri nəzərə alaraq köklü dəyişikliklər etməklə müxtəlif elmi bilikləri əzbərləyən şagird, yaxud tələbə kifayət etmir. Öyrənənləri biliklərin saxlandığı **"papka"** formatından çıxarmaq, öyrəndiyi biliyi yaradıcı tətbiq edə bilən, təklif olunan hazır biliklərə tənqidi yanaşan, kon-

struktiv düşünən auditoriyaya sahib olmaq üçün bioloji biliklərin hərtərəfli öyrədilməsi, bioloji bilik, bacarıq, vərdişlərin formalaşdırılması müasir dövrün imkanları ilə daha asanlaşmışdır. Artıq tədrisdə yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etmək - İKT vasitələrinin geniş imkanlarının tətbiqi təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. **"Müəllim – şagird - dərslik"** tədris modelinə **kompüterin** də əlavə edilməsi, öyrənənlərin dərsə marağını və istəyini stimullaşdırmağa imkan verir.

Ədəbiyyat

1. Babayeva Z.Y. Biologiyanın tədrisində İKT-dən istifadə: interaktiv və ənənəvi təlim. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, «Təhsil» NPM, 2011, 178 səh.
2. Babayeva Z.Y.Biologiyanın tədrisində texnoloji innovasiyalardan istifadənin perspektivləri. Naxçıvan, «Qeyrət» nəşriyyatı, 2016, 210 səh. Monoqrafiya
3. Hüseynov Ə. Orta məktəbdə biologiya tədrisinin nəzəri və metodiki əsasları. Bakı, Çaşıoğlu, 2000, 268 s.
4. Əliyeva F.A., Məmmədova Ü.R. Müasir Təlim texnologiyaları (dərs vəsaiti). MBM nəşriyyatı, Bakı, 2014, 197 səh.
5. G.Gençer, N.Gürbulak, T.Adgggzel http://www.egitimdeteknoloji.com/author/tufanadiguzel/. Eğitimde Yeni Bir Süreç: Ters-Yüz Sınıf Sistemi. Ters Yüz Edilmiş Sınıf (Flipped Classroom). Bahçeşehir üniversitesi. Beynəlxalq konfransın materialları, Nis. 15, 2014
6. Babayeva Z. Use of NLT in higher education management. International Multidisciplinary Research Journal / India, 2015, Volume: III Issue: VIII Of November, p: 8995-9003
7. Babayeva Z. Condition of using innovations in teaching biology. Transylvanian Review journal, (ISSN 1221-1249). Thomson Reuters. Volume XXIV, No.5, Special Issue, 2016, p.346-353.
8. http://mimio.az/light/?page_id=68
9. http://www.egitimdeteknoloji.com/
10. http://www.elmoglobal.com/
11. http://www.smartcongress.ru/#!/c1bwl
12. https://az.wikipedia.org/wiki/Elektron_kitab_(qur%C4%9Fu)
13. https://www.e-resurs.edu.az/site/search.php**?**
14. http://www.e-derslik.edu.az/portal/book.php?id=235
15. https://www.kitabyurdu.org/meqale/735-e-kitab-nedir-ve-nece-istifade-olunur.html
16. https://yazarlar.az/2021/04/24/t%c9%99hsild%c9%99-innovasiyalar-yeni-dunya-duz%c9%99ni-yeni-t%c9%99dris-formati-z%c9%99rovs%c9%99n-babayeva/

Sevda TAHİRLİ
Bakı Dövlət Universiteti,
dosent, biologiya elmləri namizədi
Smt27@inbox.ru

PANDEMİYA DÖVRÜNDƏ ALİ MƏKTƏBLƏRDƏ DİSTANT TƏHSİLƏ KEÇİDİN SWOT ANALİZİ

SWOT-ANALYSIS OF THE TRANSITION TO DISTANCE EDUCATION IN UNIVERSITIES DURING THE PANDEMIC

SWOT-АНАЛИЗ ПЕРЕХОДА К ДИСТАНЦИОННОМУ ОБРАЗОВАНИЮ В ВУЗАХ ВО ВРЕМЯ ПАНДЕМА

Abstract: Məqalədə pandemiya şərtlərində təhsil sistemində baş verən dəyişikliklərdən bəhs edilir. Bütöv bir nəslin təhsil almasında yarana biləcək əksiklərə yol verməmək üçün tətbiq olunmuş distant təhsilin SWOT analizi verilir. Distant təhsilin güclü və zəif yonləri göstərilir. Həmçinin bu təhsil platformasının üstün cəhətləri, imkanlar və təhlükələr müzakirəyə çıxarılır. Distant təhsilinin ənənəvi təhsillə "simbiotik" formasının təhsil prosesində daha effektiv nəticələrə səbəb olacağı diqqətə çatdırılır.

Açar sözlər: *COVİD-19, pandemiya, distant təhsil, onlayn dərs, ali məktəb, distant təhsilin SWOT analizi, distant təhsilin üstünlükləri, distant təhsılin zəif tərəfləri, distant təhsildə imkanlar, distant təhsildə perspektivlər, distant təhsildə təhlükələr.*

Абстракт: В данной статье рассматриваются изменения происходящие в системе образования в условиях пандемии.Представляется SWOT-анализ дистанционного образования в системе ВУЗ. Обсуждается сильные и слабые стороны дистанционного обучения. А также рассматривается преимущество, положительные и отрицательные стороны этой образовательной платформы. Отмечается, что «симбиотическая» форма дистанционного обучения с традиционным образованием приведет к более эффективным результатам в учебном процессе.

Ключевые слова: *COVİD-19, пандемия, дистанционное образование, онлайн занятие, высшее учебное заведение, SWOT-аиализ дистанционного образования, преимущество дистанционного образования, слабые стороны дистанционного образования, перспективы дистанционного образования, угрозы при дистаиционном образовании.*

Abstract: This article examines the changes taking place in the education system in the context of a pandemic. A SWOT analysis of distance education in the system of the university is presented. The strengths and weaknesses of distance learning are discussed. It also examines the advantages, positive and negative sides of this educational platform. It is noted that the "symbiotic" form of distance education with traditional education will lead to more effective results in the educational process.

Keywords: *COVID-19, pandemic, distance education, online lesson, higher educational institution, SWOT-analysis of distance education, the advantage of distance education, the weaknesses of distance education, the prospects of distance education, threats of distance education.*

Dünyamız hazırkı dövrdə öz tarixi gedişində yeni bir mərhələyə daxil olub. COVİD-19 pandemiyasının öz təhlükəsi ilə bəzəriyyəti ciddi bir sağlıq təhlükəsi qarşısında qoymaq, sosial həyatımızda bir çox məhdudiyyətlərə yol açmaqla yanaşı, iqtisadiyyatın hər sahəsində olduğu kimi, təhsil sahəsini də fors-major situasiyası ilə üzbəüz qoymuş olduğunun şahidi olduq. Təhsildə uzunmüddətli fasilələrə yol vermədən insanların yoluxma riskini minimuma endirmək, bununla virusün daha çox yayıla bilmək imkanlarını məhdudlaşdırmaq məqsədilə Təhsil Nazirliyi ciddi addımlar ataraq həm orta təhsil müəssisələrində, həm də ali məktəblərdə təhsilin distant formasına keçilməsi istiqamətində fəaliyyətini gerçəkləşdirməyə başladı. Bununla əlaqədar olaraq, əyani təhsilin hər növ dərs formasının – mühazirə, seminar, praktik məşğələ, labortaoriya dərslərinın distant olaraq keçilməsinə qərar verildi.

Bu dövrə qədər ölkənin təhsil sistemində tam etimadın göstərilmədiyi distant təhsil hələ ötən əsrin 60-cı illərindən beynəlxalq səviyyədə qəbul olunmuş və YUNESKO tərəfindən də dəstəklənidiyindən daha da inkişaf etməyə başlamışdı. İlk olaraq İngiltərədə 1969-cu ildən fəaliyyətə başlayan və böyük populyarlıq qazanmış olan "Açıq Universitet"də (Open University) hazırda 200 000-dən artıq yerli və xarici tələbə distant təhsil alır [1, s.200] Ötən əsrin 80-ci illərindən ABŞ- da (Fiziki məhdudiyyətli şagirdlərə yardım məqsədilə) distant təhsilli məktəblər fəaliyyətə keçir. Az sonra Fransada, Kanadada, İsraildə, Avstraliyada [9] və daha sonra digər ölkələrdə də bu təhsil formasına yer verildiyindən tədricən bu istiqamətdə beynəxalq təcürbə formalaşır. Qeydiyyatdan keçən 3 milyon tələbə sayı baxımından Avrupanın birinci, dünyanın en büyük üçüncü üniversitesi olub *giga* üniversitetler kateqoriyasında yer alan həm ənənəvi, həm də distant təhsil verən Anadolu universiteti (Əskişəhər, Türkiyə) də distant təhsil sahəsində böyük təcrübəsi olan təhsil öcağıdır .

"Təhsil haqqında" qanunda (maddə 13) və Nazirlər Kabinetinin qərarı ilə 2011-ci ildə təsdiq olunan "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə öz əksini tapmış olsa da, bu təhsil formasına ölkədə mürciət edilməməsi və distant təhsillə bağlı təcrübənin olmaması ilk dövrlərdə fəaliyyət planında problemlərın yaranmasına səbəb oldu. Niyə o dövrə qədər distant təhsilə start verilməmişdi?-sualının cavabını ölkəmizdə distant təhsil mexanizminin işlənib hazırlanmaması ilə yanaşı, ali təhsil müəssisələrinin buna tam hazır olmaması, bu mövzu ilə əlaqədar məlumat azlığının olmasında axtarmaq lazım gəlir. Bu məsələdə ləngimə, nəticə etibarilə həm gənclərimizin təhsil almaq hüququnda maneələr yaratdı, həm də xaricdən minlərlə tələbə cəlb etmək imkanını məhdudlaşdırmış oldu [2].

Sözsüz ki, təhsil sistemi iştirakıları (təhsilalanlar, təhsilverənlər, təhsil müəssisəsinin administrasıyası) distant mühitə daşınmaya hazır deyildilər. Burada əsas çəitnliklər həm rəqəmsal transformasiyada, həm də bu zamana qədər oturuşmuş proseslərdə baş verəcək kəskin dəiyişikliklərdə özünü göstərdi, çünki heç kim bu metamorfoza əvvəlcədən hazır deyildi. Distant təhsilə belə hazırlıqsız keçid pandemiya dövründə məcburi xarakter daşıyırdı. Hətta bəzi ölkələr (Braziliya) pandemiya dövründə distant təhsilin mexanizmini işə sala bilməyiblər [14.s.72]. Unutmaq lazım deyil ki, pandeiya şərtlərində təcili şəkildə formalaşdırılan distant təhsil əvvəlcədən planlaşdırılan və bütün məqamları ciddi şəkildə nəzərə alınaraq həyata keçırılən onlayn təhsildən fərqlənir. Bu cəhət distant təhsil texnologiyalarının tətbiq edildiyi onlayn təhsilin effektivliyinin qiymətlənidirlməsi zamanı mütləq nəzərə alınmalıdır. [3]

Statistika göstərir ki, pandemiya dövründə 1,5 milyarddan çox şagird (87%) dünyanın 184 ölkəsində COVID-19 təhlükəsi səbəbindən təhsil prosesini dayandırmaq məcburiyyətində qalıb. [2,4,12 s.2]

Və bu gün karantin rejimi şərtlərində təhsilin davam etdirilməsi istiqamətində distant təhsilin yeganə təhlükəsiz və mümkün metod olduğu artıq mübahisə doğurmur. Lakin bu metodun üstün və əskik yönləri ciddi müzakirələr tələb edir. Məqsəd XXI əsrin metodu sayılan və texnoloji bazası ilə də ənənəvi təhsildən fərqlənən distant metodun [5, s.5] tədris prosesində tətbiqinin iqtisadı baxımdan nə dərəcədə rentabelli olduğunu dəqiqləşdirmək üçündür. Bu mənada SWOT-analizin verilmiş situasiyanın ilkin dəyərləndirilməsi kimi çox effektiv olduğu hesab edilir. (SWOT – Strengths – güclü tərəflər, Weaknesses-zəif tərəflər, Opportunities-imkanlar, Threat-təhlükələr). Lakin o da nəzərə alınmalıdır ki, SWOT-analiz strategiyanın hazırlanması və situasiyanın dinamikasının analizini əvəz edə bilməz.

Güclü tərəfi

1. Ali məktəblərin əlavə məkanlara tələbatının azalması
2. Ölkədə rəqəmsallaşma prosesinin güclən-dirilməsi
3. İqtisadi səmərəlilik - müasir texnologiyalardan istifadə
4. Yeni ixtisas almaq arzusunu həyata keçirə bilməyən şəxslərə real təhsil imkanları
5. Ailələrin bir çox əlavə xərclərdən (kirayə haqqı, nəqliyyat xərcləri və s.) azad olması
6. Maddi vəziyyəti aşağı olan ailələrin övladlarının daha az xərclə ali təhsil almasına imkan
7. Ailəsinə kömək üçün işləmək məcburiyyətində olan bir çox gəncin bu formada ali təhsil əldə edə bilməsi
8. Tələbə kontingentinin sayının artırılması
9. Az xərclə daha çox tələbəyə ali təhsilin verilməsi
10. Xarici ölkələrdən çoxlu sayda tələbə və müəllim heyətinin cəlb olunması
11. Universitetlərin maddi vəziyyətinin yaxşılaşmasına, müəllimlərin əmək haqqının artmasına şərait yaradır.
12. Zaman və məkan sərhədlərinin ortadan qaldırılması (istənilən zaman, istənilən yerdən kursun materialları ilə tanış ola bilmək)
13. Yaşından asılı olmayaraq hər kəsin təhsil alma hüququna töhfə verməsi
14. Distant təhsil proqramlarının ənənəvi sistem üzrə aparılan analoji təhsil kurslarından ucuz olması.
15. Təhsil müəssisələrinin icarə haqqına, elektrik enerjisinə və bahalı texnikaya qənaət edə bilməsi (çünki təhsil üçün ayrıca otaqlar və kompüterlər tələb olunmur).
16. Vaxtın çox hissəsini tələbələrin müstəqil şəkildə məşğul olması
17. Müəllimlərin vahid zaman ərzində daha çox tələbəni öyrədə bilməsi nəticəsində distant təhsilin ödəniş haqqının münasib olması.
18. İnsanın utancaqlıq və auditoriya qarşısında çıxış etmək fobiyası kimi kommunikasiya keyfiyyətləri və digər kompleksləri ilə bağlı psixoloji maneələri dəf etməyə imkan verməsi.
19. Mobilliyi və tələbənin daim aktual məsələlərə çıxış əldə etməsi. Bunun üçün sadəcə internet lazımdır.
20. Vaxtının çoxunu işdə, uşaqlarla və ya ailəsi ilə keçirən insanlar üçün yeni biliklər və bacarıqlar əldə etmək üçün yeganə mümkün vasitə olması .
21. Hər hansı şəxsin işini itirmək qorxusu olmadan və işdən ayrılmadan ixtisasını artırmaq və ya yeni biliklər əldə etmək imkanının əldə edilməsi

Zəif tərəfi

1. Sistem yaradılarkən kifayət qədər böyük vəsaitin xərclənməsi tələb olunur.
2. İşıqla bağlı problemlər və zəif internet təchizatı olan regionlarda tətbiq edilə bilməməsi
3. Kommunikasiya texnologiyaları ilə bağlı problemlərin mövcudluğu. Elə uşaqlar var ki, onların mobil telefonları belə yoxdur
4. Cəmiyyətdə distant təhsil mədəniyyətinin tam formalaşmaması
5. Tələbələrin təhsil səviyyəsində və peşəkar təcrübəsində fərdi fərqləri nəzərə almağa tam imkan verməməsi
6. Təlim və imtahan telekonfranslarının təşkili üçün müxtəlif ölkələrin telefon xətlərinin keçiricilik qabiliyyətinin kifayət etməmə ehtimalının olması.
7. Müəllim və tələbə arasında canlı ünsiyyətin itməsi.
8. Dərslərin arzuedilən dərəcədə interaktiv olmaması.
9. Təhsilverənlərin və təhsilalanların arasında bəzilərinin İKT istiqmətində kompüter savadlılığının yetəri qədər olmaması.
10. Rəqəmsallaşmış tədris vəsaitlərinin (kitablar, dərsliklər, dərs vəsaitlər və s.) tədrisin bütün sahələrini əhatə etməməsi.
11. Tədris dilində (və ümumiyyətlə) dərsə aid video materialların olmaması
12. İnternetin yetərincə sürətli olmamasınını tədrisin keyfiyyətinə təsiri

İmkanlar

1. Yeni təhsil standratlarının yaranması
2. Təhsil müəssisəsllərinin rəqabət qabiliyyətinin yüksəldilməsi
3. Pedqoji kadrların cavanlaşması (kompüter və müasir texnologiyalardan istifadə edə bilmək imkanlarına görə)
4. Azsaylı müəllim və inzibatı heyətlə daha çox təhsilalana təhsil vermək imkanı
5. Fiziki məhdudiyyəti olanlar üçün imkanların yaradılması
6. Xəstəlik və karantində istifadə oluna bilmək
7. İşdən ayrılmadan istifadə edə bilmək
8. Olduğun yerdən asılı olmadan istifadə edə bilmək
9. Ucuz təhsil
10. Rəqabətin gücləndirilməsi (yeni müəllimlərin cəlb olunması uzaqdan işləmək üçün ştatın artırlıması)
11. Müstəqil iş (özünə nəzarət məsuliyyətinin artması,
12. hər kəsin özünə uyğun təhsil sürətini seçə bilməsi
13. Təhsilin keyfiyyətini artırılması
14. Təhsilin hamı üçün əlçatan olması.
15. Fərdin təhsilinə ciddi məsuliyyət və intizamla yanaşmasını formalaşdırır.
16. Asinxronluq (istənilən zaman və istənilən sürətlə video və digər materiallardan istifadə edə bilmək)
17. *Regionlarda demoqrafik vəziyyətin yaxşılaşması*
18. *kütləvi şəkildə paytaxt və digər şəhərlərə axının qarşısının alınması* .
19. Daha prestijli universitetlərdə təhsil ala bilmək imkanları
20. İstehsalatdan ayrılmadan təhsilə davam etmənin iqtisadiyyata müsbət təsirləri
21. Maksimal interaktivliyin təmin edilməsi (Multimedia vasitəsilə səsləndirilən video və slaydfilmlər, animasija, grafika)
22. Ali təhsil müəssisələri üçün beynəlxalq akademik əməkdaşlığa, müştərək onlayn proqram və kursların təşkili, məlumat və resursların mübadiləsinə imkanlar

Təhlükələr

1. Sağlamlıqla bağlı bəzi problemlər [8,10]
a. Kompüter (görmə) sindromu.
görmə simptomları (görmə qüsurlarının yaranması və proqressivləşməsi - dumanlı görmə, ikili görmə, mütaliə zamanı tez yorulma, hərflərin aydın görünməməs) göz simptomları - quruma, qaşınma, alında və gözətrafında ağrılar, baş ağrıları
b. İmmun sisteminə təsir
c. Maddələr mübadiləsinə təsir
d. Qan-damar sisteminə təsir
e. Onurğa sütunu problemləri
f. Sinir sisteminə tədiri
g. azhərəkətlilik (hipodinamiya)
h. çoxyüklənmə
i. kompüterə hədsız bağlılıq
2. İşin itirilməsi
a. müəllimlərin ixtisarı
b. əməkdaşların ixtisarı
c. İKT ilə məlumatsız yaşlı nəsil nümayəndələrinin işdən uzaqlaşdırılması üçün yeni səbəb
3. Fərdi ünsiyyət çatlşmazlığı
a. emosional kontakt,
b. canlı ünsiyyətdən uzaqdüşmə
4. Kibertəhlükələr
a. müəlliflik hüquqlarının qorunmaması,
b. Şəxsi məlumatların ələ keçirilməsi
5. Uğur və nəticələrə nəzarətin aşağı olması
a. plagiat,
b. falsifikasiya,
c. müxtəlif xarakterli qeyri-dürüst davranışlar
d. Fərdi məsuliyyəti aşağı olanların bu təhsil formasında uğursuz nəticələrə uğramasına səbəb ola bilir.
e. Təhsilalan üzərində daimi ciddi nəzarətin olmaması ümumi müvəffəqiyyətin aşağı düşməsinə səbəb olur.
6. Praktiki dərslərdə qazanılan vərdişlərin olmaması
7. Regionlarda aşağı keyfiyyətli distant təhsilin yaranması
8. Tədris materialları ilə internetə sərbəst çıxışı olan Beynəlxalq səviyyəli universitetlərlə ciddi rəqabət
9. Distant təhsilin effektiv şəkildə həyata keçirilməsi üçün metodikanın olmaması

Bütün bunlarla yanaşı, son dövrlərdə bir çox ölkələridə distant təhsilin inkiaşfına xüsusi əhəmiyyət verilir. Müntəzəm olaraq bu sahəyə büdcənin böyük hissəsi ayrılır.Hazırda ABŞ-da 300-dən çox universitetdə distant təhsil təklif olunur. Amerika müəllimlərinin yarıdan çoxu (57%) distant təhsilin nəticələrinin hec də geri qalmadığını, hətta bəzən üstün olduğunu söyləyirlər. Sorğuda itirak edənlərin 33,3% yaxın dövrlərdə distant təhsilin ənənəvi təhsildən daha yüksək nəticələr verəcəyinə inanırlar. [11, s.19]

Pandemiyanın gəlişi ilə həyatımıza məcburi şəkildə daxil olan distant təhsil, hazırkı şəraitdə ən doğru addım olduğunu isbatlaya bildi. Uzun onilliklər "doğma" sayaraq uyğunlaşdığımız və təhsilin ondan kənar hansısa platformasının mövcud ola biləcəyini düşünmək belə istəməyən bizlər nə qədər ənənəvi təhsilin yerini heç nəyin verə bilməyəcəyini hesab etsək də təhsilin distant forması XXI əsrin təhsili kimi həyatımıza daha sıx daxil olacaq. Effektiv tətbiqi üçün hazırda rastlanan boşluqlar həlli yolunu tapana qədər təhsilin hətta qismən bu formata keçirilməsi tədrisi daha effektiv, daha mütəhərrik və müasir tələblərə daha uyğunlaşmış etməyə kömək edə bilər.

Ədəbiyyat

1. Петькова Ю.Р. История развития дистанционного образования. Положительные и отрицательные стороны МООС //Успехи современного естествознания, 2015. – № 3 – С. 199-204 URL:https://portal.tpu.ru/SHARED/p/PETKOVA/publications/Tab/34763.pdf
2. A.Məmmədov Koronavirus pandemiyasının zərurətə çevirdiyi distant təhsilin üstünlükləri və çatışmazlıqları // URL:https://stm.az/publications/meqaleler/koronavirus-pandemiyasnn-zerurete-cevirdiyi-distant-tehsilin-ustunlukleri-ve-catmazlqlar
3. Н.Киясов, В.Ларионова Дистанционное обучение в экстремальных условиях // URL: https://academia.interfax.ru/ru/analytics/research/4491/
4. COVID-19 и Высшее образование: Отучиться от прежних навыков ради создания системы образования на будущее | Организация Объединенных Наций URL: https://www.un.org/ru/120159
5. Козорезов А.П. Применение дистанционных технологий при обучении информатике и ИКТ в старших классах, Буйск, 2019, 106 с. URL:http://www2.bigpi.biysk.ru/vkr2018/file/fii_17_06_2019_01_41_42.pdf
6. ОРЛОВА Е. Р., Е. Н. КОШКИНА. Проблемы развития дистанционного обучения в России //Приоритеты России. 2013 №23 с.12-20
7. URL:https://cyberleninka.ru/article/n/problemy-razvitiya-distantsionnogo- obucheniya-v-rossii-1/viewer
8. Горева О.М. Дистанционное обучение: возможности и перспективы // Современные наукоемкие технологии. – 2015. – № 12-4. – С. 655-659; URL: http://www.top-technologies.ru/ru/article/view?id=35345
9. Тихон А.С. Кочиобан А.Б. Негативное влиянии компьютера и интернета на психику и физическое здоровье детей// İnternational Academy Journal Web of Scholar.Medicine. 2020. N1 c.36-39
10. Дистанционное обучение в разных странах мира: опыт онлайн-образования. URL: https://externat.foxford.ru/polezno-znat/e-education
11. Харитончик Т.Л Симптомы и лечение компьютерного синдрома //3-я городская клиническая больница// URL: https://3gkb.by/informatsiya/stati/884-simptomy-i-lechenie-kompyuternogo-sindroma
12. Блоховцова Г.Г.,Волохатых А.С. Перспективы развития дистанционного образования. Преимущества и недостатки // Международный научный журнал «Символ науки» Н10, 2016 с.119-121
13. URL:https://cyberleninka.ru/article/n/perspektivy-razvitiya-distantsionnogo-obrazovaniya-preimuschestva-i-nedostatki
14. Концептуальная записка: Образование в эпоху COVID-19 и в последующий период август 2020 года, 32 с. URL:https://www.un.org/sites/un2.un.org/files/policy_brief_-_education_during_covid-19_and_beyond_russian.pdf
15. Штыхно Д.А., Константинова Л.В., Гагиев Н.Н. Переход вузов в дистанционный режим в период пандемии: проблемы и возможные риски. Открытое образование. 2020;24(5):72-81. https://doi.org/10.21686/1818-4243-2020-5-72-81

Vəfa İSGƏNDƏROVA
Bakı Dövlət Universiteti,
Filologiya üzrə fəlsəfə doktoru, müəllim
Vafa1.aslan@gmail.com

DİSTANT TƏHSİLƏ KEÇİD: PROBLEM VƏ PERSPEKTİVLƏR

TRANSITION TO DISTANCE EDUCATION: PROBLEMS AND PROSPECTS

ПЕРЕХОД НА ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ: ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ

Xülasə: Pandemiya ilə əlaqədar olaraq bütün dünyada təlim və tədris prosesi onlayn sistemə keçmişdir. Ənənəvi təhsil formasından fərqli olaraq, distant təhsil öyrədənlə öyrənən arasında təlim prosesinin internet üzərindən və ya elektron formada həyata keçirilməsidir. Burada bilik və bacarıqların əldə olunması müxtəlif texnoloji vasitələr və metodlarla həyata keçirilir. Distant təhsildə əsas prinsip çap və ya elektron formada olan vəsaitlərdən istifadə edilərək məlumatların elektron formada ötürülməsidir. Hazırda Azərbaycanın təhsil müəssisələrində Microsoft Teams proqramı vasitəsilə həyata keçirilən onlayn tədris prosesində dərslər canlı şəkildə keçirilir, əldə etdikləri texniki biliklərlə müəllim və şagirdlər bir-biri ilə fikir mübadiləsi aparırlar. Məqalədə distant təhsilin əsas mahiyyəti, onun müsbət və mənfi tərəfləri araşdırılacaq.

Açar sözlər: *təhsil, distant, metod, pandemiya, texnologiya, internet.*

Abstract: Due to the pandemic rejime, the teaching and learning process around the world has transfered to an online system. Unlike the traditional form of education, distance learning is the implementation of the learning process between teacher and learner over the Internet or in electronic form. Acquisition of knowledge and skills here is carried out by various technological tools and methods. The main principle in distance education is the transmission of information in electronic form using printed or electronic media. At present, classes are conducted live in the online teaching process implemented in Microsoft Teams in educational institutions in Azerbaijan, and teachers and students exchange their views with each other with the technical knowledge they have acquired. The article will examine the essence of distance education, its advantages and disadvantages.

Keywords: *education, distance, method, pandemic, technology, internet.*

Абстракт: Из-за режима пандемии процесс преподавания и обучения во всем мире был переведен в онлайн-систему. В отличие от традиционной формы обучения, дистанционное обучение - это осуществление учебного процесса между учителем и учеником через Интернет или в электронной форме. Приобретение знаний и навыков здесь осуществляется различными технологическими инструментами и методами. Главный принцип дистанционного обучения - это передача информации в электронном виде с использованием печатных или электронных носителей. В настоящее время занятия проводятся в интерактивном режиме, реализованном в Microsoft Teams в учебных заведениях Азербайджана, и учителя и студенты обмениваются друг с другом мнениями, используя полученные технические знания. В статье будут рассмотрены сущность дистанционного обучения, его достоинства и недостатки.

Ключевые слова: *образование, дистанция, метод, пандемия, технологии, интернет.*

Pandemiya ilə əlaqədar olaraq bütün dünyada təlim və tədris prosesi onlayn sistemə keçmişdir. Ənənəvi təhsil formasından fərqli olaraq "uzaqdan təhsil", "elektron təhsil" və ya "onlayn təhsil" kimi adlandırılan məsafədən təhsildə təlim zamanı müəllimlər və şagirdlərin fiziki cəhətdən ayrılmasını və tələbə-müəllim və tələbə-tələbə ünsiyyətini asanlaşdırmaq üçün müxtəlif texnologiyalardan istifadəni əhatə edən ünsiyyət təşkil edir (*https://www.britannica.com/topic/distance-learning*). Bu gün isə dünyanın ən məşhur təhsil müəssisələrində artıq onlayn tədris ənənəvi dərsləri üstələyib, desək, yanılmarıq. Türkiyədə distant təhsili elmi cəhətdən araşdıranlardan biri olan Aytəkin İşman vurğulamışdır ki, "İnformasiya əsri adlandırdığımız 21-ci əsrdə ünsiyyət cəmiyyətin bütün səviyyələrində yaşayan fərdlər üçün qaçınılmaz bir ehtiyac halına gəldi. Uzaqdan təhsil təcrübələrinin inkişaf etdirildiyi qlobal rabitə şəbəkəsi konsepsiyası (cəmiyyətlər üçün beş-on il əvvəl utopiya sayılırdı) qaçılmaz bir fenomen halına gəldi (2, s. 2). Öz araşdırmasında o, məhz distant təhsili nəzərdə tutaraq, onu gələcəyə yönəlik təhsil modeli adlandırmışdır.

Bu təhsil forması ilk dəfə 1800-cü ildə ABŞ-da reallaşdırılmağa başlamışdır. Əsasən qeyri-ənənəvi tələbələr üçün, məsələn, bütöv ştat işləyənlər, hərbçilər və ya dərslərdə iştirak etmək iqtidarı olmayan uşaqlar üçün nəzərdə tutulurdu. Tarix boyu distant təhsil müxtəlif metodlardan istifadə etməklə bir neçə mərhələdən keçmişdir. Hal-hazırda isə bu mərhələnin sonu olaraq internetin geniş vüsət alması ilə tədris prosesi tamamilə onlayn sistemə keçməkdədir.

Distant təhsilin əsas prinsipləri birdən çox media vasitələrindən (çap və ya elektron) istifadə, müəllimlə şagirdin ayrı məkanlarda olması, bənzərsizlik, davamlılıq, öz-özünə öyrənmə və sairədir. Araşdırıclar hesab edirlər ki, ənənəvi təhsildən fərqli olaraq, distant təhsildə 5 qat daha artıq öyrənmə mümkündür. Bu zaman mövzunun yadda saxlanması 25-30% çoxdur. Distant təhsildə zaman, enerji, maddi vəsait və digər xərclərə daha çox qənaət etmək olur. Distant təhsildə öyrədənlə öyrənən arasında kifayət qədər yüksək səviyyədə individual əlaqə qurmaq mümkündür. Yəni dərs müddətindən əlavə istənilən saatlarda da öyrədənlə öyrənənlər kontakt yarada, bilik və bacarıqlarını ötürə bilirlər. Onlayn tədrisin digər müsbət tərəflərindən biri isə gələcək işəgötürənlər onlayn məzunun vaxt idarə etmə bacarıqlarına - tam işdə işləmək və onu distant təhsil ilə tarazlaşdırmaq baxımından hörmət edəcəklər. Bir çox perspektivli işəgötürənlər bunu müsbət və həm təhsil, həm də karyera üçün daha yaxşı bir yol kimi qəbul edə bilərlər (*https://owlcation.com/academia/distance-education-colleges_online-undergraduate-degree_pros-and-cons*).

Eyni zamanda, tələbələr ənənəvi tədrisdə kollokvium, fərdi işləri çap variantında təqdim edirlər. Bunun üçün də vəsait tələb olunur. Hazırda isə distant təhsildə bunlar elektron formada həyata keçirilir. Digər müsbət amil distant təhsildə müəllimlə tələbə arasında kifayət qədər individual olaraq əlaqə qurmaq şansının olmasıdır. Ənənəvi təhsildə tələbə sualını hansısa müəllimə ünvanlamaq, məsləhətləşmək üçün onunla canlı ünsiyyət qurmaq üçün məkan və zaman seçməlidir, bu da zaman itkisinə səbə olur. Lakin onlayn təhsildə tələbənin müəllimə sualını ünvanlamaq üçün elektron olaraq məktub yazmağı kifayət edir. Bir sözlə, distant təhsildə öyrədənlə öyrənən arasında kifayət qədər yüksək səviyyədə individual əlaqə qurmaq mümkündür.

Distant təhsilin neqativ tərəflərinin çox olması da məlumdur. Bu daha çox özünü qiymətləndirmədə göstərir. Məsələn, onlayn tədris zamanı tələbələr müəllimdən dərhal rəy ala bilmirlər. Həmçinin bir sıra təcrübi sahələrdə, məsələn, tibb, idman, maşınqayırmada təlimi onlayn şəkildə reallaşdırmaq mümkün deyil. Psixoloji adaptasiya məsələlərini də problem kimi dəyərləndirmək olar. Onlayn tədris prosesində müəyyən qədər müəllimi aldatma halları da olur. Məsələn, tələbə dərsə qoşulur, onlayn olduğu görünsə də, digər mobil cihazla başqa işlərlə məşğul olması hallarına da rast gəlinir. Yaxud da imtahanda onlayn vasitələrdən istifadə edərək köçürmə halları olur. Digər neqativ hallardan biri də təhsilalanların motivasiyasının olmamasıdır. Motivasiyanın yerində olması distant təhsildə də çox önəmlidir. Psixoloji amillərdən danışarkən bəzi kiçik evlərdə ailə üzvlərinin yanında dərsə daxil olanların yaşadığı sıxıntılı vəziyyəti də qeyd etmək lazımdır. Həmin təhsilalanlar arasında yaxınlarının yanında özünü rahat ifadə edə bilməyən, sıxılan, bu baryeri aşmağı hələ bacarmayanlar da var. Sadalanan bu cür kiçik nüanslar distant təhsildə narahatedici hallar kimi özünü biruzə verir. Pandemiyanın ilk aylarında onlayn BDU, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Slavyan Universitetinin tələbələri və müəllimləri

arasında apardığımız sorğu nəticəsində bəlli olmuşdur ki, tələbələr distant təhsil zamanı aşağıdakı çətinliklərlə qarşılamışlar:

1. İnternet bağlantısı
2. Sosial izolyasiya
3. Adaptasiya problemi
4. Qarşılıqlı ünsiyyət
5. Bəzi fənlərlə bağlı limitli imkanlar
6. Köçürmələr
7. Özünü həvəsləndirmə və vaxt bölgüsünü düzgün qura bilməmə

"Onlayn tədrisdən məmnunsunuzmu?" sualına tələbələrin yarısı "bəli" cavabını vermişdir. Fikirləri alınan tələbələrin 80%-i onlayn tədrisə keçid zamanı oxuduqları tədris müəssisələrindən kifayət qədər dəstək aldıqlarını bildirmişlər. Dərslər zamanı tələbələrin fikirlərinin yayınması isə daha vacib problem olsa da, fikirləri alınan tələbələrin çox hissəsi onlayn tədris zamanı fikirlərinin yayınmamasını bildirmişlər. Bunun əksinə olaraq isə tələbələrin 50%-in dərs müddətində fikirlərinin tam şəkildə dərsdə olmasını bildirmişlər.

Sorğu nəticəsində müəllimlər üçün müəyyən olunan problemlər isə əsasən aşağıdakılar olmuşdur:

1. Tələbələrin dərsə cəlb olunması
2. Fərqli təlimatlar
3. Fəaliyyətin həcmi
4. Qiymətləndirmə keyfiyyəti
5. İştirakın qiymətləndirilməsi

Texnologiya, internet və digər məsələlərlə bağlı ciddi problemlərə yanaşı, müəllimlərin, təlimçilərin onlayn tədrisin öhdəsindən gəlməsi də burada əsas məsələlərdən biridir. Onlayn təlimçi effektiv olmaq üçün kifayət qədər hazırlıqlı və motivasiyalı olmalıdır *(https://www.westga.edu/~distance/ojdla/fall53/valentine53.html*). Elektron siniflərdə əsl mənada effektiv olmaq üçün müəllimin texniki bilikləri zəngin olmalı, texnologiya ilə bağlı yaranan çətin situasiyalardan çıxma qabiliyyəti olmaldır. Yəni təlimçi informasiya ötürülməsinin yeni üsuluna hazır olmalıdır.

Ölkəmizin orta və ali təhsil sistemində bir ildir ki, həyata keçirilən onlayn tədrisin müəyyən müsbət nəticələri əldə edilmişdir. İlk aylarda bəzi çətinliklər yaşansa da, təhkim olunmuş xüsusi təlimçilər və proqramçıların köməkliyi ilə həm müəllimlər, həm də şagirdlər adaptasiya prosesini asanlıqa keçə bilmişdilər. Ev tapşırıqlarının yerinə yetirilməsi, davamiyyət məsələsi və qiymətləndirmələrin aparılması zamanı rast gəlinən problemlər hazırda aradan qaldırılmaqdadır. Hətta bəzi pandemiyanın müəyyən qədər yüngülləşən zamanlarında "hibrid təhsil", yəni bəzi dərslərin onlayn, bəzi dərslərin isə oflayn keçirilməsi də tətbiq edildi və az sayda çatışmazlıqlar nəzərə alınmazsa, uğurla həyata keçirildi. Bunu müxtəlif platformalarda həyata keçirilən sorğular, hesabatlar və rəylər əsasında da demək mümkündür.

Araşdırıcılar Pallof və Prattın söylədikləri kimi, alimlərin "kooperativ öyrənmə" kimi təqdim etdikləri və virtual aləmə daxil olan yeni, innovativ təhsil forması olan onlayn tədris ümumi məqsədə, birgə tədqiqata yönəlik və bu prosesin sonunda ortaq nəticə hesabına öyrənənlərə daha dərin biliklər qazanmağa kömək edir (4, s. 6).

Dünyada sürətli texniki inmişaf gedir və onun müqalibilində distant təhsilin xarakteri də dəyişə bilər. Yəni informasiyanın ötütürlməsində yeni forma və üsullar meydana gəlir. Çətinliklərə baxmayaq, təcrübə göstərir ki, şagird və tələbələr aldıqları informasiyadan məmnundurlar. Pensilvaniyanın İndiana Universitetində aparılan araşdırmaya görə, tələbələrin 75%-i aldıqları təlimdən, 90%-i isə yararlanılan texnologiyanı qənaətbəxş hesab etmişlər *(https://www.westga.edu/~distance/ojdla/fall53/valentine53.html).*

Araşdırmalar onu göstərir ki, onlayn tədrisin effektivliyi də daha çox məhz müəllim və təlimçilərdən, onların distant təhsilin formatına uyğun öyrətmə metodundan asılıdır. Təhsil mütəxəssisi Keegan dərslərin effektiv aparılması üçün multimedia, səs danışığı, hətta şriftin ölçüsüə qədər çoxlu sayda gərəkli üsullar təqdim etmişdir (3, s. 15). Bu mənada təhsil müəssisələrini rəhbərləri də müəllim

və təlimçilərə dəstək olmaldır. Əsas dəstək onların texniki biliklərinin zənginləşidirlməsi ilə bağlı olmaldır. Onlara istifadə olunan proqramlarla bağlı təlimlər keçirilməli, bu sahədə təcrübələri artırılmalıdır. Əgər bu gələcəyin əsas tədris modeli olacaqsa, idarəçilər hər mənada yardımçı olmalıdırlar.

Distan öyrənməni həyata keçirən U-Demy, Coursera, Khan Academy, Quora, EdX platforması kimi virtual tədris məkanları var. Onlar son dövrlərdə təhsil sahəsində çox uğurlu addımlar atmışlar, uğurlar əldə etmişlər. Azərbaycanda Təhsil Nazirlyinin xətti ilə əsasən Microsoft Teams və Zoom proqramları vasitəsi ilə tədrsi prosesi həyata keçirilir. Dünyanın rəsmi təhsil sektorunda isə aşağıdakı sistemlərdən istifadə olunur:

- Openmeetings;
- Web-CT;
- Adobe Connect;
- E-Nocta;
- Moodle;
- BlackBoard

(https://www.researchgate.net/publication/338045324_Basic_models_and_methods_of_distance_learning/fulltext/5dfcd5c9a6fdcc2837318289/Basic-models-and-methods-of-distance-learning.pdf).

Bütün bunlara yekin olaraq söyləmək gərəkdir ki, sözügedən sahədə yaxşılaşmağa tələbat olsa da, distant təhsilin gələcəyi işıqlı görünür. Bu baxımdan qiymətlər, koordinasiyaya, təlimlərin bahalı olmasına baxmayaraq, gələcəyin modeli olaraq distant təhsili hərtərəfli inkişaf etdirmək gərəkdir.

Hazırda dünyanın hər bir yerində distant təhsilin yeni metodları, faydalı yönləri araşdırılır və təkmilləşdirilir. Keeganın fikrincə, əsas vəzifə ondan ibarətdir ki, yeni texologiyalar minilliyində ilk dəfə olaraq təhsil sistemi baxımından uğurlu olmaq üçün tələbələrlə uzaqdan üz-üzə şəraitdə daha rentabelli və daha effektiv üsullar tapmaq, dizayn etmək gərəkdir. (3, s. 53).

Odur ki, pandemiya bitənə qədər distant təhsilin üstünlüklərindən faydalanmaq, bilik və bacarıqlarımızı artıraraq inkişaf etmək gərəkdir.

Ədəbiyyat

1. Əhmədov H. (2013). Azərbaycanda distant təhsilin perspektivləri. Respublika, 26 dekabr. s. 6
2. İşman A. (2011). Uzaktan Eğitim. Ankara: Pegem Yayıncılık
3. Keegan, D. (1995). *Distance education technology for the new millennium: compressed video teaching.* ZIFF Papiere. Hagen, Germany: Institute for Research into Distance Education. (Eric Document Reproduction Service No. ED 389 931).
4. Palloff, R., & Pratt, K. (2000). *Making the transition: Helping teachers to teach online.* Nashville,Tennessee. (ERIC Document Reproduction Service No. ED 452 806)
5. https://azedu.az/az/news/29528-distant-tehsil-nece-yarandi-uzaqdan-tehsilin-maraqli-tarixi
6. https://az.wikipedia.org/wiki/Distant_t%C9%99hsil
7. https://www.researchgate.net/publication/338045324_Basic_models_and_methods_of_distance_learning/fulltext/5dfcd5c9a6fdcc2837318289/Basic-models-and-methods-of-distance-learning.pdf
8. https://www.westga.edu/~distance/ojdla/fall53/valentine53.html
9. https://www.britannica.com/topic/distance-learning
10. https://www.iejme.com/article/problem-of-using-innovative-teaching-methods-for-distance-learning-students

Fəridə MÖVSÜMOVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, müəllim
movsumova.farida94@gmail.com

PANDEMİYA DÖVRÜNDƏ ALİ TƏHSİLİN KEYFİYYƏTİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

MONITORING AND ASSESSING THE QUALITY OF HIGHER EDUCATION DURING A PANDEMIC

МОНИТОРИНГ И ОЦЕНКА КАЧЕСТВА ВЫСШЕГО ОБРАЗОВАНИЯ ВО ВРЕМЯ ПАНДЕМИИ

Xülasə: Pandemiya ilə əlaqəli təhsilin məsafəli təhsilə keçidinin dərslərinin və risklərinin təhlili göstərir ki, distant təhsil ənənəvi əyani təhsilin yerini tamamilə almayacaqdır. Geniş miqyasda ali təhsil qarışıq öyrənməyə doğru gedəcəkdir. Bu baxımdan, təhsil prosesinin ciddi tənzimlənməsindən və standartlaşdırılmasından distant məsələləri qanunvericilik səviyyəsində əlavə hazırlanmanı tələb edəcəkdir. Pandemiya səbəbindən məsafəli texnologiyaya keçid təhsil təşkilatlarına, müəllim və müəllimlərə, şagirdlərə və onların valideynlərinə yeni imkanlar və yeni təcrübələr görməyə kömək etdi. Və bu, şübhəsiz ki, onlara fayda gətirəcəkdir. Mövcud vəziyyət bir çox texniki həllərin sınaqdan keçirilməsinə, müxtəlif təhsil İnternet platformalarının proqram təminatlarının təkmilləşdirilməsinə imkan yaratdı.

Açar sözlər: *onlayn təhsil, pandemiya, rəqəmsal mənbələr, məsafəli texnologiyalar, yenidən hazırlıq.*

Abstract: An analysis of the lessons and risks of the transition of education to distance learning in connection with the pandemic indicates that distance education will not completely replace traditional full-time education. Higher education on a large scale will move towards blended learning. In this regard, the issues of departure from strict regulation and standardization of the educational process will require additional elaboration at the legislative level.

The shift to distance technology due to the pandemic has helped educational organizations, teachers and educators, students and their parents see new opportunities and new experiences. And this will certainly benefit them. The current situation made it possible to test many technical solutions, improve the software of various educational Internet platforms.

Keywords: *online education, pandemic, digital resources, distance technologies, retraining.*

Абстракт: Анализ уроков и рисков перехода образования в дистанционный режим в связи с пандемией свидетельствует о том, что дистанционное образование не заменит полностью традиционное очное. Высшее образование в больших масштабах будет осуществляться переход к смешанному обучению. В связи с этим потребуют дополнительной проработки на законодательном уровне вопросы отхода от жесткой регламентации и стандартизации образовательного процесса. Переход на дистанционные технологии из-за пандемии помог образовательным организациям, учителям и преподавателям, обучающимся и их родителям увидеть новые возможности и обрести новый опыт. И это, безусловно, пойдет им на пользу. Текущая

ситуация позволила апробировать множество технических решений, усовершенствовать программное обеспечение различных учебных интернет-платформ.

Ключевые слова: *онлайн образование, пандемия, цифровые ресурсы, дистанционные технологии, переподготовка.*

COVID 2019 pandemiyası, universitetlərin əhəmiyyətli dərəcədə fərqliyi tendensiyasını, həmçinin tələbələrin keyfiyyətli təhsilə girişində bərabərsizlik problemini vurğuladı. Pandemiya şəraitində universitetlərin təcili olaraq distant formasına keçməsi göstərdi ki, universitet müəllimləri məsafəli tədris formatında ümumiyyətlə zəif iştirak edirlər və inkişafında müəyyən müsbət perspektivlər görsələr də, mənfi qəbul edirlər. Təkcə "ixtisasartırma kursu keçmək" deyil, yeni format və texnologiyaların tətbiqi məqsədi ilə universitet professorlarının kütləvi şəkildə yenidən hazırlanmasına ehtiyac var.

Bir çox cəhətdən məsafə formatının mənfi təsəvvürünün aradan qaldırılması rəqəmsal mənbələrin və təcrübələrin dizaynı və istifadəsində fəal iştirak edən müəllimləri həvəsləndirmək və həvəsləndirmək üçün bir sistem yaratmaqla təmin edilə bilər, eyni zamanda müəllimlərin və ya məsafəli və onlayn kurs qrupları, o cümlədən xüsusi layihələrin yaradılması və həyata keçirilməsi üçün qrantların verilməsi. Eyni zamanda, həm müvafiq göstəricilərin rəqabətli seçim prosedurlarına daxil edilməsini, həm də rəqəmsal alətlərin mənimsənilməsi və istifadəsinin ilk mərhələlərində müəllimlərin dəstəyini təmin etmək lazımdır. Uzaqdan təhsil payının artması ilə birlikdə tələbələrlə birlikdə öyrənilən fənləri və tələbənin oxuduğu kursu nəzərə alaraq formatlarını və məsafədən təhsilə ayrılan optimal vaxtı inkişaf etdirmək lazımdır. həm də tələbələrin məsafəli rejimdə keçən təhsil proqramının bir hissəsini müstəqil şəkildə seçmələri üçün təcrübə və imkanları genişləndirmək. Bu, tələbələrin məsafədən təhsilə sədaqətini və yeni təhsil texnologiyalarının istifadəsini artıracaqdır.

Bundan əlavə, məsafəli təhsildə material təqdimatının ən təsirli formalarını, mühazirənin və seminarın optimal müddətini müəyyənləşdirməyə yönəlmiş tədqiqat aparmaq məsləhətdir. Uzaqdan təhsil payının artması ilə tələbələrin sosiallaşması məsələlərinə xüsusi diqqət yetirmək lazımdır, bu onların universitet və digər tələbələrlə əlaqələrini gücləndirəcəkdir. Ənənəvi universitetlərlə yanaşı, universitetlər məsafəli texnologiyalardan istifadə edərək tələbələrin sosiallaşması üçün aşağıdakı mexanizmləri təmin edə bilər:

• tapşırıqları birlikdə icra edən virtual layihə qruplarının yaradılması;

• zəif tələbələrə uzaqdan kömək edən könüllü qruplarının yaradılması;

• İT könüllülüyünün inkişafı - həm tələbələr, həm də müəllimlər üçün məsafədən tədrisdə yardım göstərmək;

• könüllü fəaliyyət kimi - məktəblilər, zəif tələbələr və kiçik sinif şagirdləri ilə məsafədən dərs dərsləri.

Distant təhsil formatına keçid tələbələrin təhsildə əldə olunmasında "texnoloji" bərabərsizliyi ortaya çıxardı. Distantdan təhsil texnologiyalarının inkişafı universitetlərin rəqəmsal infrastrukturuna qoyulan investisiyaların düzəldilməsini və bir çox problemin həll olunmasını tələb edəcək, bunlardan ən əsası bunlardır:

• onlayn kurslar üçün milli platformanın inkişafının təmin edilməsi, bu platformada yerləşdirilən onlayn kursların sayının artırılması;

• məsafədən işin təmin edilməsi üçün milli xidmətlərin yaradılması (məsələn, proktorluq sistemi, tələbələrin universitetlərə məsafədən qəbulu üçün xidmət);

• texnoloji şirkətlərlə güclərini birləşdirmək, universitetləri ixtisaslı bir müştəri mövqeyinə daşımaq və rəqabətçi xidmətlərin yaradılmasına stimul vermək (potensial təchizatçılar üçün qrant müsabiqələri yolu ilə);

• hamı üçün rəqəmsal təhsil mühitinin inkişafının təmin edilməsi

• rəqəmsal mühitdə təhlükəsizliyin təmin edilməsi üçün nisbətən ucuz və genişlənə bilən texnoloji həllərin tətbiqi;

• onlayn praktik dərslərin, virtual laboratoriyaların təşkili və keçirilməsi üçün tələb olunan rəqəmsal vasitələrin və rəqəmsal məzmunun inkişafı üçün proqramların hazırlanması və həyata keçirilməsi, simulyatorların istifadəsi, virtual və genişlənmiş reallıq.

Böhran şəraitində universitetlərin pullu təhsildə səmərəli tələbin azalmasından itkilərinin əvəzini çıxarmaqla onların maliyyə sabitliyini təmin etmək məsləhətdir. Gələcəkdə yüksək təhsilin mövcudluğunu təmin etmək və pullu kontingentdən düşmə ehtimalını azaltmaq üçün böyük və ucuz bir təhsil krediti hazırlamaq lazımdır. COVID 2019 pandemiyası yeni pedaqogika və rəqəmsal didaktikanın inkişafını aktuallaşdırdı. Burada mümkün həll yollarından biri, şagirdlərə fərdi yanaşma təmin edən və ya dar sahələrdə kiçik qruplarda təlim verən komponentlərin nisbətini artırmaq, eyni zamanda əsas biliklərin ötürülməsinə yönəlmiş təhsil komponentlərinin nisbətini azaltmaq ola bilər.

Tələbələrin bir semestr və ya bir il boyunca tam məsafədən təhsil verən universitetlərdə distant təhsil almasına icazə verilməlidir. Tələbənin oxuduğu və ya daxil olduğu universitetdə mənimsədiyi müvafiq fənlərin (kursların, modulların) sonrakı hesabı ilə bu universitetlərdə müəyyən kursları (modulları) seçə biləcəklər. Eyni zamanda, mövcud şərtlər daxilində bu virtual mobillik, tələbənin daxil olduğu / təhsil aldığı universitetdən, tam hüquqlu məsafədən təhsil alan qəbul edən universitetə vəsait köçürülmədən təmin edilməlidir.

Pandemiya bir sıra ali təhsil müəssisələrinin idarəetmə qruplarının belə şəraitində çalışmağa hazır olmamalarını da ortaya qoydu. Bu baxımdan, universitet idarəetmə komandalarının ixtisaslarının artırılmasına yanaşmanı dəyişdirmək lazımdır. Epidemioloji şəraitində işləmək üçün daxil olmaqla idarəetmə işçilərinin sistematik təliminin təşkili tələb olunur. Universitetlərdə elmi tədqiqatların büdcədən maliyyələşdirilməsinin artırılması, habelə elmi müqavilələrin şərtlərinin uzadılması, uzaq iş formatına keçərkən aparıla bilməyən laboratoriya və digər işlərlə əlaqəli olduqda, uzadılması lazımdır.

Pandemiya təcrübəsi nəzərə alınmaqla nəzarət və bu fəaliyyətinin metodlarına yenidən baxılması, universitetlərin qiymətləndirilməsində risk əsaslı yanaşmaya keçmək lazımdır. Eyni zamanda, sabit bir nüfuza sahib olan universitetlərə etibar göstərmək lazımdır. Eyni zamanda, ənənəvi planlı yoxlamaların qanuni tələblərə uyğunluğunun sistematik bir monitorinqinə çevrilməsi məsləhətdir. Nəticələrinin bir neçə ildir ali təhsil sistemində hiss olunacağına görə, maliyyə intizamı yoxlamaları xaricində bütün universitet yoxlamalarının 2024-cü ilin sonuna qədər ləğv edilməsi məntiqli ola bilər.

Pandemiya ilə əlaqəli təhsilin məsafəli təhsilə keçidinin dərslərinin və risklərinin təhlili göstərir ki, məsafəli təhsil ənənəvi əyani təhsilin yerini tamamilə almayacaqdır. Geniş miqyasda ali təhsil qarışıq öyrənməyə doğru gedəcəkdir. Bu baxımdan, təhsil prosesinin ciddi tənzimlənməsindən və standartlaşdırılmasından uzaqlaşma məsələləri qanunvericilik səviyyəsində əlavə hazırlanmanı tələb edəcəkdir. Pandemiya səbəbindən məsafəli texnologiyaya keçid təhsil təşkilatlarına, müəllim və müəllimlərə, şagirdlərə və onların valideynlərinə yeni imkanlar və yeni təcrübələr görməyə kömək etdi. Və bu, şübhəsiz ki, onlara fayda gətirəcəkdir.

Mövcud vəziyyət bir çox texniki həllərin sınaqdan keçirilməsinə, müxtəlif təhsil İnternet platformalarının proqram təminatlarının təkmilləşdirilməsinə imkan yaratdı. Bu "stres testi" sayəsində təhsil prosesinin hansı komponentlərinin onlayn şəkildə həyata keçirilə biləcəyi və üz-üzə qarşılıqlı əlaqə tələb etdiyi aydın oldu. Qazanılan təcrübədən, şübhəsiz ki, istifadə ediləcəkdir. Uzaq texnologiyalar müəyyən bir şəkildə müasir təhsil proqramlarına uyğunlaşacaqdır. Burada əsas şey üz-üzə və uzaqdan düzgün tarazlığı tapmaqdır

Ümumilikdə, təhsil sistemi "stres testi" ndən keçmiş və pandemiyanın yaratdığı çətinliklərin öhdəsindən gəlməkdədir və bir müddət də təsirini davam etdirəcəkdir.

Ədəbiyyat

1. Dünya Bankin hesabati: Təhsil Sistemlərinin Yayılmasına Cavab Təlimatları
2. COVID-19, 17.03. 2021.
3. BMT: Konseptual qeyd:Təhsil COVID-19 dövrü və sonrakı dövr, 11.02. 2021.
4. UNESCO: COVID-19 pandemiyası zamanı məsafədən və onlayn təhsil haqqında hesabat, 23.01. 2021.

Nigar AĞAYEVA
Bakı Dövlət Universiteti,
elmi işçi
aghayevanigar86@gmail.com

ДИСТАНЦИОННОЕ ОБУЧЕНИЕ В УСЛОВИЯХ ПАНДЕМИИ: ПЛЮСЫ И МИНУСЫ

PANDEMİYA ŞƏRAİTİNDƏ DİSTANT TƏHSİL: MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ İLƏ

DISTANT LEARNING AT A TIME OF PANDEMICS: ADVANTAGES AND DISADVANTAGES

Абстракт: В статье рассматривается дистанционное обучение, на которое вынужденно перешли ВУЗы в условиях пандемии коронавируса. Освещается вопрос, насколько подготовленными оказались университеты к сложившейся ситуации: рассматриваются положительные и отрицательные стороны дистанционного обучения, отношение преподавателей и студентов к такому обучению, а также изучается отличие дистанционного обучения от онлайн обучения и делаются выводы о том, что необходимо сделать, чтобы качество обучения оставалось на высоком уровне.

Ключевые слова: *пандемия, дистанционное обучение, онлайн формат, программа, технологии, виртуальный мир.*

Xülasə: Məqalədə koronavirus pandemiyası səbəbilə ailə məktəblərin istifadə etmə məcburiyyətində qaldığı distant təhsil sistemi araşdırılır. Eyni zamanda ali məktəblərin bu prosesə nə dərəcədə hazırlıqlı olduğu açıqlanır: distant təhsilin müsbət və mənfi tərəflərinə baxılır, bu təhsil formasına müəllim və tələbələrin münasibəti araşdırılır, həmçinin distant və onlayn təhsilin fərqli cəhətləri öyrənilir, təhsilin keyfiyyətinin yüksək səviyyədə qalması üçün nəticə çıxarılır.

Açar sözlər: *pandemiya, distant təhsil, onlayn format, proqram, texnologiya, virtual aləm*

Abstract: The article deals with distance learning, which universities were forced to switch to in the context of the coronavirus pandemics. The article studies the question of how well universities deal with the current situation: the author writes about the positive and negative aspects of distance learning, the attitude of teachers and students to such training, as well as the difference between distance learning and online learning. The author also draws the conclusions about what needs to be done to ensure that the high quality of education.

Keywords: *pandemics, distance learning, online format, program, technology, virtual world*

Больше года назад мир впервые услышал о коронавирусе, который сильно повлиял на жизни миллионов людей. Пандемия COVID-19 вызвала крупнейший за всю историю срыв образовательного процесса и уже оказала практически повсеместное воздействие на учащихся и преподавателей во всем мире и на работу дошкольных заведений, средних школ, учреждений технического и профессионального образования и подготовки, университетов, учреждений для обучения взрослых и центров повышения квалификации. К середине апреля 2020 года панде-

мия затронула 94 процента учащихся, то есть 1,58 миллиарда детей и молодых людей (от дошкольников до студентов высших учебных заведений) в 200 странах мира. [1, с. 6]

Коронавирус сказался на занятости, образовании, энергетике, сельском хозяйстве и других сферах мировой экономики, в том числе на эмоциональном состоянии людей. В сфере образования главным изменением стал переход на дистанционный формат обучения. Дистанционное образование широко распространено по всему миру, особенно в системе высшего образования, и является неотъемлемой частью современного обучения. ЮНЕСКО оказывает непосредственную поддержку странам в работе над минимизацией негативных последствий закрытия учебных заведений для образовательного процесса и созданием условий для непрерывного обучения, особенно в отношении наиболее уязвимых слоев населения. Онлайн-обучение стало основным форматом образования в 2020-2021 годах. Несмотря на эпидемию, учеба должна была продолжаться. Это стало настоящим испытанием как для преподавателей, так и для студентов. Они должны были привыкнуть к новой жизни и учебе через экран. Конечно же большим препятствием на пути к дистанционному образованию стало в первую очередь отсутствие техники и средств связи. Интернет стал неотъемлемой частью жизни для половины планеты. Онлайн-образование вскоре перестанет быть чем-то необычным. В условиях закрытия школ многие страны прибегли к дистанционному обучению как средству компенсации потерь времени в процессе оказания образовательных услуг. В некоторых странах ресурсы просто размещаются на интернет-сайте и предоставляются дополнительные образовательные продукты, но при этом уроки в режиме онлайн не обязательно проводятся. На сегодняшний день закрытие школ в связи с распространением коронавируса COVID-19 затронуло почти 1 миллиард учащихся в мире [4].

Азербайджан - одна из стран, рано подключившаяся к дистанционному обучению. Дистанционная форма обучения считается самой оптимальной в сложившейся ситуации, хотя и имеет определенные минусы и плюсы. Молодые преподаватели обладают очень хорошими навыками использования технологий. Чего не скажешь о преподавателях старшего возраста. Они обладают недостаточными навыками в использовании технологий, что делает необходимым проведение для них определенных курсов. Положительным фактором является применение программы Teams при поддержке Министерства образования Азербайджана, однако низкое качество интернет-соединения и слабость навыков участников процесса по использованию программы приводят к определенным проблемам. Одной из проблем является слабая скорость интернета со стационарного телефона, а также дорогой интернет мобильных сетей, несмотря на хорошую скорость. Самые распространенные жалобы — «зависающий» интернет, сложности с видеоплатформами у учителей (в том числе полное отсутствие занятий из-за того, что учитель не может справиться с платформой), отсутствие полноценной подготовки к интернет платформе у учителей, и отсутствие компьютера или ноутбука для учащихся, особенно при наличии дома только стационарного компьютера и необходимости родителей работать удаленно [6]. На сегодняшний день в регионах страны интернет-доступ осуществляется через ADSL, который работает через обычные медные кабели телефонных линий, а на этом не предложишь никакой нормальной услуги, уж тем более не построишь качественного образовательного процесса [3].

Негативное влияние на процесс оказывает также нахождение учащихся дома и большое число обучающихся дистанционно, а также то, что родители не полностью могут контролировать учебную программу из-за работы. Отсутствие живого общения с учителем, комфортная домашняя зона тоже уменьшают эффективность дистанционного обучения [8]. Большинство преподавателей так и не смогли адаптироваться к цифровым условиям и онлайн-программам и считают традиционный формат образования более качественным. Но для части преподавателей дистанционный формат оказался более удобным – как при планировании собственного рабочего времени, так и в части организации обучения. Нельзя не согласится с тем, что острая ситуация помогла освоить новые инструменты и практики онлайн-обучения.

Педагоги вынуждены преподавать в системе, которая к этому не подготовлена. На данный момент мало преподавателей понимает, какие из множества решений являются наиболее эффективными и как можно их наилучшим образом реализовать. В результате используются не самые удачные практики онлайн-обучения и дистанционное обучение имеет скорее «экстренный» характер. В данном случае дополнительным барьером выступает тот факт, что на сегодня не вполне ясно, какие технологии и форматы наилучшим образом подойдут конкретной возрастной группе учащихся. Отдельным трудностью является ограниченность кооперативных и совместных форм обучения, что особенно актуально для практических областей.

Трудности, связанные с дистанционным обучением, возникают и у самих обучающихся, в особенности у тех, кто не обладает достаточным уровнем внутренней мотивации и нуждаются в постоянном внешнем контроле, который в настоящее время ослаблен. Впоследствии это может привести к существенному отставанию от учебной программы уязвимых групп учащихся. В связи с кризисной ситуацией многие школьники и студенты испытывают также эмоциональные трудности, на работу с которыми также необходимо выделять ресурсы [2, с.5]. Большинство студентов отмечают увеличение учебной нагрузки в условиях онлайн-обучения и связывают это с большим количеством материалов для самоподготовки. При этом у студентов появилось больше времени на сон, и многим студентам дистанционный формат обучения нравится даже больше, чем очный.

Важной проблемой, является последствия интенсивного онлайн-обучения для здоровья учащихся, которые теперь больше времени проводят перед экранами мониторов, в связи с чем рекомендуется совмещать цифровую деятельность с деятельностью без гаджетов. Онлайн-лекции могут быть сокращены и объединены с нецифровой образовательной деятельностью.

Нынешняя волна закрытия школ и повсеместный переход на онлайн-обучение дает возможность для экспериментов и тестирования новых моделей образования [5]. Изучение того, как школьники и студенты могут учиться в разных условиях, поможет странам лучше понять потенциал цифрового обучения и сблизить школы и семьи. Ученики привыкли к плотному школьному расписанию и рабочей нагрузке, но могут быть найдены новые решения, позволяющие учащимся получить больше самостоятельности и свободы действий в организации своего обучения. В рамках текущей ситуации могут быть расширены возможности учителей в области уверенного использования цифровых технологий в преподавании. Учителя смогут пробовать различные цифровые решения для понимания того, как технологии могут быть использованы для более эффективного обучения, и системам образования необходимо поощрять их творческую активность в этом процессе. Плюсами дистанционного образования можно считать в первую очередь приобретение дополнительных знаний в сфере компьютерных технологий. Так сказать, информационное развитие, позволяющее идти в ногу со временем. Время идёт вперёд, технологии меняются. Но общение ученика с учителем, передача опыта наставника, должны проходить при непосредственном контакте. Отсутствие живого общения преподавателей со студентами и студентов между собой сужает коммуникационное пространство, которое является одним из факторов развития и самоутверждения человека.

Конечно, для эффективного дистанционного обучения важно обладать навыком самоконтроля и способности к самообразованию; важна усидчивость и концентрация внимания на процессе обучения. Своевременное выполнение всех проверочных работ и планомерное усвоение получаемых знаний являются обязательными условиями достижения цели обучающегося [7].

Мировой кризис, вызванный пандемией несколько отодвигает образование на задний план, поскольку правительства стран сегодня больше сосредоточены на мерах в сферах здравоохранения, экономической и социальной политики, направленных на преодоление пандемии и ее последствий. Основным, практически всеобщим, ответом стран на распространение эпидемии стало закрытие учебных заведений и перевод обучения в онлайн формат. Анализ показал, что страны закрывали школы колледжи и университеты по мере увеличения числен-

ности зараженных. При этом важно отметить, что правительства ориентировались не на относительное число заболевших, а на их абсолютную численность.

Непрерывное развитие информационных технологий оказало мощное влияние на все сферы жизни общества, и не в последнюю очередь – на образование. С каждым годом все популярнее становится дистанционное обучение. COVID-19 дал огромный толчок для жизни в дистанционном формате. И мы научились с этим жить.

Литература

1. Концептуальная записка: образование в эпоху COVID-19 и в последующий период
2. Resnick L.B.Toward a cognitive theory of instruction //Learning and motivation in the classroom. – Routledge, 2017.
3. https://az.sputniknews.ru/science/20200817/424686410/azerbaijan-koronavirus-distancionnoe-obrazovanie.html.
4. https://en.unesco.org/themes/education-emergencies/coronavirus-school-closures
5. https://firo.ranepa.ru/novosti/105-monitoring-obrazovaniya-na-karantine/789- agranovich-ekspertiza
6. https://www.kommersant.ru/doc/4307297
7. https://www.securitylab.ru/blog/company/axxtel/350364.php
8. https://www.trend.az/azerbaijan/society/3363544.html

Yasin CƏFƏROV
Bakı Dövlət Universiteti, kimya elmləri doktoru, dosent
yasin.cafarov@hotmail.com

Arzu PAŞAYEVA
Bakı Dövlət Universiteti, dissertant
Pasayeva-1969@mail.ru

Ləman CƏFƏROVA
Bakı Dövlət Universiteti, tələbə
leman_ceferova_2018@mail.ru

PANDEMİYA DÖVRÜNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLMƏSİNDƏ İNNOVATİV FƏALİYYƏTİN ROLU

ROLE OF INNOVATION IN IMPROVING THE QUALITY OF EDUCATION IN THE CONDITIONS OF THE PANDEMIC

РОЛЬ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ В УСЛОВИЯХ ПАНДЕМИИ

Xülasə. Məqalə təhsil innovasiyalarının şagirdləri təlim zamanı idarəetmə nöqteyi-nəzərindən keçirilməsinə həsr edilmiş,təlimin məqsədi ilə təlimin məzmunu arasında əlaqə rolunu oynayan təhsil texnologiyaları təhlil edilmişdir. Şagirdlərin təlim keyfiyyətinin tərkib hissələrinin rolu qeyd edilmişdir. İnnovativ təhsil prosesinin həyata keçirilməsində həll edilməsi lazım olan vəzifələr sadalanmışdır. Pandemiya dövründə respublikamızda təhsilin fasiləsizliyinə nail olmaq diqqət mərkəzində dayanmışdır. Qarşılıqlı hörmət və anlama əsasında qurulan münasibətlər müəllimin nüfuzunu artırır. Müəllimin peşəkarlığı, ustalığının bir hissəsi şagirdlərlə münasibətlərin düzgün qurmaq bacarığıdır.

Açar sözlər: *innovasiyalar, innovativ təhsil prosesi, təhsil texnologiyaları, təhsilalan, müəllim, qarşılıqlı əlaqə.*

Abstract: The article is devoted to the consideration of educational innovations from the point of view of their management when teaching students. The educational technologies of education are analyzed, which act as the relationship between the purpose of training and the content of training. The role of the constituent elements of the quality of training of students was noted. The tasks that should be solved in the implementation of innovative educational process are listed. During the pandemic, the focus was on ensuring the continuity of education in our country. Relationships based on mutual respect and understanding increase the teacher's credibility. It is the teacher's ability to establish a pedagogically appropriate tone and style in communicating with students

Keywords: *innovations, innovative educational process, educational technologies, student, teacher, interaction.*

Резюме. Статья посвящена рассмотрению образовательных инноваций с точки зрения управления ими при обучении учеников. Анализируются образовательные технологии обучения, выступающие взаимосвязью между целью обучения и содержанием обучения.

Была отмечена роль составляющих элементов качества подготовки обучающихся. Перечислены задачи, которые должны быть решены при осуществлении инновационного образовательного процесса. Во время пандемии основное внимание уделялось обеспечению непрерывности образования в нашей стране. Отношения, основанные на взаимном уважении и понимании, повышают авторитет учителя. Это способность учителя устанавливать педагогически целесообразный тон и стиль в общении с учащимися.

Ключевые слова: *инновации, инновационный образовательный процесс, образовательные технологии, обучающийся, педагог, взаимодействие.*

Təhsildə innovasiya dedikdə müxtəlif yeniliklərin təlim-tərbiyənin məqsəd, məzmun, metod və formalarına tətbiqi, təhsilin iqtisadiyyati, təşkili və idarə edilməsində pedaqoq və təhsilalanın müştərək fəaliyyətlərinin yeni biliklər əsasında təşkili nəzərdə tutulur.Təhsildə innovasiyalar ölkə və ya regional səviyyədə, təhsil islahatları və ya müəyyən məqsədli inkişaf çərçivəsində, mərkəzləşdirilmiş formada və ya təhsil müəssisəsinin (TM) təşəbbüsü ilə lokal formada həyata keçirilə bilər.Bu zaman pilot layihə çərçivəsində eksperimental fəaliyyət təşkil edilə bilər. Təbii ki, bütün bu proseslər hüquqi-normativ baza əsasında reallaşmalıdır.Təhsildə modernləşmənin əsas məqsədi bu gün reallaşan kütləvi təhsil, pandemiya şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir. Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir. Bu məqsədlə bir çox ölkələrdə müvafiq təhsil strategiyaları və inkişaf proqramları hazırlanmış, hazırda icra edilməkdədirlər.

Bu gün təhsildə, pandemiya dövründə strateji yanaşma digər fəaliyyət sahələrinə nisbətən vacibdir.Bu yaxınlarda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamla "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq olunmuşdur. Hesab edirik ki, bu strategiyanın icrası innovativ ideyalar əsasında milli təhsilin inkişafına dəstək verəcək.

İnnovasiyaların mahiyyətinə isə müxtəlif yanaşmalar vardır. Beləki, İnnovasiya-yeniliyin məzmunu və reallaşmasıdır, geniş mənada isə yeniliklərin (yeni texnologiya, məhsul, xidmət, istehsal, maliyə, kommersiya) inzibati, təşkilatı-texniki və sosial-iqtisadi qərarlar şəklində mənfəətli istifadəsi başa düşülür. İnnovasiyanı yaradan və tətbiq edən insanlara innovator deyirlər. İnnovator olmadan innovasiya və innovativ inkişaf mümkün deyil. İnnovator yaradıcı, qeyri-standart təfəkkürə, yüksək savada, sahibkarlıq qabiliyyətinə malik olmalıdır.

Bu xüsusiyyətlər isə keyfiyyətli təhsil hesabına yarana bilər [2]. Kimya fənni kurikulumunun şəxsiyyətyönümlülük, nəticəyönümlülük, tələbyönümlülük, inteqrativlik prinsipləri əsasında hazırlanması, məzmunun nəticələr şəkilində verilməsi, yeni qiymətləndirmə sistemindən tədrisdə istifadə edilməsi təhsildə olan yeni yanaşmalardandır [3]. Təhsil iştirakçılarının müasir tədris avadanlıqlarından istifadə bacarıqlarının artırılması, onların maarifləndirilməsi, eləcə də məktəblərin İKT ilə təminatının genişləndirilməsi, bütövlükdə informasiya cəmiyyətinin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, rəqəmli təhsil informasiya ehtiyatlarının yaradılması, təhsilverənlərin kompüter biliklərinin artırılması istiqamətində Dövlət səviyyəsində sənədlər, proqramlar hazırlanır və onların həyata keçirilməsi üçün kompleks işlər aparılır [4-6].

Hazırda digər fənlərdə olduğu kimi kimyanın tədrisində də innovasiya texnologiyalarından istifadə edilir. Bu gün dünyada tüğyan edən yeni növ koronavirus (COVID-19) pandemiyası bir çox sahələrdə əsaslı çətinliklər yaratmaqdadır. Bir tərəfdən insanlar sağlam qalmaq üçün gözəgörünməz düşmənlə - virusla mübarizə aparır. Ağlımıza belə gəlməzdi ki, nə vaxtsa bir-birimizlə canlı ünsiyyət qurmaqdan ehtiyat edəcək, həyat dolu günlərimizdən uzaq düşəcəyik. Artıq xeyli müddətdir ki, insanın-insandan qaçdığı bir dövrü yaşamaqdayıq. Bütün bu hadisələrin fonunda narahatedici məqamlardan biri də məlum vəziyyətlə bağlı təhsil sahəsində yaşanan çətinliklərdir. 2020-ci ilin martın 3-də COVID-19 pandemiyasının yayılması səbəbi ilə ölkədə rəsmi karantin rejimi elan edildikdən sonra bütün təhsil müəssisələri bağlandı.

Qeyd etdiyimiz kimi, pandemiya bütün sahələrə, o cümlədən təhsil sisteminə də təsirsiz ötüşmədi.Lakin bu çətinliklərin aradan qaldırılması istiqamətində Təhsil Nazirliyinin reallaşdırdığı layihələr, həyata keçirdiyi tədbirlər nəticəsində yaranan problemlərin həllinə müvəffəq olundu. Belə ki,

təhsil müəssisələrinin bağlandığı zaman nazirlik tərəfindən 2 telekanalda teledərslərə start verilməsinin, "Virtual məktəb" layihəsinin həyata keçirilməsinin, bunlarla yanaşı, müəllimlərin öz şagirdlərinə onlayn dərslər keçməsinin təhsilin davamlılığında, təhsilalanların təhsildən kənar düşməsinin qarşısının alınmasında əhəmiyyətli rolu danılmazdır. Bildiyimiz kimi, mart ayından bütün dünyanı bürüyən COVID-19 səbəbi ilə bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da tədris ənənəvi formadan onlayn tədrisə keçmişdir. Bu, məcburiyyətdən yaranan çıxış yolu idi ki, bunu da Azərbaycan Respublikası Təhsil Nazirliyi, fədakar müəllimlər çox layiqincə yerinə yetirdi. Çünki tədrisin həm onlayn, həm də teledərslər vasitəsilə əlçatan olmasını həll etmək, şagirdləri tədrisə cəlb etmək, bundan əlavə qısa zamanda virtual məktəb layihəsini həyata keçirmək o qədər də asan bir iş deyildi.İnsanlar bu kimi fövqəladə vəziyyətlərdə bilik və bacarıqlarından düzgün istifadə edib, sağlamlıqlarını qorumalı, həyat və fəaliyyətlərini dəyişikliyə uyğunlaşdırmalıdır. Buna məcburdurlar. Ən önəmlisi də psixoloji cəhətdən dəyişikliyə hazır olmalıdırlar.Təhsil sektoru önəmlidir. Bir sözlə, təhsil cəmiyyətin həyatında ən mühüm faktordur. Buna görə də istər pandemiya dövrü, istərsə də pandemiyadan əvvəl və sonra təhsildə narahatlıqların olması labüddür.Lakin əvvəlcə müəyyən etməliyik ki, bu narahatlıqlar hansı sosial qrupları əhatə edir: Təhsil alanlar, yoxsa təhsildən yayınmaq istəyənlər, bir neçə fərdin narahatlığıdır, ya böyük bir toplumun. İlk karantində təhsil sektoru dərhal iş fəaliyyətini pandemiyaya uyğun qurub, onlayn təhsil sisteminə keçdi. Biz bilirik ki , Koronavirus (COVİD-19) xəstəliyinə yoluxma hallarının kəskin şəkildə artması ilə əlaqədar İctimai səhiyyə sahəsində beynəlxalq əhəmiyyət kəsb edən fövqəladə vəziyyət (PHEIC) elan edilib. Hamı evdə qalıb,öz işlərini yerinə yetirməyə çalışır.Müəllimlərində əsas vəzifələrindən biridə, şagirdlərə onlayn dərslərinin keçirilməsidir. Kimya dərslərində mövzuları tədris edən zamanı, Koronavirusun rezistentliyi və mübarizə yollarından izah etmək olar. Bu mövzuda şagirdlər arasında maarifləndirmə işləri daha da gücləndirilməlidir. Müəllim ilk növbədə şagirdlərə bu mövzu üzrə prezentasiya hazırlayıb, belə məlumat versə daha məqsədə uyğun olar: Bilirsiniz, İlk dəfə olaraq, 2019-cu ilin dekabr ayının ortalarında, Çinin mərkəzi Hubey əyalətinin Uhan şəhərində yerli Huanan ət və dəniz məhsulları bazarı ilə əlaqəli yerli sakinlərdə naməlum mənşəli pnevmoniya xəstəliyi aşkar edilmişdir. Çox böyük sürətlə yayılan naməlum virus mənşəli pnevmoniyanın başlanması barədə 31 dekabr 2019-cu ildə Çin hökuməti tərəfindən Dünya Səhiyyə Təşkilatına məlumat verilib. İlk vaxtlarda 2019-n CoV adlandırılan bu xəstəliyə 11 fevral 2020-ci il tarixindən COVID-2019 adı verilib. Çin alimləri tərəfindən xəstəlik törədicisinin yeni koronavirus SARS-CoV-2 olduğu müəyyən edilib. Şagirdlərə viruslar haqqında belə məlumat verə bilərik: Ümumiyyətlə, viruslar aləmi bitki və heyvan aləmi ilə müqayisədə olduqca zəngin növ müxtəlifliyə malikdir. Viruslar müxtəlif növlər arasında genlərin təbii ötürücü vasitələri olub, genetik müxtəliflik yardaraq təkamülü istiqamətləndirir. Hesab olunur ki, viruslar ilkin təkamüldə, Yerdə həyatın ümumi axırıncı universal əcdadı dövründə əsaslı rol oynamışdır. Viruslar bu gündə də Yerdə tədqiq olunmamış genetik müxtəlifliyin canlı xəzinəsidir. Virus - latıncadan tərcümədə "zəhər" mənasını verir, hüceyrədənkənar yoluxdurucu agent olub, yalnız canlı hüceyrə daxilində çoxala bilir. Viruslara bütün canlı orqanizmlərdə - bitkilər, heyvanlar, bakteriyalar və arxeylərdə belə rast gəlinir. 1892-ci ildə ilk dəfə rus mikrobioloqu Dmitriy İvanovski tərəfindən viruslar kəşf olundu. Koronavirusun adı latınca "corona" sözündən götürülmüşdür ki, bu da "tac", "çələng" mənalarını verir. Buna səbəb virusun elektron mikroskop görüntülərində Günəş tacını xatırladan zolaqların olmasıdır. "[1,s.45]

Bu morfologiya virus tikanının peplomerləri vasitəsilə yaranır, bu zülallar virusun səthini örtərək sahibin tropizmini təyin edir. Koronaviruslar 1960-cı illərdə kəşf edilmişdir. İlk dəfə toyuqlarda yoluxucu bronxit virusu, daha sonra insan koronavirusu 229E və insan koronavirusu OC43 olaraq adlandırılmışdır. Sonrakı dövrlərdə bu ailənin başqa üzvləri - 2003-cü ildə SARS-CoV, 2004-cü ildə HCoV NL63, 2005-ci ildə HKU1in, 2012-ci ildə MERS-CoV və 2019-cu ildə 2019-nCoV-2 kimi formalar kəşf edilmişdir. S-zülallardan təşkil olunmuş "tac"ın mövcudluğu açıq səthdə virusun yaşama qabiliyyətini aşağı salır. Oksigen və digər oksidləşdiricilər sərbəst təsir göstərə bildiklərindən S-zülalların denaturasiyasına gətirib çıxarır. Tədqiqatlar zamanı məlum olmuşdur ki, quru səthdə koronavirus bir neçə saatdan bir neçə günə kimi qala bilir. Plastik və paslanmayan polad materiallar üzərində 72 saat, karton üzərində 24 saat, mis üzərində isə 4 saat müddətində sağ qala bildiyi

müəyyən edilmişdir. Koronavirusun ətraf mühitdə +33°S temperaturda 16 saat müddətində, +56°S-də isə 10 dəqiqə ərzində məhv olduğu aşkarlanmışdır.

Üzvi kmyanın tədrisində şagirdlərə maraqlı faktları demək olar: Tədqiqatlar zamanı müxtəlif antiseptik maddələrin koronaviruslara təsiri fərqli nəticələr göstərmişdir. İtaliya alimləri tərəfindən müəyyən edilmişdir ki, 70%-li etanol, natrium hipoxloridin 0,01%-li və xlorheksidinin 1%-li məhlulları çox sürətlə (2 dəqiqədən az müddətə) virusun kapsidini zədələyir və artıq virus çoxala bilmir. Digər tədqiqatlar zamanı tərkibində 45% izopropanol, 30% n-propanol olan və 80% etanol tərkibli vasitələr yoxlanılmış və bunların hamısının 30 saniyə müddətində virusları məhv etdiyi müəyyən edilmişdir. DST koronavirus əleyhinə tərkibində spirt olan antiseptik vasitələrdən istifadə etməyi tövsiyə edir. Eyni zamanda əllərin sabunla yaxşıca yuyulması da mexaniki yolla virusla mübarizənin effektiv yolu kimi məsləhət görülür. Koronavirusların aerozolun tərkibində 8-10 saat, suda isə 9 sutka müddətində sağ qaldığı müşahidə edilmişdir. Həm koronaviruslu aerozola qarşı, həm də əşyaların üstündə olan viruslara qarşı "kvars lampa"larla UB-şüalandırma effektiv təsir göstərir. Koronaviruslar kimi təkzəncirli RNT-virusların məhv edilməsi üçün 339-423 mkVt*s/sm2 dozasında 254 nm dalğa uzunluğunda UB-şüalanma havanın 90% dezinfeksiyasını təmin edir. Beləliklə, virusun UB-lampası ilə məhv edilməsi onun gücündən asılı olaraq 2-15 dəqiqə müddətində baş verir. Psixi sağlamlıq/psixososial dəstək sahəsində yaranan ehtiyacları ödəmək üçün şagirdlərdə yaranan sualları və narahatlıq doğuran məsələləri müzakirə etmək üçün şərait yaratmaq lazımdır. Şagirdlərdə müxtəlif reaksiyaların əmələ gəlməsinin normal hal olduğunu onlara izah etmək və yaranan hər hansı sual və narahatlıq doğuran məsələ barədə müəllimlərlə söhbət etməyə həvəsləndirilməlidir. Zəruri məlumatları səmimi şəkildə, yaşa uyğun tərzdə təqdim etmək lazımdır. Həyacan əlamətləri nümayiş etdirən şagird və işçilərin müəyyən edilməsi və dəstəklənməsi üçün məktəbin tibbi personalı/sosial işçiləri ilə birgə iş aparılmalıdır.

Həyata keçirilməsi mümkün olan vacib xidmətlərin, məsələn xüsusi ehtiyacı olan şagirdlərlə bağlı tibbi yoxlamaların, qidalanma proqramlarının və ya müalicəvi tədbirlərin davamlılığını təmin etmək üçün sosial xidmət sistemlərinin əməkdaşları ilə birgə iş aparılmalıdır. Sağlamlıq imkanları məhdud şagirdlərin xüsusi ehtiyaclarını, həmçinin xəstəliyin və onun fəsadlarının əhalinin həssas təbəqələrindən olan şagirdlərə kəskin təsir etməsi ehtimallarını nəzərə almaq lazımdır. Məktəblərdə tətbiqinə geniş maraq göstərilən yeni pedaqoji texnologiyalardan biri də modulla təlim texnologiyasıdır. Təlimin modul texnologiyası dedikdə, şagirdlərin müstəqil olaraq dərsdə və dərsdənkənar vaxtlarda modullu iş prosesində konkret təlim məqsədlərinə nail olması başa düşülür. Yaxşı olardı ki,onlara bu xəstəlik haqqında araşdırmaları tapşırılsın. Tədris prosesində şagirdlərin maksimum iştirakı prinsipindən istifadə edərək, şagirdləri müxtəlif növ fəaliyyətə cəlb etməyi nəzərdə tutulur. Bu məqsədlə bu mövzu ilə bağlı qarşılıqlı sorğu keçirilir. Yaranan problemlər, cavablardakı kəmkəsirlər aradan qaldırılır. Burada prinsip belədir: şagirdlərin görə biləcəyi işi müəllim görməməlidir.Şagirdi vacib fəaliyyətə cəlb etmək onu nəinki inkişaf etdirir, həm də tərbiyə edir. Tədris prosesində real fəaliyyətdə uğur qazanmaq situasiyasını yaratmaqla təlimin tərbiyəedici, inkişafetdirici məqsədlərinə müvəffəqiyyətlə nail olunur.Beləliklə, "Tədris prosesinə fəal təlim metodlarının daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Fəal təlim metodlarının tətbiqi nəticəsində "Təhsil sahəsində İslahat proqramı"nın təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, diferensiallaşdırılması, fərdiləşdirmə, inteqrasiya prinsiplərini geniş tətbiq etməklə həyata keçirmək olar". [3,s.10]

Təhsildə pedaqoji innovasiyalar, onların tipləri, tətbiq sahələri və tətbiq metodları, funksional yenilikləri və qarşıya çıxan problemlərin həll edilməsi, onların təhsilin təşkili və keyfiyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsinə necə təsir etməsinin araşdırılmasına ciddi ehtiyac vardır. Problemin yeniliyi. Məqalədə pedaqoji innovasiyaların növləri və onların tətbiqi ilə bağlı təlim keyfiyyətinin, öyrənmənin və eləcə də öyrətmənin səmərəliliyinin artırılması, innovativ ideyaların tətbiqi və onun idarəçilik mexanizminə təsiri yolları araşdırılır. Pedaqoji məharət müxtəlif xüsusiyyətlərlə səciyyələnir. Onlardan ikisi xüsusilə mühümdür. Pedaqoji məharət, bir tərəfdən, ölçü hissi ilə bağlıdır. Digər tərəfdən, şagirdlərlə düzgün münasibət saxlamaq bacarığı onun bəlkə də başlıca mə-

ziyyətlərindən biri kimi özünü göstərir. İnsan münasibətlərinin bütün sahələrində taktın əhəmiyyəti böyükdür. Müəllim – şagird münasibətlərində isə o, xüsusilə zəruridir. Koronavirusun nəticələrinin aradan qaldırılması zamanı bir sıra təhsil sistemlərində məktəblərlə valideynlər arasında əlaqə güclənib. Məktəblərin valideynlər və müəllimlər üçün bağlanması ilə bağlı çoxsaylı problemlər yaransa da, pandemiyanın nəticələri aradan qalxandan sonra hər iki tərəf arasında daha möhkəm əlaqələrin qurulması və möhkəmləndirilməsi mühüm əhəmiyyət kəsb edəcək. Son həftələr və aylar ərzində məktəblərin bağlanması ona gətirib çıxardı ki, bir çox təhsil sistemləri həm valideynlərə, həm də müəllimlərə dəstək verməyə başladı. Məktəblər və valideynlər arasında daha möhkəm münasibətlər təcrid dövründə yaranmış boşluqların aradan qaldırılması məqsədilə tədris prosesini sürətləndirməyə çalışan təhsil sistemləri üçün mühüm əhəmiyyət kəsb edəcək. Məsələn, müəllimlər evdə dərinləşdirilmiş təhsili təmin etmək üçün valideynlərə dəstək verə, onları istiqamətləndirə, o cümlədən uşağın hazırkı təlim məqsədlərini və nailiyyətlərini dəstəkləyən fəaliyyətləri izah edə bilərlər. Eyni zamanda, valideynlər müəllimlərə təcrid dövründə bir uşağın içində olan hər hansı bir problemi, eləcə də uşağın ev kontekstini, maraqlarını və problemlərini başa düşməyə kömək edə bilərlər. Şagirdlərə yönəlmiş bu cür yanaşmalar daha çox "ailə məktəbləri" və "məktəb ailələri"nın inkişafına kömək edir.

Problemin praktik əhəmiyyəti. Təhlil olunan pedaqoji innovasiyaların növləri, tətbiqi mexanizmlərinin təhlili və dərindən araşdırılması pedaqoji şəraitin qiymətləndirilməsi kimi təlim proqnozlarında geniş istifadə oluna bilər və təhsil siyasəti ilə məşğul olanlar, idarəedici və idarəolunan heyətin fəaliyyətinə istiqamət olacaqdır.

Kimyanın tədrisinə yeni yanaşmalar mövzusu geniş və aktual mövzudur. Beləliklə, kimyanın tədrisində fəal təlim üsullarından, təlimin texniki vasitələrindən, didaktik oyunlardan, yeni təlim texnologiyalarından, İKT-dən və s. istifadə etməklə dərsi daha maraqlı etmək mümkündür. İnnovativ üsullarla tədris edilən mövzular şagirdlərin diqqətini cəlb etməklə yanaşı, həmçinin onların dərsə daha həvəslə qulaq asmasına nail olur. Bu zaman müəllimlərin də üzərinə böyük məsuliyyət düşür. Müəllim dərsdə müxtəlif təlim üsullarından, formalarından istifadə etməklə şagirdləri tədqiqatçılığa, düşünməyə və axtarışlar aparmağa yönəldir. Əvvəlcə müəllimdən İKT bacarığı tələb olunur. İKT - dən düzgün istifadə olunması tədris prosesinə yenilik gətirir, şagirdlərin öyrənmə marağını artırır, müəllimin dərsə hazırlaşmasını asanlaşdırır.

Ədəbiyyat

1. Gouilh MA, Puechmaille SJ, Gonzalez JP, Teeling E, Kittayapong P, Manuguerra JC (October 2011). "SARS-Coronavirus ancestor's foot-prints in South-East Asian bat colonies and the refuge theory". Infection, Genetics and Evolution.
(Jurnal, tezis**)**11(7):1690702. doi:10.1016/j.meegid.2011.06.021. PMID 21763784.
2. Habibzadeh P, Stoneman EK (2020). "The Novel Coronavirus: A bird's eye view". International Journal of Occupational and Environmental Medicine. (Jurnal məqaləsi) 11(2):65–71.doi:10.15171/ijoem.2020.1921. PMID 32020915
3. Mehrabov A. Müasir dərs:onun təşkilinə və gedişinə qoyulan tələblər. "Kurikulum" jurnalı, 2013, **(**Jurnal məqaləsi) № 4, səh. 5-10.
4. Заграничная Н.А., Иванова Р.Г. Современные подходы к обучению химии. Химия в щколе, (Jurnal məqaləsi) №2, стр. 10-15, 2010.
5. Əskərov A.B., Quliyeva G.N., Şərəfova Z.S. "İnteraktiv təlimdə simulyasiyadan istifadə", Pedoqoji Universitet Xəbərləri, (Jurnal məqaləsi) Bakı, № 2, 2009.
6. M.M. Abbasov, A.H. Əliyev, M.S. Fərəcov, V.S. Əliyev. Ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu) (VII-XI siniflər üçün), Kimya məktəbdə, 2-3 (46-47) 2014.
7. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya". http//e-qanun.az

BÖLMƏ 2/ PARALLEL SESSION 2

TURİZM SƏNAYESİNDƏ KADR HAZIRLIĞI VƏ İQTİSADİYYATIN TURİZM TƏHSİLİNƏ TƏSİRİ/

STAFF TRAINING IN TOURISM INDUSTRY AND THE IMPACT OF THE ECONOMY ON TOURISM EDUCATION

Pəri HƏSƏNOVA
Bakı Dövlət Universiteti, i.e.d., professor
perihesenova80@gmail.com

AZƏRBAYCAN İQTİSADİYYATI MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ

AZERBAIJAN'S ECONOMY AT THE PRESENT STAGE DEVELOPMENT

АЗЕРБАЙДЖАНСКАЯ ЭКОНОМИКА НА СОВРЕМЕННОМ ЭТАПЕ РАЗВИТИЯ

Xülasə: İqtisadiyyat hər bir dövlətin inkişafının əsasını təşkil edir. Buna görə də ölkələr iqtisadiyyatın inkişaf etdirilməsinə xüsusi diqqət yetirirlər. İqtisadiyyatı zəif olan dövlətlər heç zaman güclü ola bilməz. Azərbaycanda da iqtisadiyyatın inkişafı üçün bütün imkanlar mövcuddur və iqtisadi inkişaf özünəməxsus inkişaf metodu ilə fərqlənir. Ölkəmizdə ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və dinamik iqtisadi inkişaf təmin edilmişdir. Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında həlli tələb edilən vəzifələr ön plana çəkilmişdir.

Açar sözlər: *Azərbaycan iqtisadiyyatı, innovasiya, iqtisadi inkişaf, qeyri-neft sektoru.*

Абстракт: Экономика - основа развития любого государства. Поэтому страны уделяют особое внимание экономическому развитию. Государство со слабой экономикой никогда не может быть сильным. В Азербайджане также есть все возможности для экономического развития и экономическое развитие отличается своим собственным методом развития. Последовательные экономические реформы в нашей стране привели к коренным качественным изменениям в экономике страны, было достигнуто динамичное экономическое развитие. Помимо всего этого, на первый план выходят задачи, которые необходимо решать в социально-экономической жизни страны.

Ключевые слова: *Экономика Азербайджана, инновации, экономическое развитие, ненефтяной сектор*

Abstract: The economy is the basis for the development of any state. Therefore, countries pay special attention to economic development. A state with a weak economy can never be strong. Azerbaijan also has all the opportunities for economic development and economic development is distinguished by its own development method. Successive economic reforms in our country have led to fundamental qualitative changes in the country's economy, dynamic economic development has been achieved. In addition to all this, the tasks that need to be addressed in the socio-economic life of the country come to the fore.

Key words: *Economy of Azerbaijan, innovation, economic development, non-oil sector*

Ümummilli lider Heydər Əliyev həm Sovet dönəmində, həm də müstəqillik illərində iqtisadiyyatın inkişafına böyük önəm vermişdir. Düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşmasını, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi. Respublikada iqtisadi inkişaf, investisiya mühitinin yaxşılaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı kimi dövlət və iqtisadiyyatın münasibətlərində optimallığı qorumağa çalışırdı. Onun əsas xidmətləri milli iqtisadiyyatın inkişafı üçün bir tərəfdən ictimai-siyasi sabitliyin təmin edilməsindən, digər tərəfdən də iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstəyin verilməsindən ibarət olmuşdur.

Dahi Heydər Əliyevin Azərbaycan Dövlətçilik tarixində müstəsna yeri vardır. O,öz müdrik siyasəti sayəsində milli dövlətçilik ideyasının gerçəkləşməsinə və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Onun rəhbərliyi altında milli maraqlara əsaslanan xarici siyasət kursu müəyyənləşdirilmiş, ölkələrlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlər qurulmuşdur. Onun çoxsahəli fəaliyyətində elm, təhsil və mədəniyyətin inkişafına həmişə diqqət və qayğı göstərilmişdir.

1969-1982-ci illər fəaliyyətindən görünür ki, Azərbaycanda sürətli iqtisadi inkişaf bir həqiqətdir. O dövrlərdə Azərbaycanın bütün iqtisadiyyatı həm sənaye, həm də kənd təsərrüfatında sürətli özünəməxsus inkişafı var idi. Bu inkişaf ölkəmizin bütün bölgələrində nəzərə çarpırdı və iqtisadiyyat güclənirdi. Bu illrdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox sürətlə inkişaf etmişdir. Müstəqilliyin ilk illərində ölkəmizdə çox çətinliklər olsa da bu gün Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətdir. O, deyirdi biz Respublikamızda hüquqi, demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu dövlət quruculuğunda, siyasi sahədə staretji yolumuzdur. Bununla çox-çox əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir.

Heydər Əliyev həmişə deyirdi ki, iqtisadiyyatı güclü olan dövlətlər hər şeyə qadirdir. Hər bir ölkənin, hər bir xalqın həm yaşaması, həm də dövlətin mövcudluğu və inkişafı üçün şərt onun iqtisadiyyatıdır. Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ilk növbədə iqtisadi sahədə qarşıda duran vəzifələri müəyyən etməyə başladı. İlk olaraq iqtisadi siyasətin strateji xəttini müəyyənləşdirdi. Və bildirdi ki,iqtisadi inkişafın gecikməsi siyasətində fəlakəti ola bilər. Bildirirdi ki, mənim əsas istəyim ilk növbədə Azərbaycan elmi inkişaf etsin. Yəni, elmi araşdırmalar ölkə iqtisadiyyatının gücləndirilməsinə yönəlməlidir.

Ümummilli liderin layiqli davamçısı prezident İlham Əliyevin adı ilə bağlı davamlı regional inkişaf proqramlarının qəbul edilməsi və uğurla həyata keçməsi isə ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın qaldırılması ilə nəticələnir.

Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl məqsədlə qurulmasından asılıdır. Ümumiyyətlə məqsəd və vəzifələri, orta və uzunmüddətli dövr inkişaf istiqamətlərini müəyyənləşdirmədən əsaslı dönüşə nail olmaq mümkün deyil. Ötən illər ərzində prezident İlham Əliyev qurulan işlər üzərində Azərbaycanın bir dövlət kimi dayaqlarını möhkəmləndirdi. Bu illərdə ölkəmizdə iqtisadi quruculuq prosesi geniş vüsət aldı. Azərbayca regionun ən perspektivli ölkəsinə çevrildi.

2003-cü ildən Azərbaycanın iqtisadi inkişafında yeni mərhələ başladı.2003-2005-ci illərdə ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəz edən iqtisadi siya-

sət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat", "insanların iqtisadi cəhətdən azad olması", "xarici amillərdən asılılığın azaldılması" konsepsiyaları Azərbaycanın iqtisadi inkişaf modelində müəyyən prinsipial dəyişikliklərin aparılmasını zəruri etmişdir.

2000-ci illərin ortalarından başlayaraq Azərbaycan iqtisadiyyatının inkişaf perspektivləri sabitləşmiş,milli iqtisadi proseslər əsasən müəyyənləşdirilmiş, ölkənin neft sektoru ilə yanaşı, qeyri-neft sahələrinin inkişafı üçün də islahatlar aparılmışdır.

Azərbaycan iqtisadiyyatının inkişafının ən mühüm meyillərindən biri də iqtisadiyyatın inkişafı prosesində rəqabət qabiliyyətinin artırılması problemidir. Bu sahədə də dövlət bpyük işlər görür və müsbət nəticələr verməkdədir.

Prezident İlham Əliyev ölkə iqtisadiyyatının son illərdəki inkişaf meyllərinin dolğun xarakteristikasını vermişdir. Qeyd olunmuşdur ki, son 10 il ərzində Azərbaycan dünyada çox sürətlə inkişaf etmiş, iqtisadiyyat 3,4 sənaye istehsalı 2,7, 2013-cü ildə qeyri neft sektorunun artımı təqribən 10% və ölkə iqtisadiyyatı 6% artmışdır. Son 10 ildə ölkəmizə 16 mlrd. dollar investisiya cəlb edilmiş, 2013-cü ildə Azərbaycan iqtisadiyyatına 28 mlrd. dollar rekord səviyyədə sərmayə qoyulmuşdur.

Bütün bu tədbirlər milli iqtisadiyyatın inkişafına, xüsusilə ixrac potensialının güclənməsinə və s. məsələlərin inkişafına təkan vermişdir (İ.Əliyev - Regionların sosial-iqtisadi inkişafı dövtlər proqramlarının icrasına həsr olunmuş konfrans).

Hazırda Azərbaycanda reallaşan və planlaşdırılan böyük layihələr gələcəkdə iqtisadi potensialımızı gücləndirəcək, ixracat potensialımızı böyük həcmdə artıracaqdır.

Azərbaycan Respublikası son 20 ilin makroiqtisadi göstəricilərinə görə MDB məkanında liderdir. Bunu MDB-nin Dövlətlərarası Statistika komitəsi də təsdiqləyir. İnkişaf etməkdə olan ölkələr arasında önəmli yeri olan Azərbaycan Respublikası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət müstəqilliyi şəraitində həyata keçirilən uğurlu islahatlar nəticəsində qısa müddət ərzində iqtisadiyyatımız uğur qazanır və inkişaf edir. İqtisadi yüksəliş və sosial rifah sahəsində dünyada öncül ölkələrdəndir. 2016-cı ilin iyununun 14-də Respublikamızın BMT-nin iqtisadi və sosial şurasına böyük dəstəklə üzv seçilməsi bunu əyani şəkildə təsdiqləyir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi başlayıb. İndiki mərhələdə iqtisadiyyatın müasir texnologiyalar və innovasiyalar əsasında inkişafına nail olmaq, müasir tələblərə cavab verən iri istehsal və emal sahələri yaratmaq, elmi-texniki tərəqqinin naliyyətlərini istehsalata geniş tətbiq etmək, ixrac yönümlü məhsulların istehsalına diqqəti artırmaq qarşıya qoyulan başlıca vəzifələrdəndir.

Ölkəmizdə aparılan ardıcıl iqtisadi ilahatlar qlobal iqtisadi çağrışlara konseptual yanaşmalarla daha da təkmilləşdirməkdədir. Bu baxımdan ölkə başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyat soktoru üzrə strateji yol xəritəsi önəmlidir.

Xarici aspektlərin və məsləhətçi beynəlxalq mərkəzlərin iştirakı, beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində hazırlanmış strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını,2025-ci ilədək olan dövr üçün uzunmüddətli və 2025-ci ildən sonrakı dövrdə hədəf baxışı əhatə edir. Strateji yol xəritələrinin həyata keçirilməsində dövlət investisiyaları kataloq rolunu oynayacaq, iqtisadi inkişafın rolu isə özəl sektor olacaq.

İqtisadiyyat hər bir dövlətin inkişafının əsasını təşkil edir. Buna görə də ölkələr iqtisadiyyatın inkişaf etdirilməsinə xüsusi diqqət yetirirlər. İqtisadiyyatı zəif olan dövlət heç vaxt (zaman) güclü ola bilməz. Azərbaycanda da iqtisadiyyatın inkişafı üçün bütün imkanlar mövcuddur və iqtisadi inkişaf özünəməxus ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və dinamik iqtisadi inkişaf təmin edilmişdir. Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatın həlli tələb edilən vəzifələr ön plana çəkilmidir.

Ədəbiyyat

1. Şəkərəliyev A. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, 2016. Turxan, 536 s.
2. Kərimli İ., Süleymanov N. Milli iqtisadiyyatın əsasları. Bakı, 2001.
3. Qradov A.P. Milli iqtisadiyyat. İqtisad Universitetinin nəşriyyatı. Bakı, 2008, 232 s.
4. İbadoğlu Q. Azərbaycan iqtisadiyyatı. İqtisadi Tədqiqatlar Mərkəzi. Bakı – 2009.

Нозила АШУРОВА
Ташкентский государственный экономический университет,
старший преподаватель
an_nozik@mail.ru

ОСОБЕННОСТИ ПОДГОТОВКИ КАДРОВ В СФЕРЕ ТУРИЗМА И ГОСТЕПРИИМСТВА В УЗБЕКИСТАНЕ: ТРАДИЦИОННЫЙ И СОВРЕМЕННЫЙ ПОДХОДЫ

FEATURES OF TRAINING PERSONNEL IN THE FIELD OF TOURISM AND HOSPITALITY IN UZBEKISTAN: TRADITIONAL AND MODERN APPROACHES

Резюме: В статье рассматриваются вопросы, связанные с существующей системой подготовки кадров в сфере туризма и гостеприимства. В связи с активным развитием этой сферы экономики возникла необходимость в четком взаимодействии системы профессионального образования и рынка труда. Рассмотрены проблемы традиционных и современных подходов к обучению персонала и пути их решения. В традиционном подходе к обучению были определены такие базовые методы обучения, как обучение на рабочем месте и вне рабочего места. При современном подходе к обучению персонала были рассмотрены методы аутсорсинга и аутстаффинга, а также компетентностный подход.

Ключевые слова: *подготовка кадров, кадры, традиционный подход, современный подход, сфера, туризм, гостеприимство, специалисты*.

Abstract: The article discusses issues related to the existing system of training in the field of tourism and hospitality. In connection with the active development of this sector of the economy, the need arose for a clear interaction between the vocational education system and the labor market. The problems of traditional and modern approaches to personnel training and ways of their solution are considered. In the traditional approach to training, basic training methods such as on-the-job and off-the-job training have been defined. With the modern approach to personnel training, the methods of outsourcing and out staffing, as well as the competence approach were considered.

Keywords: *personnel training, personnel, traditional approach, modern approach, sphere, tourism, hospitality, specialists.*

В современных условиях индустрия туризма и гостеприимства является одной из крупнейших и быстрорастущих отраслей экономики. Во всей туристической индустрии первое место отводится туризму и гостеприимству.

К элементам сферы туризма и гостеприимства относятся услуги, направленные на удовлетворение потребностей (комфортные, мотивационные, содержательные, привлекательные).

Сфера туризма и гостеприимства включает в себя различные отрасли и виды деятельности, относящиеся к материальному производству и непроизводственной сфере. Как правило, выделяются такие составляющие сферы туризма и гостеприимства, как проживание, предоставление услуг, экскурсионные услуги, питание, лечение и оздоровление, досуг и развлечения.

Индустрия туризма – это межотраслевой экономический комплекс, основанный на создании туристского продукта, удовлетворяющего потребности населения.

Индустрия гостеприимства включает в себя множество различных сфер деятельности: ресторанный и гостиничный бизнес, туризм, научную или рекреационную деятельность, а также организацию международных мероприятий, таких как Олимпийские игры, международные футбольные турниры и т. д. Сфера гостеприимства должна представлять собой хорошо функционирующую инфраструктуру, включающую в себя всевозможные организации и объекты, обеспечивающие обслуживание и прием туристов, а также их досуг.

Понятие "гостеприимство" шире, чем понятие "туризм". Эти направления деятельности основаны на тезисе "гостеприимство", то есть лояльность к группе, которую должен иметь персонал. Поэтому уровень подготовки кадров по этим двум направлениям играет важную роль в обслуживании населения.

Подготовка кадров в сфере туризма и специалистов-это систематическая и организованная подготовка квалифицированных / содержащих средства, объекты и средства отдыха, общественного питания, а также объекты делового, оздоровительного, спортивного, познавательного назначения [4].

За последние несколько лет удалось добиться конкурентоспособности во многих сферах экономики развитых стран мира. Чрезвычайно актуальной проблемой является подготовка кадров в сфере туризма и гостеприимства в Узбекистане.



Рисунок 1. Факторы, влияющие на подготовку кадров в сфере туризма и гостеприимства

В сфере туризма и гостеприимства персонал проходит обучение на разных уровнях - от носильщиков и официантов до руководителя и менеджера отеля. Поскольку это связано с обслуживанием клиентов, необходимо, чтобы весь персонал составлял единое целое и подчинялся одним и тем же стандартам обслуживания.

Основные элементы подготовки кадров формируются как адаптивная, динамичная социально-экономическая система, обеспечивающая непрерывное совершенствование образования. Можно выделить группы факторов, влияющих на процессы обучения и практики персонала (рис. 1, 2).

На этапе развития туризма и гостеприимства в Узбекистане принято различать два подхода к подготовке специалистов в этой сфере: традиционный и современный.

Традиционный подход к подготовке кадров определяется системой образования, которая включает обучение в рамках высшего профессионального образования, а также в системе среднего профессионального образования, специализированных курсов и практико-ориентированных тренингов [2].



Рисунок 2. Факторы, влияющие на элементы практики подготовки специалистов в сфере туризма и гостеприимства

Традиционными методами обучения в Республике Узбекистан являются лекции, семинары, наставничество, выделяют также методы обучения вне рабочего места и методы обучения на рабочем месте (рис. 3, 4).



Рисунок 3. Традиционные методы обучения на рабочем месте



Рисунок 4. Методы обучения вне рабочего места

Обучение на рабочем месте - это практическая направленность, непосредственная связь с производственными функциями персонала. Методы обучения вне рабочего места дают возможность отвлекаться от ситуации на рабочем месте. Данное обучение помогает формировать новые поведенческие и профессиональные компетенции. Эти два методы не исключают друг друга, обучение на рабочем месте может проводиться с отрывом или без отрыва от работы. Они дополняют друг друга, т.к. обучение в процессе работы в большинстве случаев совмещается с обучением в учебных заведениях или других организациях.

К современному подходу подготовки персонала для предприятий туриндустрии и гостеприимства можно отнести аутсорсинг и аутстаффинг.

Аутсорсинг - передача на обслуживание не ключевых функций сторонней организации. Немногие современные руководители учитывают, какую выгоду можно получить, передав второстепенные для организации функции более профессиональному поставщику услуг. К примеру, передать на аутсорсинг кадровым агентствам оценку и подбор персонала. Сочетание самостоятельной работы и аутсорсинга - это интерсорсинг.

Аутстафинг - это метод, содействующий оптимизации определенных профессиональных навыков, знаний и опыта, пользующихся спросом при выполнения как краткосрочных, так и долгосрочных проектов при необходимости увеличения гибкости процесса приема сотрудников на временные и сезонные проекты.

Сегодня услуги аутсорсинга и аутстаффинга становятся обычным делом. Многие владельцы организаций и предприятий сферы туризма и гостеприимства не принимают в штат сотрудников, а приглашают для работы специалистов компании-провайдера: используют услуги горничных, официантов, хаускиперов, поваров, предпочитая не оформлять их в штат.

Развитие туризма в современных условиях нуждается и в необходимости применять более эффективные подходы к подготовке специалистов. В настоящее время это компетентный подход.

Миссия компетентного подхода - привести образование в соотношение с потребностями рынка труда. Современность данного подхода заключается в культуре самоопределения, т.е. способности и готовности само реализовываться, самоопределяться и само развиваться.

Будущему специалисту необходимо развивать в себе умения, которые помогли бы ему быстро приспосабливаться к изменяющейся ситуации на рынке труда и новым требованиям. Отличие компетентного специалиста от квалифицированного состоит в том, что компетент-

ный специалист владеет не только конкретными знаниями, навыками и умениями, но и может применять их в своей работе.

Использование компетентного подхода при обучении студентов заключается в сочетании традиционных форм (лекции, семинары) с современными активными методами обучения (кейс практики, деловые игры, мастер-классы, стажировки, презентации проектов). Именно такая подготовка и работа над проектами в группах способствуют применению методов моделирования и прогнозирования в профессиональной деятельности, разработке иных способов разрешения проблем и т.д. К примеру, в рамках изучения дисциплины «Управление персоналом организации» проводится практическое занятие по составлению должностных инструкций персонала.




Рисунок 6. Проблемы подготовки специалистов

Проблема недостатка квалифицированного персонала актуальна всегда для любых отраслей, а для быстро развивающейся сферы туризма и гостеприимства она является основной. И проблема эта сложнее, чем просто дефицит выпускников[1]. В настоящее время ситуация на рынке такова, что выпускники профильных учебных заведений не отвечают профессиональным требованиям, соответствующим международным стандартам. Сегодняшние специалисты имеют низкий профессиональный уровень, поэтому гостиницам и турфирмам, имеющим собственные программы подготовки специалистов, приходится заново обучать принятых на работу сотрудников. У молодых специалистов наблюдается недостаточная компетентность и отсутствие адаптационных навыков, которыми они должны обладать в развивающейся конкурентной среде [3].

По нашему мнению, учебным заведениям, выпускающих специалистов для отрасли туризма, требуется государственная поддержка, основное назначение которой - создать благоприятные условия для эффективного взаимодействия профильных учебных заведений.

Целью усовершенствования профессиональной подготовки персонала для предприятий туриндустрии и гостеприимства является создание устойчивого развития системы профессиональной подготовки кадров, которая соответствовала бы запросам и развитию личности, государства и общества в целом, что позволило бы повысить качество профессиональной подготовки специалистов в области гостеприимства и туризма.

На государственном уровне в области научного и кадрового обеспечения туризма и гостеприимства, по мнению авторов, необходимо расширить подготовку кадров для предприятий индустрии гостеприимства в системе профильного высшего и среднего специального образования и разработать программы повышения квалификации и переподготовки кадров работников туризма на базе учебных заведений и курсов.

К сожалению, многие образовательные программы вузов по туризму и гостиничному хозяйству не всегда в полной мере адаптированы к современным потребностям индустрии. Слабой стороной отечественного гостиничного образования является недостаточная практическая подготовка выпускников. Столичным вузам организовать производственную практику проще, чем аналогичным учебным заведениям, расположенным в регионах, где нет соответствующей материальной базы и не развита гостиничная инфраструктура [5].

Данные рекомендации направлены на достижение высокого уровня подготовки специалистов для туриндустрии и гостеприимства, отвечающих требованиям XXI века.

В заключение следует отметить, что сфера туризма и гостеприимства в Узбекистане является важной отраслью экономики и государство должно обращать больше внимания на его состояние и развитие. Специфика туристского образования заключается в его разносторонности, это сложный процесс, подверженный постоянной модернизации, что позволяет вводить инновационные программы и активнее использовать передовой зарубежный опыт для подготовки туристских кадров. По нашему мнению, необходимо создавать материальные, правовые и организационные условия для обеспечения мобильности студентов и преподавательского состава и развивать программы «двух дипломов» на уровне бакалавриата и магистратуры с признанными зарубежными вузами.

Литература

1. Беляцкий Н.П. Управление персоналом: учебник. Минск: Современная школа, 2012.
2. Гончаров В.В. В поисках совершенства управления: руководство для высшего управленческого персонала. М.: МП «Сувенир», 2013.
3. Кибанов А.Я. Новая концепция подготовки кадров в области управления персоналом // Вестник университета. 2012. №12.
4. Полевая М.В. Особенности подготовки кадров для индустрии туризма: отечественный и зарубежный опыт. М.: ООО «Технологии стратегического менеджмента», 2012.
5. Арифулин М.В., Морозова Л.С. Стратегия создания и развития транснациональных гостиничных цепей: монография. М.: Изд-во МГИИТ, 2012.

Qadir QAFAROV
Azərbaycan Texniki Universiteti, assistent
gadir.gafarov@aztu.edu.az

Cəmilə ATAKİŞİYEVA
Sabirabad Peşə Liseyi, müəllim
q.cemila1999@gmail.com

ANLAYIŞ XƏRİTƏLƏRİNİN TƏLİM STRATEGİYASI KİMİ SƏRİŞTƏƏSASLI MODULLARDA TƏTBİQİ İMKANLARI

POSSIBILITIES OF IMPLEMENTATION OF CONCEPT MAPS IN COMPETENT-BASED MODULES

ВОЗМОЖНОСТИ РЕАЛИЗАЦИИ КОНЦЕПЦИОННЫХ КАРТ В КОМПЕТЕНТНЫХ МОДУЛЯХ

Xülasə: Modul vəsaitlərin müasir standartlar standartlar əsasında tərtib olunması və mövzuların şərhinin tədqiqatçılıq prinsipi ilə verilməsi tədris prosesi zamanı yeni təlim strategiyalarının müəyyənləşdirilməsi problemini meydana çıxarmışdır. Məqalədə, sərişTəəsaslı modulların interaktiv tədrisi üçün anlayış xəritələrindən istifadəsi irəli sürülmüş və tətbiqi imkanları araşdırılmışdır.

***Açar sözlər**: təlim strategiyası, anlayışlar, anlayış xəritəsi, peşə təhsili, çarpaz əlaqələr.*

Abstract: The development of modular materials on the basis of modern standards and the interpretation of topics on a research basis has created the problem of defining new learning strategies in the teaching process. The article proposes the use of concept maps for interactive teaching of competency-based modules and explores their application.

***Keywords:** training strategy, concepts, concept map, vocational education, cross-links.*

Резюме: Разработка модульных материалов на основе современных стандартов и интерпретация тем на исследовательской основе создали проблему определения новых стратегий обучения в процессе обучения. В статье предлагается использовать концептуальные карты для интерактивного обучения модулям, основанным на компетенциях, и исследуется их применение.

***Ключевые слова:** стратегия обучения, концепции, концептуальная карта, профессиональное образование, перекрестные связи.*

Giriş

Günlük həyatda fərd tərəfindən görülən demək olar ki, bütün işlər ya yazılı formada ya da zehində qurulan strategiya çərcivəsində reallaşır. Strategiyanın qurulması planlaşdırılan işlərin arzu edilən anda və keyfiyyətdə ortaya çıxmasını təmin edir. Tez-tez rastlaşdığımız strategiya anlayışını müəyyənləşdirilən məqsədə çatmaq üçün izlənilən yol olaraq başa düşmək olar. Bu anlayış məhfum etibarı ilə pedaqoji sahədə də istifadə olunur. öyrənmə prosesi nöqteyi nəzərindən isə məqsədlənən bilik və bacarıqların çatdırılması üçün "izlənilən yol" olaraq başa düşmək olar. Təlim strategiyası ümumi yanaşma çərcivəsində olduqca geniş baxış bucağına malik olub, tədris mühiti üçün fəaliyyətlərin müəyyənləşdirilməsindən qiymətləndirmə prosesinə qədər olan bütün proseslərin istiqamə-

tini müəyyən edir. Başqa bir ifadə ilə təlim strategiyası tədris-təlimin mərhələlərində təhsilverənin və təhsilalanın rolunu müəyyən edən ümumi izlənilən bir yoldur.

Deyilən fikirlərdən yola çıxaraq təlim strategiyasını çatdırılması məqsədi qarşıyan qoyulmuş hədəflərin inkişaf etdirilməsinə yönəlmiş təlim metod və vasitələrini və mühit xüsusiyyətlərinin müəyyənləşdirilməsində rol oynayan ümumi baxış bucağı olaraq adlandıra bilərik. Təlim strategiyası ilə "təlim prosesi necə reallaşdır?" sualından hərəkətlə təhsilalanların hədəfə yetişməsi üçün lazım olan təlim mərhələlərinin kəsişməsi məqsədilə xarici faktorlar nizama salınır. Təlim strategiyasının mənbəyi təhsil qanunundan, modelindən və yanaşmalardan götürülür, digər tərəfdən isə metod, texnika və vasitələrin müəyyənləşdirilməsinə şərait yaradır. Təlim prosesinin hansı formada reallaşaçağına, təlim və tədris fəaliyyətində hansı məqamların yer ala biləcəyinə, təlimin hansı mərhələlərlə davam etdirilməsinə və hansı mühit, hansı növ kommunikasiya ilə qurulmasına seçilmiş strategiya ilə qərar verilir. Təlim prosesinin planlaşdırılması və bun planın tətbiqi formaya çevrilməsi strateji həmlələrə əsaslanaraq həyata keçirilir. Təlim prosesində məzmun xəttinin reallaşmasında müxtəlif yollar, digər bir ifadə ilə strategiyalar mövcuddur. Bu mənada strategiya seçdiyimiz yolun ümumi istiqamətini və sərhədlərini göstərir. Strategiyanın müəyyənləşdirilməsi ilə təhsilverən modullararası və modullarxarici fəaliyyətlərin ümumi olaraq hansı formada təhsilalanların bu fəaliyyətdəki yerini və təlim prosesinin ümumi strukturunu planlaşdırılmış olur. Peşə ixtisas fənlərinin və eyni zamanda ümumtəhsil fənlərinin tədrisdə inteqrativ prinsipin gözlənilməsi müəllimlərin və istehsalat təlim ustalarının riayət etməsi lazım olan addımlardan biri kimi çıxış etməlidir.

Hal-hazırda pedaqoji sahədə təlim strategiyasına dair yeni metod və vasitələr işlənib hazırlanır. Belə metodlardan biri də anlayış xəritələrindən istifadə edərək tədris mühitinin təşkilidir ki, bu metodun da peşə təhsil sistemində tətbiqi bir çox praktiki üstünlüyə malikdir. Peşə təhsilində təlim strategiyası kimi anlayış xəritələrini düzgün təşkil etmək və ondan çıxan nəticələri analiz etmək üçün analyış xəritələrinin mahiyyəti, sturukturu və tətbiq edilmə məqamları barəsində malumatlara sahib olmaq lazımdır [1].


Anlayış ifadəsi varlıqların və hadisələrin müəyyən xüsusiyyətlərini özündə cəmləşdirən və hər kəs tərəfindən eyni mənada qavranılan düşüncələrdir. Anlayışların sıralanması müəyyən qaydalar çərcivəsində reallaşır. Anlayışların yaratdığı hadisə və varlıqlar çox yaxın xüsusiyyətlər daşıyır. Misal üçün bitki, rəng, heyvan hər biri anlayış olduğu kimi bütün heyvanlar hərəkət edər, böyüyər, qidalanar kimi hər birinin təmsil etdiyi qrupun xüsusiyyətlərini bir-birinə bənzədir.

Anlayış ifadəsi müxtəlif tədqiqatçılar tərəfindən müxtəlif formada izah olunur. Ümumiləşdirib söyləsək, anlayış ifadəsi, insanın zehnində məna qazanan obyekt və ya vəziyyətlərin dəyişəbilən oxşar xüsusiyyətlərini təmsil edən bir iformasiya formasıdır. Başqa sözlə deyəs anlayış, obyekt və faktların insan zehnindəki canlanmasıdır, obyektiv reallığın insan beynindəki əksidir, hər hansı bir əşyanın şüurdakı ümumi və mücərrəd təsəvvürüdür. Anlayışlar qəmginlik, xoşbəxtlik, qorxu, sevgi kimi mücərrəd və ya rənglər, şəkillər kimi konkret olaraq iki kateqoriyada cəmləşdirilmişdir. Müşahidə vasitəsilə öyrənilməsi mümkün olan konkret anlayışların öyrədilməsi nisbət sadədir. Lakin müşahidə vasitəsilə öyrədilməsi az mümkün olan mücərrəd anlayışlar isə ifadə etmə və hiss etmə yolu ilə öyrədilir və buna görə də öyrədilməsi çətinləşir. Deyilən bu fikirdən tərif kimi söyləsək anlayış, birgə xüsusiyyətə malik əşya, hadisə, fikir və hərəkətlərin yaratdığı təsnifatlaşmanın mücərrəd nümunəsidir.

Anlayışlar əsasən hər kəs tərəfindən eyni mənada başa düşülür. Kiçik yaşlarda öyrənməyə başladığımız anlayışlarda hər kəs tərəfindən eyni mənada başa düşülməsinə rəğmən bəzən bu hər kəs tərəfindən düzgün qəbul edilən məlumatlar düzgün olmaya bilər. Belə hallarda bir anlayışın əsl mənasından fərqli mənada mənimsənilməsi anlayış yayınmasına səbəb olur.

Novak və Muson Ausubelin "təlim nəzəriyyəsi" üzərində araşdırma apardıqları zaman, ondan çıxan bir nəticə kimi anlayış xəritələrinin tədrisdə istifadəsini təklif etmişdirlər. Novak və Musonda (1991) anlayış xəritələrindəki kateqoriyalarının müxtəlif olduğunnu düşünürdülər. Belə ki, onlar bunun səbəbinin fərdin məlumatlar və düşüncə tərzindəki dərinlik və zənginliyin səbəb olduğunu qeyd etmişdir.

Bundan başqa anlayış xəritələrində iyerarxik strukturda təşkil olunmuş fərqli qruplararası əlaqəni göstərən "çarpaz əlaqələr"-də mövcuddur. Çarpaz əlaqələrin mövcudluğu fərdin fərqli anlayışlardan ibarət qrupları bir-biri ilə əlaqələndirərkən sintezləşdirmə qabiliyyətinin və yaradıcı düşüncə dərəcəsinin göstəricisi ola bilər. Çarpaz əlaqəli anlayış xəritəsinə şəkil 1-də qeyd olunan sxemi nümunə kimi göstərmək olar.



Şəkil 1. Çarpaz əlaqəli anlayış xəritəsi

Anlayış xəritələrinin səviyyəsi və xəritənin özündə ehtiva etdiyi anlayışların sayı tələbə faktorundan asılı olaraq dəyişə bilər. Elə əsas məqamlardan biri də budur. Müəllim tək bir xəritəni (nümunəvi xəritəni) diqqət mərkəzində saxlayaraq qiymətləndirmə aparmamalı və tələbələrin kəşf etmə bacarıqlarını məhdudlaşdırmamalıdır. Digər diqqət yetiriləsi məsələlərdən biri də anlayışlararası əlaqələrin düzgün qurulması və tələbələrin yaradıcıllıq qabiliyyətlərinin inkişaf etdirilməsi əsas məqsəd kimi çıxış etməlidir. Anlayış xəritələri yaradıcı öyrənmə mühiti ilə sıx əlaqəli olub, sahib olduğumuz məlumatlarla əlaqələrin qurulması bu anayışlar arasında fərqinə varılmayan əlaqələri nəzərə çatdırır. Bu baxımdan anlayış xəritələri yaradıcı fəaliyyətin "sönməsinin" qarşısını alır və bir növ onu qidalandırır [4,5,8].

1. Anlayış yayınmaları

Anlayış yayınması fərdin düzgün qəbul edib, bir çox bacarıq nümayiş etdirməsində mənbə olaraq istifadə etdiyi düzgün olmayan anlayışlar və qavramalardır. Anlayış yayınmaları təsadüfi edilən xətalardan fərqli xüsusiyyətlər göstərir. Fərd etdiyi xətanı kiçik xatırlatma ilə fərqinə vara və bu xətanı aradan qaldıra bilər. Lakin müəyyən anlayış yayınmasına sahib olan fərd bu səbəbdən dolayı xəta etdiyi və biri tərəfindən xəbərdarlıq edildiyi zaman ilk olaraq özünü müdafiyəyə başlaya bilər. Fərdi elmi baxımdan tam razı salınmadıqca, öz fikrinin müdafiəsini davam etdirəcəkdir.

Fisher və Lipson apardıqları tədqiqat işində anlayış yanınmalarının aşağıda qeyd olunan ortaq xüsusiyyətlər daşıdığını irəli sürmüşdürlər [1, 2].

1. Bir və ya bir qrup anlayış yayınması bir çox fərddə yarana bilər;
2. Anlayış yayınmaları özü ilə bərabər alternativ inanclar yarada bilər;
3. Bir çox anlayış yayınması ən azından ənənəvi metodlarla aradan qaldırılması çətindir;
4. Bəzi anlayış yayınmaları fərdin əvvəlcədən yaşadığı təcrübələrə istinadən yaranır;
5. Anlayış yayınmaları genetik əsasdan, müxtəlif səbəblərlə və məktəb mühitindəki tədrisdən yarana bilər;
6. Anlayış xəritələri məlumatların vizual yolla ötürülməsini təmin edən öyrənmə metoddur.

2. Anlayış xəritələrinin xüsusiyyətləri

Anlayış xəritəsinin fikir yürütmə, qiymətləndirmə, fikirlərin nizamlanması kimi bir çox tətbiq sahələri vardır. Bu gün pedaqoji fəaliyyətlərdə tətbiq edilməsi nəzərdə tutulan bir çox kompüter

proqramları mümkündür. Bu da məlumatların müxtəlif formalarda təqdim edilmə və qrafiklərlə anlayışlararası əlaqələri göstərən, anlayışları iyerarxik səviyyəyə uzlaşdıran üsuldur. Anlayış xəritələrlə əlaqədar müxtəlif tədqiqatcılar tərəfindən verilən təriflər cədvəl 1-də verilmişdir [1].

Cədvəl 1. Mənbələr

Mənbə	Tərif
Jonassen və həmkarları (1997)	Anlayış və anlayışlararası əlaqələrin göstərildiyi xəritələrdir.
Grasho (1996)	Anlayışların yaddaşda saxlanılmanın və effektiv öyrənmənin üsullarından biridir.
Maxwell (1996)	Anlayışları təsvir edən və onların arasındakı mövcud əlaqələri əks etdirən vizual vasitədir.
Miles-Huberman (1994)	Anlayışları və onların hansı növ iyerarxiyada mövcud olduğunu göstərən vasitədir.
Aderson-İnman və Horney (1996)	Fikirlər və məlumatlar arasındakı mövcud əlaqələri gösətərən təsvirlərdir (şəkillər).
Watters və Zhou (1999)	Bir çox məlumatı eyni anda və müvəffəqiyyətlə öyrənməsini təmin edən öyrətmə strategiyadır.

Anlayış xəritəsi fərdin (baxılan halda tələbənin) məlumat bazasını və düşünmə qabiliyyətini sxematik olaraq özündə ehtiva etdiyi üçün müəllimlərə tələbələrin biliklərini, anlayış yayınmalarını və xətalarını müəyyən etməkdə köməkçi olur və buna görə də tələbələrin öyrənmə səviyyələrini qiymətləndirilməsində də istifadə olunur.

Saines 2002-ci ildə analyış xəritələrinin tətbiqi məqsədlərini aşağıdakı formada sıralamışdır:

1. Yaradıcıllıq vasitəsi kimi: Eyni ilə beyin fırtınasında olduğu kimi tələbə anlayışları seçmək və əlaqələndirici ifadələri işlətməkdə sərbəstdir. Bunun vasitəsi ilə anlayış və əlaqələrin təyin edilməsi sadələşir.
2. Böyük mətnlərin hazırlama vasitəsi kimi: Xüsusilə kompüter proqramları vasitəsilə mürəkkəb mövzuları özündə ehtiva edən xəritələrdir.
3. Ünsiyyət vasitəsi kimi: Tələbə özünə məxsus anlayışları digər tələbə yoldaşları ilə bölüşür. Anlayış xəritəsi bütöv bir sinifin fikirlərini özündə cəmləşdirir. Alayış və əlaqələr müzakirə olunur və beləliklə korperativ (əməkdaşlıq) şəraitində öyrənmə təmin edilir.
4. Öyrənmə vasitəsi kimi: Novanın əsas məqsədi anlayış xəritələrinin öyrənmə vasitəsi kimi tətbiq etmək olmuşdur. Bu növ öyrənmə üsulu yeni məlumatların əvvəlcədən mənimsənilmiş məlumatlara inteqrasiya imkanını təqdim edir və anlayışlar arası əlaqələrə diqqət yetirir.
5. Problem həll etmə vasitəsi kimi: Təhsildəki problem həll etmə üsullarından (yollarından) biridir. Alternativ metodlardan istifadə edərək problem həll etmə bacarığınının qazanılmasını və inkişaf etdirilməsi üçün tədqiqat xarakterli tədris mühiti qurulur.
6. Qiymətləndirmə vasitəsi kimi: tələbələr yoxlama işlərində (KSQ və ya BSQ tipli yoxlamalar) özlərinə məxsus anlayış xəritələrini tərtib edirlər və ya mövcud anlayış xəritəsində verilmiş boşluqları doldururlar.

Nəticə

Aparılan təhlillər və araşdırmalarla aşağıdakı nəticələr əldə olunmuşdur:

1. Zəncirvari xəritələr asan başa düşülən olduğu üçün, qavramasında problem olan təhsilalanlarda tətbiqi daha məsləhətlidir.
2. Mətn əsasında və qrup formasında hər hansı bir informasiya vasitəsindən istifadə etmədən anlayış xəritələrinin tərtib edilmə üsulu da tədris prosesində tətbiq edilmişdir. Müəyyən edilmişdir ki, qrup formasında formalaşan anlayış xəritələri əsasən iyerarxik olmayan anlayış xəritələridir və çarpaz əlaqələr çoxluğu kifayət qədər olması görünmüşdür.

3. Təhsilalanlarda yaradıcıllığın artırılması, düşüncəsinin dərinləşməsi məqsədilə hər hansı bir informasiya mənbəsindən istifadə etmədən iyerarxik xəritələrin tərtib edilməsindən istifadə etmək mümkünlüyü qənaətinə gəlinmişdir.

4. Anlayış xəritələrinin tətbiqi ünsiyyət vasitəsi kimi təhsilalanlar arasında əlaqələrin qurulmasında effektiv olduğu, onlar arasında əməkdaşlıq və dinləmə bacarığının formalaşdırılmasında rol oynadığı müəyyənləşdirilmişdir.

5. İyerarxik olmayan xəritələrdə çarpaz əlaqələrin kifayət qədər olması həm zəngin məlumat mübadiləsi, həm də ilkin anlayışlarla rabitənin yaradılması təmin olunur.

Peşədə tədris olunan ixtisas fənlərinin birində anlayış xəritələrindən istifadə edərək təlim strategiyası tətbiq edilmişdir. Tədris prosesində iyerarxik, iyerarxik olmayan, zəncirvari anlayış xəritələri tətbiq edilərək, bu xəritələrin strukturunun təhsilalanlar tərəfindən qavranılma prosesi analiz edilmişdir.

Ədəbiyyat

1. Qafarov Q.A. "Peşə təhsilində düzgün təlim strategiyasının müəyyənləşdirilməsi: Anlayış xəritələrinin tətbiqi" Azərbaycan Məktəbi Elmi-nəzəri, Pedaqoji jurnal, 2019. №3/687.
2. Fisher K.M., & Lipson J.I. (1986). Twenty questions about student errors. Journal of Research in Science Teaching, 23(9), 783–803.
3. Ausubel, D.P. (1968). The Psychology of Meaningful Verbal Learning. New York: Grune & Stratton, Inc.
4. Novak, J.D. (1998). Learning, creating, and using knowledge: Concept maps as facilitative tools in schools and corporations. Mahwah, NJ: Lawrence Erlbaum & Associates.
5. Novak, J.D. (1998). Learning, Creating and Using Knowledge: Concept Maps as FacilitativeTools in Schools and Corporations. Mahwah, New Jersey, London: Lawrence Erlbaum Associates, Publishers.
6. Qafarov Q.A., Rzayeva A.H. "Peşə təhsilində fizika fənninin müasir tədris metodikası: PhET simulyasiya platformu" Azərbaycan məktəbi jurnalı, 2019, № 2. 117-125 s.
7. Ault, R.A., Jr. (1985). Concept mapping as a study strategy in earth science. Journal of College Science Teaching, 15 (1), 3.
8. Novak, J.D. (1998). Learning, creating, and using knowledge: Concept maps as facilitative tools in schools and corporations. Mahwah, NJ: Lawrence Erlbaum & Associates.
9. Qafarov Q. (2020) Peşə ixtisas fənlərinin mənimsənilməsinə anlayış karikaturalarının təsiri. «Azərbaycan məktəbi». № 1 (690), səh. 149-162.
10. Heinze-Fry, J.A., və Novak, J. D.(1990). Concept mapping brings long-term movement toward meaningful learning. Science Education, 74 (4) 461-472.
11. Qadir Qafarov "Peşə-ixtisas fənlərinin tədrisində anlayış xəritələrindən istifadə" Peşə təhsili və insan kapitalı. Cild 3, №4, 2020 səh. 94-100.

Mehriban YADULLA
Bakı Dövlət Universiteti
iqtisad elmləri namizədi,dosent
mehribanyadulla@gmail.com

EKONOMİKS – ARAŞDIRILMASI VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİNİN ƏSASLANDIRILMASI

ECONOMICS – IS A SCIENCE FIELD ABOUT EFFECTIVE USE OF LIMITED RESOURCES

ЭКОНОМИКА - ЭТО ОБЛАСТЬ НАУКИ ОБ ЭФФЕКТИВНОМ ИСПОЛЬЗОВАНИИ ОГРАНИЧЕННЫХ РЕСУРСОВ

Xülasə: Məqalədə iqtisadi nəzəriyyənin predmetinin inkişafında ayrılan üç mərhələdən biri olan ekonomikslə bağlı uzunmüddətli tarixi inkişafın araşdırılması və onların yaranmasının səciyyəvi xüsusiyyətlərinin əsaslandırılması nəzərdən keçirilir. Tədqiqatın metodologiyası - sistemli yanaşma və müqayisəli təhlil metodları. Tədqiqatın nəticələri –Ekonomikslə bağlı klassiklərin əsərləri və tədqiqatları üzrə yeni elmi-nəzəri əsaslandırmalar zəminində uyğun gələn təkliflərin irəli sürülməsi. Tədqiqatın məhdudiyyətləri - elmi-nəzəri əsaslar baxımından daha geniş araşdırmalar tələb olunur. Tədqiqatın praktik əhəmiyyəti – siyasi iqtisadın diqqət mərkəzində sərvət yox, ictimai istehsal prosesi dayanmalıdır. Onda qiymət nəzəriyyəsi dəyər nəzəriyyəsini, istehsal faktorları nəzəriyyəsi əmək nəzəriyyəsini, konkret situasiyaların təhlili nəzəri abstraksiyanı sıxışdırmayacaq.Tədqiqatın orijinallığı və elmi yeniliyi –siyasi iqtisadın klassiklərinin fikirlərini araşdırılması üzrə spesifikliyi ilə fərqlənən ilkin elmi-tədqiqat əsaslandırmalarından biri kimi çıxış etməsi.

Açar sözlər: *siyasi iqtisad, xremastika, merkantilistlər, dəyər nəzəriyyəsi, əmək nəzəriyyəsi, ortodoksal marksist siyasi iqtisad.*

Abstract: The article discusses three stages divided in the development of the subject of economic theory: the research about long-term historical development related to economy, political economy and economics and justification of typical features of their emergence. The methodology of the research - systematic approach and comparative analysis methods. The results of the research – Setting forth offers that fit in the background of innovative scientific-theoretical justifications based on the works and the researches by classical political economists. Limitations of the research – more extensive investigations are required in terms of scientific-theoretical grounds. Practical significance of the research – public production process must stand in the focal point of political economy, not wealth. Then price theory won't drive out value theory, theory of production won't drive out labor theory, and analysis of specific situations won't drive out abstraction theory. Originality and scientific innovation of the research – presented as one of the initial scientific-research justifications varied with its specificity for the investigation of classical political economists' ideas.

Keywords: *political economy, chremastics, mercantilist, value theory, labor theory, orthodox Marxist political economy.*

Абстракт: В статье рассматриваются три этапа, разделенных в развитии предмета экономической теории: исследование долгосрочного исторического развития, связанного с экономикой, политической экономией и экономикой, и обоснование характерных черт их

возникновения. Методология исследования - системный подход и методы сравнительного анализа. Результаты исследования - Изложение предложений, которые укладываются в основу новаторских научно-теоретических обоснований, основанных на работах и исследованиях классических политэкономов. Ограничения исследования - необходимы более обширные исследования с точки зрения научно-теоретического обоснования. Практическое значение исследования - процесс общественного производства должен стоять в фокусе политической экономии, а не богатства. Тогда теория цен не вытеснит теорию стоимости, теория производства не вытеснит теорию труда, а анализ конкретных ситуаций не вытеснит теорию абстракции. Оригинальность и научная новизна исследования, представленного как одно из первоначальных научно-исследовательских обоснований, различались в зависимости от своей специфики для исследования идей классических политэкономов.

***Ключевые слова**: политическая экономия, хремастика, меркантилист, теория ценностей, теория труда, ортодоксальная марксистская политическая экономия.*

XIX əsrin ikinci yarısında iqtisadi elmin ümumi paradiqmasının dəyişilməsi üçün zəminlər formalaşır. Kapitalizm inkişaf etmiş ölkələrdə qəti olaraq təsdiqini tapırdı. Siyasi iqtisadın ümumi prinsiplərinin işlənməsi iqtisadi praktikanın müxtəlif problemlərinin tədqiqi ilə əvəzləşdirilir, kəmiyyət təhlili keyfiyyətli təhlillə sıxışdırılır. Müəlliflər məhdud resursları optimallaşdırmağa çalışır, bunun üçün son həd nəzəriyyəsini, differensial və inteqral hesablamaları geniş tətbiq edirlər. Iqtisadi məqalələrin səhifələri müxtəlif bazar situasiyalarını təsvir edən riyazi əmsal və qrafiklərlə doldurulur. Yeni tendensiyalar elmin özünün adının dəyişdirilməsində təcəssüm olunur. "Siyasi iqtisad" (political economy) "ekonomiks" (economics) anlayışı ilə sıxışdırılır (XX əsrdə Qərbdə siyasi iqtisad dedikdə, bütövlükdə iqtisadi nəzəriyyə yox, iqtisadi siyasətin iqtisadi elmin sərbəst sahəsi kimi təhlili başa düşülürdü). Ekonomiks dedikdə, insanlar tərəfindən müxtəlif əmtəə və xidmətlərin istehsalı, onların bölgüsü və istehlak məqsədilə cəmiyyətin üzvləri arasında mübadiləsi üçün məhdud resurslardan istifadə haqqında analitik elm başa düşülür.

Yeni terminin yaranması neoklassik istiqamətin banilərindən olan-ingilis iqtisadçısı **Alfred Marşallın** (1842-1924) adı ilə bağlıdır. 1890-cı ildə onun "İqtisadiyyatın prinsipləri" əsəri işıq üzü görür, burada da təhlilin əsas predmeti dəyər nəzəriyyəsi yox, qiymət nəzəriyyəsi olur. Qiymətqoyma mexanizmi tələb və təklifin nisbəti kimi baxılır. Tələb nəzəriyyəsinin əsasına A.Marşall marjinalizmi-son həd faydalılığı haqqında təlimi qoymuşdur, bu da U.Cevonsun, K.Mengerin, E.Bem-Baverkin, F.Vizerin, L.Valrasın və başqalarının əsərlərində inkişaf etdirilmişdir; təklif nəzəriyyəsinin əsasına isə-istehsal faktorları nəzəriyyəsini qoymuşdur ki, bu da sonralar C.B.Klarkın son həd məhsuldarlılıq nəzəriyyəsi ilə tamamlanmışdır. Əgər siyasi iqtisadın klassikləri hər şeydən əvvəl, obyektiv qanunauyğunluqları aşkara çıxarmağa çalışırdılarsa, A.Marşall təsərrüfat subyektlərinin subyektiv qiymətləndirilməsindən çıxıış edirdi ("seçim azadlığı").

Keynisçilik- A.Marşalın nəzəriyyəsi inhisarların fəaliyyətindən faktiki olaraq mücərrədləşmişdi. XX əsrin 20-30-cu illərindəki iqtisadi böhranlardan, xüsusən, 1929-33-cü illərin Böyük Depressiyasından sonra inhisarların qiymətqoymaya təsirini hiss etməmək mümkün deyildi. 1933-cü illərdə E.Çemberlinin "İnhisarçı rəqabət nəzəriyyəsi" və C.Robinsonun "Qeyri-təkmil rəqabətin iqtisadiyyatı" əsərləri çap olundu ki, burada da inhisarçı qiymətqoymanın mexanizmi tədqiq olunur.

Amma iqtisadi nəzəriyyədə əsil inqilab Con Meynard Keynsin (1883-1946) 1936-cı ildə çap olunan "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" əsəri oldu. Qərb iqtisadi düşüncəsində makrotəhlilin problemlərini diqqət mərkəzinə gətirən yeni istiqamət – keynsçiliyin yaranması onun adı ilə bağlıdır. Belə yanaşma nəinki obyektiv reallığın iqtisadi nəzəriyyədə daha dərin əks olunmasına səbəb oldu, həm də normativ aspekti pozitiv aspektdən əhəmiyyətli dərəcədə asılılığa gətirdi.

Keyns neoklassik təlimin bəzi əsas postulatlarından, xüsusən bazarın ideal özünü tənzimləyən mexanizm kimi baxılmasından imtina edir. Keynsin nöqteyi-nəzərincə, bazar səmərəli tələbi təmin edə bilməz, ona görə də, onu kredit-pul və büdcə siyasəti vasitəsilə dövlət stimullaşdırmalıdır. Bu siyasət xüsusi investisiyaları və istehlak xərclərinin artımını elə təşviq etməlidir ki, milli gəlirin daha sürətli artımına gətirib çıxarsın. Keyns nəzəriyyəsinin praktiki olaraq yönəldilməsi müharibədən

sonrakı illərdə ona geniş şöhrət gətirdi. "Keynsçi reseptlər" qarışıq iqtisadiyyatın və "ümumi rifah dövləti" nəzəriyyəsinin ideoloji proqramına çevrildi.

XX əsrin 50-ci illərinin əvvəllərindən yeni keynsçilər (R.Harrod, Y.Domar, E.Hansen və s) iqtisadi dinamika problemlərini, və hər şeydən əvvəl, artım templəri və faktorlarını fəal surətdə inkişaf etdirir, məşğulluq və inflyasiya arasında optimal nisbəti tapmağa çalışırlar. Üzvü olaraq, bazar və dövlət tənzimlənmə metodlarını birləşdirməyə cəhd göstərən P.E.Samuelsonun "neoklassik sintez" konsepsiyası da buna istiqamətlənmişdir. Postkeynsçilər (C.Robinson, P.Sraffa, N.Kaldor və s) XX əsrin 60-70-ci illərində keynsçiliyə D.Rikardonun ideyalarını əlavə etməyə cəhd etdilər. Yeni rikardoçular gəlirlərin daha bərabər bölgüsü, bazar rəqabətinin məhdudlaşdırılması, inflyasiya ilə səmərəli mübarizə üçün tədbirlər sisteminin aparılması uğrunda çıxış edirlər.

Amma XX əsrin 70-ci illərində keynsçilikdə ümidsizlik dövrü başladı. Təklif olunan "reseptlər" həm inflyasiyanın güclənməsinin, həm də istehsalın enişinin və işsizliyin artmasının dayandırılması üçün yetərli olmadı.

Keynsçi paradiqma neoklassik nəzəriyyəni tam sıxışdıra bilmədi. Hər iki paradiqmanı neoklassik sintez formasında birləşdirmək cəhdi uğurla nəticələnmədi, belə ki, bütövlüyü ilə seçilmirdi; o, makroiqtisadi proseslərin təhlili zamanı mikroiqtisadiyyatı inkar edirdi. Bundan başqa, XX əsrin 70-80-ci illərində neoklassikanın yeni istiqamətləri (monetarizm, yeni klassik iqtisadiyyat, ictimai seçim nəzəriyyəsi) keynsçiliyi nəzərə çarpacaq qədər sıxışdırırdı.

Monetarizm. İlk "həmləni" monetaristlər başladı. Monetarizm, bütövlükdə klassik liberalizm kimi, bazara özünü tənzimləyən sistem kimi baxır və dövlətin iqtisadiyyata həddən ziyadə müdaxiləsinə qarşı çıxır. Bu istiqamətin əsas xüsusiyyəti tədavüldə olan pul kütləsinə həddən artıq diqqət idi ki, bunu da monetaristlər iqtisadiyyatın inkişafının həlledici amili hesab edirlər. Tənqidin əsas bəndləri iqtisadi siyasətin əsas məsələləri oldu (inflyasiya, məşğulluq siyasəti və s.problemlər). Bu tənqidin ilkin zəminləri Milton Fridmen (1912-2006) tərəfindən "Pozitiv iqtisadiyyat haqqında qeydlər" (1953), "Kapitalizm və sərbəstlik" (1962) və sonralar, Roza Fridmenlə birlikdə yazdığı "Seçim azadlığı" (1979) əsərlərində dürüstləşdirildi.

Onun metodologiyası rasionalimlə (düşüncə) empirizmi (təcrübə) barışdırmağa cəhd edən neopozitivizm idi. Nəzəriyyənin əsasında, Fridmanın fikrincə, mücərrəd hipoteza dayanır ki, bundan da empirik olaraq yoxlanılmış nəticələr yaranır. Əgər bunlar təcrübə ilə təsdiq olunursa, onda nəzəriyyə həqiqi hesab olunur, əks halda, yox. Keynsçilərin praktiki təklifləri tənəzzülə uğradığından, onların nəzəriyyəsi də kənarlaşdırılmalı idi. Amma belə aqibət monetarizmi də gözləyə bilər, belə ki, bu nəzəriyyə çoxsaylı təsdiqlənmələrdən asılı vəziyyətdədir, və həmişə ona zidd olan faktlar tapmaq olar. Bunu etmək o qədər də çətin deyil, belə ki, monetaristlərin bir çox zəminləri qeyri-realist xarakter daşıyır (təkmil rəqabət, qiymətlərin çevikliyi, iqtisadi informasiyanın tamlığı, milli gəlirin artımının pul kütləsinin artım tempindən asılılığı və s.).

Yeni klassik iqtisadiyyat. Əgər keynsçilərin diqqət mərkəzində səmərəli tələb dayanırsa, onların tənqidçiləri əsas diqqətlərini əmtəə və xidmətlərin təklifinə yönəldirlər. XX əsrin 70-ci illərində hətta xüsusi istiqamət-təklifin iqtisadiyyatı formalaşdı (A.Laffer, C.Gilder, M.Evans, M.Feldstayn və s.). Onların fikrincə, iqtisadiyyatın sağlamlaşdırılması üçün vergilərin azaldılması və korporasiyalara güzəştlərin verilməsi zəruridir. Belə şəraitdə dövlət büdcəsi defisitinin azaldılması iqtisadiyyatın sağlaşmaldırılmasına səbəb olacaq.

Yeni klassik iqtisadiyyatın və ya neoklassik iqtisadiyyatın aparıcı istiqamətlərinin nümayəndələri (C.Mut, R.Lukas, T.Sardjent, N.Uolles, R.Barro və s.) makroproblemlərin təhlili əsasında vahid mikroiqtisadi əsasların yekunlaşdırılması yolu ilə daha tam nəzəriyyə qurmağa çalışdılar. Onların diqqət mərkəzində əldə olunan informasiyanın səmərəli istifadəsi sayəsində dəyişkən təsərrüfat konyukturasına sürətlə uyğunlaşa bilən iqtisadi agentlər dayanırdı (rasional gözləntilər nəzəriyyəsi). Hər bir fərd dəyişkən dünyaya düzgün uyğunlaşa bilməyə qadir olduğundan, dövlətin iqtisadiyyata müdaxiləsi zərurəti kənarlaşdırılır.

Buna baxmayaraq, yeni klassiklər informasiyanın yığılması və işlənməsinə zəruri olan zaman amilini, həmçinin, müxtəlif subyektlərin malik olduğu informasiyaların əldə olunmasının müxtəlif imkanlarını düzgün qiymətləndirmirlər. Belə alınır ki, evdar xanım iqtisadi informasiyanın işlənmə-

sinə və qeyri-müəyyənlik faktorunun aşılmasına peşəkar iqtisadçılar və ixtisaslaşmış dövlət müəssisələrinə nisbətən daha çevikdir.

İctimai seçim nəzəriyyəsi. Bu çatışmazlığı XX əsrin 50-60-cı illərində formalaşan ictimai seçim nəzəriyyəsinin tərəfdarları: C.Byukenen, Q.Tallok, M.Olson, D.Müller, R.Tollison, U.Nickanen və başqaları aradan qaldırmağa çalışdı. Keynsçiləri tənqid edərək, bu nəzəriyyənin nümayəndələri iqtisadiyyata dövlət müdaxiləsinin səmərəliliyini şübhə altına qoymuşlar. Tədricən, klassik liberalizm prinsiplərini və marjinal analiz metodlarını istifadə edərək, onlar , ənənəvi olaraq, politoloqların, hüquqşünas və sosioloqların fəaliyyət sahəsi hesab edilən sahəyə fəal surətdə müdaxilə etdilər ki, bu da iqtisadi imperalizm adını aldı. Dövlət tənzimlənməsini tənqid edərək, ictimai seçim nəzəriyyəsinin nümayəndələri təhlil obyektini kredit-pul və maliyyə tədbirlərinin iqtisadiyyata təsirini deyil, hökumət qərarlarının qəbulu prosesini təhlil obyekti etmişlər.

Onların əsas zəminləri ondan ibarətdir ki, insanlar öz şəxsi maraqlarına görə siyasi sahədə fəaliyyət göstərirlər, və biznes və siyasət arasında heç bir keçilməyən sərhəd yoxdur. Ona görə də, bu məktəbin nümayəndələri qayğısı ancaq ictimai maraqlar olan dövlət haqqında əfsanəni ifşa edirlər. Beləliklə, ictimai seçim nəzəriyyəsi fərdiyyəçilik prinsipini daha ardıcıl olaraq aparmağa cəhd etdi, onu təkcə kommersiya fəaliyyətinə deyil, həm də dövlətə şamil etdi.

Amma ictimai seçim nəzəriyyəsi də bütövlükdə neoklassik paradiqmanın məlum mücərrədliyini və hər şeydən əvvəl, onun tarixdən kənar xarakterini aşa bilmədi.

Son illərdə institusional tədqiqatlara maraq artmışdır. Qismən bu ekonomiks üçün xarakterik olan bir sıra şərtlərə (tam səmərəlilik, təkmil rəqabət aksiomları, ancaq qiymət mexanizmi vasitəsilə tarazlığın yaranması və s.) məhdudiyyəti aşmaq və müasir iqtisadi, sosial və siyasi prosesləri kompleks və hərtərəfli nəzərdən keçirmək cəhdi ilə, qismən isə, ETT dövründə baş verən halları təhlil etmək cəhdi ilə əlaqədardır, belə ki, bunlara ənənəvi təhqiqat metodlarının tətbiqi arzu olunan nəticəni vermir. Ona görə də, əvvəlcə neoklassik nəzəriyyənin şərtlərinin onun daxilində necə inkişaf etdiyinə nəzər salaq.

Qeyri-institusionalistlər üçün ümumi olan aşağıdakı müddəalar var: birincisi, sosial institutlar əhəmiyyətə malikdir və ikincisi, onlar mikroiqtisadiyyatın standart alətlərinin köməyilə təhlil olunurlar. 1960-70-ci illərdə Amerika iqtisadçısı Q.Bekkerin (1930) «iqtisadi imperializmi» peyda oldu. Məhz bu dövrdə iqtisadi anlayışlar: maksimallaşma, tarazlıq, səmərəlilik, təhsil, ailə münasibətləri, səhiyyə, cinayətkarlıq, siyasət və s. kimi iqtisadiyyat üçün qarışıq sahələrdə fəal tətbiq olunmağa başladı. Bu ona gətirib çıxartdı ki, neoklassik baza iqtisadi kateqoriyaları daha dərin interpretasiya və daha geniş sferada tətbiqini tapdı.

Müasir nəzəriyyədə institut dedikdə, cəmiyyətdə «oyun qaydaları» və ya «insan tərəfindən yaradılan» məhdud çərçivələr başa düşülür ki, bunlar da insanlar arasında qarşılıqlı münasibətləri, həmçinin, onların yerinə yetirilməsini təmin edən tədbirlər sistemi təşkil edir. Onlar insanları qarşılıqlı fəaliyyətə vadar edən struktur yaradır, gündəlik həyatı təşkil edərək, qeyri-müəyyənliyi azaldırlar.

Aşağıda cəmiyyət, institutlar və iqtisadiyyat arasınada qarşılıqlı əlaqəlin sxematik təsviri verilmişdir:

Cəmiyyət İnstitutlar İqtisadiyyat

Institutlar formal (məs. ABŞ Konstitusiyası) və qeyri-formal (məsələn, sovet «telefon hüququ») kimi təsnifatlandırılır:

Qeyri-formal institut dedikdə, ümumi qəbul olunmuş şərtilik və insanların davranışının etik qaydaları başa düşülür. Bu-adətlər, «qanunlar», vərdişlər və ya normativ qaydalardır ki, bunlar da insanların sıx birgə mövcudluğunun nəticəsidir. Onların sayəsində insanlar ətrafdakıların nə istədiyini asanlıqla öyrənir və bir-birlərini yaxşı anlayırlar. Bu davranış kodekslərini mədəniyyət formalaşdırır.

Formal institut dedikdə**,** xüsusi olaraq buna müvəkkil edilmiş insanlar tərəfindən (dövlət məmurları) yaradılan və müdafiə olunan qaydalar başa düşülür.

Cəmiyyət inkişaf etdikcə həm formal, həm də qeyri-formal qaydaların, həm də qayda və məhdudiyyətlərin icra olunmasına məcburiyyətin üsul və səmərəliliyinin dəyişilməsi mümkündür.

Formal qaydalarda dəyişiklər (və ya onlara riayyət olunmasını təmin edən mexanizmlərdə) adətən kifayət qədər əhəmiyyətli resurs məsrəflərini tələb edir.

Iqtisadi subyektlər öz istedad və biliklərini həm əsas, həm də aralıq təşkilatların yaradılması vasitəsilə sərfəli imkanların axtarışına yönəldə bilər, bu da iqtisadi və siyasi sahələrdə fəaliyyət göstərə bilər. Əsas odur ki, onlar tələb olunan dəyişiklər formal qaydalarda təmin etsinlər. Iqtisadi dəyişiklər kifayət qədər sürətlə baş verə bilər (inqilab və ya nailiyyət dövründə olduğu kimi). Qeyri-formal qaydalara gəldikdə isə, onlar tədricən baş verir. Burada dəyişiklərin tempi tam başqadır, əsas rolu mədəniyyət, təsadüf və təbii seçim oynayır.

Yeni və köhnə, formal və qeyri-formal qaydaların toqquşması nəticəsində institutların yaranmasının müxtəlif variantları mümkündür.

Institusionalist dəyişiklərdə təşkilatlar mühüm rol oynayır. Təşkilatlar sözün geniş mənasında- hər hansı bir məqsədə bir yerdə nail olma səyi ilə birləşmiş insanlar qrupudur. Gəliri maksimallaşdırmaq məqsədini güdərək, təşkilatlar və onların rəhbərləri institusional dəyişiklərin istiqamətini formalaşdırır. Dəyişiklərin iki əsas strategiyası mövcuddur: biri mövcud məhdudiyyət yığımı çərçivəsində aparılır, digəri isə, məhdudiyyətlərin özünün dəyişilməsini tələb edir .

Səmərəli qaydalar, sözsüz ki, uğursuz hərəkətləri təcrid edən və uğurluları müdafiə edənlərdir. məhz onlar iqtisadi artıma səbəb olur.

Amma təbii ki, sual yaranır: nə üçün qeyri-səmərəli formalar saxlanılır? Fəaliyyətin davamlı aşağı parametrləri ilə iqtisadiyyatların yaşamasını hansı amillər təmin edir? Yeni təsərrüfat formalarının təcrid olunmasına səbəb nədir? Əvvəlki inkişafın trayektoriyasının rolu nə qədərdir? Ancaq təsadüfü hadisələrlə qeyri-səmərəli texnologiyalar və təsərrüfatçılıq formaları kifayət qədər tərəfdar tapır?

İnstitusional sistem istənilən iqtisadiyyatda təşkilatlar üçün həm məhsuldar, həm də qeyri-məhsuldar stimullar yaratdığından, milli iqtisadiyyat müxtəlif inkişaf meyllərinin birləşməsini əks etdirir. Əgər əks əlaqə yarımçıq, transaksion xərclər böyükdürsə, onda inkişafın istiqaməti oyunçuların subyektiv modelləri ilə formalaşacaq. Burada müxtəlif institusional məhdudiyyətlər və özünəməxsus institusional fəndlər müəyyən edilir. Bütün bu sualları Amerika iqtisadçısı Duqlas Nort (1920) özünün «İnstitutlar, iqtisadiyyatın fəaliyyətinin institusional dəyişikləri» əsərində qarşıya qoyur .

Beləliklə - institusionalizm ilə bağlı strategiyanın təkmilləşdirilməsinin elmi əsaslandırmaları təhlil edərkən belə nəticə hasil olunur ki, institutlar insanlar arasında qarşılıqlı münasibətləri, həmçinin, məhz onların yerinə yetirilməsini təmin edən tədbirlər sistemi kimi çıxış edirlər. Onlar insanları qarşılıqlı fəaliyyətə vadar edən struktur yaradır, gündəlik həyatı təşkil edərək, qeyri-müəyyənliyi azaldırlar

Nəticə.

Iqtisadi nəzəriyyənin inkişafı dövründə onun predmeti dəfələrlə müəyyənləşdirilmişdir. Merkantilistlər onun predmeti kimi, xarici ticarət və ölkəyə pul axını ilə bağlı olan fəaliyyəti hesab edirdilər. Siyasi iqtisad klassikləri ona sərvət haqqında elm kimi baxırdılar. Tarixi məktəbin nümayəndələri onu insanların gündəlik fəaliyyəti haqqında elm kimi müəyyən edirdilər. Marksistlər ictimai istehsalı, istehsal qüvvələrinin və istehsal münasibətlərinin dialektikasını tədqiq edərək, belə bir nəticəyə gəlmişlər ki, siyasi iqtisad insan cəmiyyətinin inkişafının müxtəlif pillələrində həyat rifahlarının istehsalı, bölgüsü, mübadiləsi və istehlakını idarə edən qanunları, bu inkişafın iqtisadi qanunauyğunluqlarını öyrənir. Marjinalistlər və neoklassiklər bu fəaliyyəti bazar iqtisadiyyatı şəraitində nadir (məhdud) resurslardan istifadə ilə əlaqələndirirdilər. Keynsçilər buna dövlətin iqtisadi siyasətinin öyrənilməsi və formalaşması zəruriliyini əlavə etdilər, institusionistlər bu siyasətin sosial aspektlərinə diqqət yetirdilər. Bununla belə, iqtisadi nəzəriyyə sistemlərin tarixi xüsusiyyətlərini aşkara çıxartmağa, dünya sivilizasiyasının inkişaf qanunauyğunluqlarını anlamağa imkan verir.

Ədəbiyyat

1. Матвеева Т.Ю., Никулина И.Н. Основы экономической теории. М.: Дрофа. 2013. стр.243
2. Автономов В.С. Человек в зеркале экономической теории. М.: Наука,1993. стр.80
3. Нуреев Р.М. Предмет политической экономии и основные черты ее метода. М.МГУ. 2017. стр.121 və s.

Dilarə ƏMİRASLANOVA
Sumqayıt Dövlət Universiteti,
i.ü.f.d., müəllim
dilare.amiraslanova@mail.ru

MÜASİR ŞƏRAİTDƏ MÜƏSSİSƏNİN İDARƏ OLUNMASINDA KADR POTENSİALININ ROLU

THE ROLE OF PERSONNEL POTENTIAL IN THE MANAGEMENT OF ENTERPRISES IN MODERN CONDITIONS

РОЛЬ КАДРОВОГО ПОТЕНЦИАЛА В УПРАВЛЕНИИ ПРЕДПРИЯТИЕМ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Xülasə: Müasir dövrdə müəssisələrin fəaliyyətində kadrların rolunun artması insan amilinin, onun intellektual yaradıcı funksiyasına olan zəruri tələbatdan irəli gəlir. Kadr potensialının müəssisə və təşkilatların həyatında müstəsna əhəmiyyəti vardır. Bu baxımdan müəssisədaxili səmərəliliyi təmin etmək və bunu ümumi keyfiyyətin yüksəldilməsinə doğru istiqamətləndirmək ən öndə vəzifələrdəndir.

Tezisdə heyətin idarə edilməsinin iqtisadi, sosial, hüquqi, təşkilati və psixoloji məsələlərinə baxılmış, kadr siyasətinin əsas məqsədləri və istiqamətləri müəyyənləşdirilmiş, kadr potensialının məqsədəuyğun idarə edilməsi üzrə tövsiyələr verilmişdir.

Açar sözlər: *idarəetmə, kadr potensialı, əmək fəaliyyəti, işçi qüvvəsi, müəssisə.*

Abstract: The growing role of the personnel in modern enterprise is based on the necessity of the human factor and its intellectual creative function. Personnel potential is crucial in life of enterprises and organizations. In this regard, it is one of the top priorities to ensure intra-enterprise efficiency and direct it to overall quality improvement.

The article examines economic, social, legal, organizational and psychological issues of personnel management, indentifies the main objectives and trends of personnel policy, and provides recommendations for managing personnel potential.

Keywords: *management, personnel potential, labor activity, workforce, enterprise.*

Резюме: Повышение роли кадров в деятельности современных предприятий основано на потребности в человеческом факторе и его интеллектуальной творческой функции. Кадровый потенциал имеет решающее значение в жизни предприятий и организаций. С этой точки зрения одним из главных приоритетов является обеспечение эффективности внутри предприятия и направление его на повышение общего качества.

В тезисе рассматрваются экономические, социальные, правовые, организационные и психологические вопросы управления персоналом, определяюесяены основные цели и направления кадровой политики, а также предлагаются рекомендации по управлению кадровым потенциалом.

Ключевые слова: *управление, кадровый потенциал, трудовая деятельность, рабочая сила, предприятие.*

Müasir dövrdə müəssisənin fəaliyyətində heyətin rolunun artması insan amilinin, onun intellektual, yaradıcı funksiyasına olan zəruri tələbatdan irəli gəlir. İşçi heyətin rolunun artmasını aşağıdakı amillərlə şərtləndirirlər.

1. əməyin məzmununda baş verən dəyişikliklər, yeni texnika və texnologiyanın tətbiqi, kompyuter texnikasının inkişafı;

2. müasir dövrdə Teylor modelindən fərqli olaraq işçilər üzərində avtoritar nəzarət sisteminin götürülməsi və əməkdaşların özünə nəzarət və özünü intizama cəlb etmək imkanının meydana çıxması;

3. istehsalın makroiqtisadi amillərinin, habelə dünya bazarında rəqabətin kəskinləşməsi, işçi qüvvələrinin rəqabət qabiliyyətinə tələbatın artması;

4. müəssisələrdə əməyin təşkilinin kollektiv formasının inkişafı, müasir istehsalın çox funksiyalı səciyə daşıması və daha çox məsuliyyət tələb etməsi;

5. işçilərin mədəni və təhsil səviyyəsinə tələbatın artması [1, s.108].

Heyətin idarə edilməsi iqtisadi, sosial, hüquqi, təşkilati və psixoloji məsələləri əhatə edir. Ona görə də heyətin idarə edilməsinə aşağıdakı aspektlər, istiqamətlər baxımından yanaşmaq olar:

- insan resurslarından səmərəli istifadə;
- işçinin potensialının aşkara çıxarma və fəaliyyətini motivləşdirmə, stimullaşdırma;
- heyətin fəaliyyətinin təşkilatların iqtisadi göstəriciləri və nəticələri ilə əlaqələndirmə;
- heyətin idarə edilməsi təşkilatın iqtisadiyyatının tərkib hissəsi kimi;
- insana, onun fəaliyyətinə iqtisadi-sosial, peşə-ixtisas, demokratiya, sinifi, sosial status, bioloji, mədəni, mənəvi dəyərlər sistemi baxımından yanaşma.

Ona görə də heyətin idarə edilməsinin inteqrativ səciyyə daşıyan aşağıdakı konsepsiyaları vardır:

1. sosialoji konsepsiyalar (sosial davranış, əmək davranışı, sosial qrup nəzəriyyələri, münaqişələr),

2. iqtisadi konsepsiyalar (işçi qüvvəsinin maddi stimulları, əmək bazarı problemləri, əmək kollektivlərinin təmin edilməsi və s.)

3. psixoloji konsepsiyalar (işçinin dəyərlər meyli, mentaliteti, ünsiyyəti və davranışının psixoanalizi, əmək fəaliyyətinin psixologiyası),

4. əmək və sosial hüququ (heyətin idarə edilməsi prosesinin müəyyən qanunla qaydalar çərçivəsində aparılması, əmək hüququ, tarif razılaşdırlmaları, muzdlu işçi və iş verən arasındakı hüquqi münasibətlər və s.) [2, s.123].

İşçi heyətinin idarə edərkən yuxarıdakı konsepsiyalar və müəyyən elmi prinsiplər hökman nəzərə alınmalıdır. İşçi heyətinin idarə edilməsi sisteminin qurulması prinsipləri həm universal və həm də konkret, spesifik səciyyə daşıyır.

Heyətin idarə edilməsinin funksiyaları bunlardır: İşçilərin seçilməsi, qiymətləndirlməsi və işə qəbul edilməsi; İşçilərin əməyə uyğunlaşdırlması, təlimlənməsi və ixtisasının yüksəldilməsi; Heyətin yaradıcı, əməyin motivləşdirlməsi; Karyeranın planlaşdırlması; Heyətin fəaliyyətinə inteqrativ qaydada ümumi rəhbərlik; Heyətin fəaliyyəti ilə bağlı xərclərin idarə edilməsi; İş yerlərinin, əmək fəaliyyətinin təşkili; Heyətin marketinqi (yüksək ixtisaslı işçilərlə, menecerlərlə tələbatı müəyyən etmə); Fəaliyyətin nəticələrini qiymətləndirmə; Heyət fəaliyyəti üzərində nəzarət, əmək intizamının təmin etmə, münaqişələri tənzimləmə; Heyətin sosial təminnatı və hüquqi tənzimlənməsi və s.

Heyətin idarə edilməsində onun strukturunun formalaşması qanunauyğunluqlarını və ona təsir edən amillərin öyrənilməsinin böyük əhəmiyyəti vardır.

İstər təşkilatın və istərsə də heyətin strukturunun müəyyən edilməsində müvafıq amillərin təsirini və müəyyən prinsipləri nəzərə almaq lazımdır. Təşkilati strukturun qurulması prinsiplərinə: Çeviklik prinsipi; İşçi və bölmələrin, şöbələrin funksiyalarının səmərəli mərkəzləşməsi prinsipi; Funksiyaların ixtisaslaşması prinsipi; Hüquq və məsuliyyətin vəhdətliyi prinsipi; İdarəolunmalılıq prinsipi; Xətti və funksional rəhbərliyin səlahiyyətlərinin fərqləndirilməsi, ayrılma prinsipi; İdarəetmə strukturlarının qurulmasında və idarəetmə səviyyəsinin müəyyən edilməsində qənaətçilik prinsipi aiddir [3, s. 57].

Müəssisələrdə və təşkilatlarda əməyin təşkili dedikdə əmək prosesində adamların və texnikanın konkret forma və üsulları başa düşülür. Əməyin təşkilinin məzmunundan və həll olunması vəzi-

fələrindən irəli gələn bir sıra istiqamətləri (ünsürləri) ayırırlar. Onlardan əsasları: - əmək bölgüsü və əmək kooperasiyası; - əməyin normalaşdırılması; - iş yerinin təşkili və ona xidməti; - heyətin seçilməsi və onun inkişafı; - əmək şəraitinin yaxşılaşdırılması; - iş vaxtından səmərəli istifadə, əmək rejiminin və istirahətin optimallaşdırılması; - əmək proseslərinin səmərəlləşdirilməsi; - əmək intizamının möhkəmləndirilməsi.

Müəssisədə əmək fəaliyyətinin stimullaşdırılmasında əmək haqqı, onun ödənilməsi xüsusi rola malikdir və məlumdur ki, insan istehsal prosesinə iqtisadi düşüncə ilə yaşamaq üçün qazanc məqsədi ilə daxil olur. Əmək haqqı (əməyə görə gəlir) eyni zamanda istehsal alətləri ilə insanı birləşdirən həlqə olmaqla əməyin səmərəli təşkilinin amilidir (ünsürüdür). Əməyin təşkilinin bu və ya digər variantının müəyyən edilməsində iqtisadi məqsədəuyğunluq müəyyən qədər istehsalın səmərəliliyini, əmək məhsuldarlığının yüksəldilməsini, heyətin məşğulluğunun səmərəliliyinin, bərabər əmək gərginliyini, avadanlıqdan, digər maddi ehtiyatlardan daha yaxşı istifadə olunmasını və s. təmin edir.

Müəssisənin kadr siyasəti dedikdə heyətlə aparılan işin əsas istiqamətlərini müəyyənləşdirən nəzəri baxışların, tələblərin, prinsiplərin, həmçinin yüksək məhsuldarlıqlı möhkəm kollektivin yaranmasına imkan yaradan bu işin üsulları sistemi başa düşülür [4, s.102].

Heyətin idarə edilməsi metodlarının tətbiqi əmək kollektivinin norma və dəyərlərinin durumundan, həm də müəssisənin məqsədindən asılıdır. Kadr siyasəti müəssisənin təsərrüfat siyasətinin bütün sahələri ilə sıx bağlıdır. Kadr siyasəti sahəsində qəbul edilən qərarların müəssisənin bütün funksional yarım sistemlərində baş verir: elmi-texniki fəaliyyətin, istehsalın, iqtisadi fəaliyyətin və s. idarə olunması.

Kadr siyasətinin əsas məqsədləri [5, s.66]:

- müəssisənin, onun bölmələrini müasir və keyfiyyətli, lazımi sayda heyətlə təmin etmək;
- kadr potensialından səmərəli istifadə etmək;
- nəzərdə tutulmuş əmək qanunvericiliklə işçilərin hüquq və vəzifələrinin realizə şərtlərinin təmini.

Kadr siyasətinin əsas növ müxtəlifliyinə kadr seçimi, təhsil, əmək haqqı, müəssisədə sosial münasibətlər aiddir.

Hər bir müəssisə özünün xarakterik xüsusiyyətlərini nəzərə alan kadr siyasətini yaradır. Bütün variantlar üçün ümumi kadr siyasəti odur ki, onların yaranması və həyata keçirilməsi vahid prinsiplər əsasında aparılır. Kadr siyasəti sənədlərlə rəsmiyyətə salınır ki, bu da şöbələrin qarşılıqlı əlaqələrinin yaxşılaşmasına müəssisənin rəhbərliyinin mövqeyini görməyə, kadrlar üzrə qərarların qəbul edilməsi prosesində ardıcıllığı təyin etməyə, daxili qarşılıqlı münasibət qaydaları haqqında heyəti məlumatlandırmağa, mənəvi-psixoloji mühiti yaxşılaşdırmağa imkan verir. Müəssisənin kadr siyasəti bir sıra amillərlə təyin edilir ki, bunu da xarici və daxili amillərə bölmək olar. Xarici amillərə əmək qanunvericiliyi, həmkarlarla qarşılıqlı münasibət, əmək bazarının inkişaf perspektivləri, daxili amillərə müəssisənin struktutu və məqsədi, ərazi üzrə yerləşdirilmə, korporativ daxili mədəniyyət, kollektivdə mənəvi-psixoloji mühit aiddir.

Kadr siyasətinin əsas istiqamətləri bunlardır:

1. müəssisənin ümumi inkişaf konsepsiyası çərçivəsində heyətə olan ixtisas tələblərinin təyini;
2. yeni kadr strukturunun təyini;
3. heyətin idarə olunmasını nizamlayan prosedurların işlənməsi;
4. əmək haqqı konsepsiyasının yaranması, işçilərin maddi və mənəvi stimullaşdırılması;
5. heyətə cəlb olunma, istifadə olunma və azad olunma mexanizmlərinin təyini;
6. sosial münasibətlərin inkişafı;
7. heyətin inkişafının, təhsilinin, yenidən oxunmasının, ixtisasının yüksəlməsinin təmini;
8. müəssisə kollektivində mənəvi-psixoloji mühitin yaxşılaşdırılması [6 s.39].

Kadr siyasəti gələcək dövrün kadr siyasəti, kadr planlaşdırılması ilə sıx bağlıdır. Burada təşkilatla işçi heyəti, iş verənlə işə girənlər arasında tarazlı mənafelər birliyinə xüsusi fikir verilməlidir, həm də elə etmək lazımdır ki, kadr planlaşdırması ilə heyətlə aparılan iş bir-birilə vəhdətlik təşkil edə bilsin. Məhz burada kadr planlaşdırılması strategiyası başlıca yer tutur. Təşkilatlarda kadr planlaşdırılması bir qayda olaraq aşağıdakıları əhatə edir:

-kadr strategiyası (strategiyanın, siyasətin əsaslarını işlənib hazırlanması, işçilərin yeni şəraitə uyğunlaşması, peşə irəliləyişi və s.);

- kadr məqsədi (işçilərlə təşkilatların məqsədli birliyinin təmin edilməsi)

Müəssisələrin fəaliyyətində ən başlıca məsələlərdən biri də kadrların səyini qarşıya qoyulmuş məqsədlərin icrasına yönəltməkdir. Burada motivləşdirmənin, işçilərin davranış qaydalarını öyrənən motivləşdirmə nəzəriyyəsinin böyük rolu vardır. Kadrlarını idarə edən menecerlər bütün bunları iş yerlərində adamların davranışını öyrənməklə motivləşdirmə sistemi yaratmaq və kadrların fəaliyyətlərini stimullaşdırmalıdırlar. Stimullaşdırmadan ona görə əmək fəaliyyətinin idarə olunması üçün mühüm bir vasitə kimi istifadə olunur ki, əmək situasiyasının vəziyyəti, onun çoxcəhətliyi işçinin fəaliyyətini bu və ya digər qaydada və istiqamətdə stimullaşdırmanı tələb edir. Stimullaşdırma üzrə tədbirlər kompleks xarakter daşımalıdır. Elə etmək lazımdır ki, maddi stimullaşdırma və onun mənası işçi tərəfindən tam dərk olunsun, onun əməyə münasibətinin məqsədyönlü motivinə çevrilə bilsin [6, s.91].

Kadr potensialının məqsədəuyğun idarə edilməsi ilə müəssisə və təşkilatlar digər qurumlarla rəqabətdə müəyyən üstünlük əldə bilərlər. Hər bir müəssisənin kadr hazırlığına xüsusi diqqət ayırması vacib məsələlərindəndir. Bunun üçün isə hər bir müəssisə və müəssisə rəhbərləri öz kadr potensialının mütəmadi hazırlıq kurslarında təhsil almasına şərait yaratmalıdırlar.

Ədəbiyyat

1. Майкл Х. Мескон, Майкл Альберт, Франклин Хедоури «Основы менеджмента» Издательский дом «Вильямс», Москва -1995
2. T.Ə.Quliyev “Menecmentin əsasları” Bakı 2001.
3. T.Ə.Quliyev “Əməyin sosiologiyası” Bakı 2001.
4. Кулиев Т.А. Регулируемая рыночная экономика. Баку, 2000.
5. Кулиев Т.А., Азизова Э.Д., Мустафаева З.И., Байрамова С.Р. Управление человеческими ресурсами. Учебник. Баку, 2012.
6. file:///C:/Users/User/Desktop/MAGISTR/aliyeva_nigar.pdf

Günel ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti, müəllim
nizamiqizi.gunel@gmail.com

PANDEMİYA ŞƏRAİTİNDƏ ONLAYN TƏHSİL FORMASI

ONLINE EDUCATION DURING THE PANDEMIC

ОНЛАЙН-ОБРАЗОВАНИЕ ВО ВРЕМЯ ПАНДЕМИИ

Xülasə: Pandemiya dövründə respublikamızda təhsilin ardıcıl, fasiləsiz olması əsas xüsusi diqqət olunan məsələdir. Qarşılıqlı hörmət və anlama əsasında qurulan münasibətlər müəllimin nüfuzunu artırır. Onlayn şəraitində keçirilən mühazirə və seminar məşğələlərində də tələbə-müəllim münasibətləri elə qurula bilər ki, tələbə şəxsiyyət kimi qiymətləndirildiyini başa düşüb mühazirə və seminar məşğələlərinə məsuliyyətlə yanaşar, noutbukun, kompüterin qarşısında əyləşər, yaxud mobil telefonun imkanlarından faydalanaraq müəllimə diqqətlə qulaq asar.

Açar sözlər: *tələbə auditoriyası, təhsildə keyfiyyyət, onlayn dərslər, tələbələrin idarə olunması, distant təhsil*

Abstract: During the pandemic, the focus was on ensuring the continuity of education in our country. Relationships based on mutual respect and understanding increase the teacher's credibility. In online lectures and seminars, student-teacher relationships should be established in such a way that the student is aware that he is appreciated as a person, so that he takes responsibility for lectures and seminars, sits in front of a laptop or computer and listens carefully to the teacher.

Keywords*: student audience, management quality in education, online lessons, student management, distance education*

Резюме: Во время пандемии основное внимание уделялось обеспечению непрерывности образования в нашей стране. Отношения, основанные на взаимном уважении и понимании, повышают авторитет учителя. На онлайн-лекциях и семинарах отношения студент-преподаватель должны быть установлены таким образом, чтобы студент осознавал, что его ценят как личность, чтоб он брал на себя ответственность за лекции и семинары, сидел перед ноутбуком или компьютером и внимательно слушал преподавателя.

Ключевые слова*: студенческая аудитория, качество в образовании, онлайн уроки, управление студентами, дистанционное обучение*

COVID-19 pandemiyası artıq bir ildir ki, Yer üzündə tüğyan edir. Yoluxma və ölüm hallarına görə ABŞ, Hindistan və Braziliya ilk yerləri tutur. Birinci mərhələsindən fərqli olaraq pandemiyanın ikinci mərhələsi amansızlığı ilə fərqlənir, ölüm saçır, canlar alır. Dünyada hələ ki pandemiya səbəbindən milyon nəfərdən çox insan dünyasını dəyişmişdir. Yoluxma halları da günü-gündən artmaqdadır. Bu pandemiyanın nəticəsində bir çox yerlər bağlanmışdır. Hal-hazırda belə çox rəsmi yığıncaqlar, ümumtəhsil, orta ixtisas, texniki-peşə və ali təhsil müəssisələrində dərslərin onlayn keçirilməsi məqbul sayılmışdır.

Onlayn və ya distant təhsil – müəyyən məsafədən keçirilən təhsil sistemi olub, ilk dəfə İngiltərədə yaranaraq sonralar ABŞ, Almaniya və digər ölkələrdə geniş yayılıb. Bu təhsil forması qiyabi təhsil formasından bir çox üstün xüsusiyyətləri ilə fərqlənir. İnternetə çıxışı olan hər yerdə bu təhsil formasını həyata keçirmək mümkündür. Distant təhsil haqqında ilk məlumatlar Yan Amos Komenskinin 1633-1638-ci illərdə qələmə aldığı "Böyük Didaktika" əsərində öz əksini tapmışdır [5].

Distant təhsil sistemində dərslər, təlimlər televiziya kanalları, multimedia diskləri, internet şəbəkəsinin imkanları vasitəsi, proqram paketləri ilə həyata keçirilir [4].

Onlayn təhsilin əsasını tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında idarə olunması təşkil edir. Bu təhsil forması öyrədən və öyrənən arasında əlaqəni telekommunikasiya və kompüter şəbəkələri vasitəsilə uzaq məsafədən keçirir. Təhsilin bu formasının xarakterik xüsusiyyətləri özünü iqtisadi səmərəlilikdə, mobillikdə, çeviklikdə, təhsilin keyfiyyətinə xüsusi nəzarətin olmasında, təlimin xüsusiləşdirilmiş vasitə və texnologiyalarından istifadəsində göstərir.

Distant təhsil haqqında məlumat Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-III Q saylı Qanununun 1.0.9, 10.5 və 13.13 bəndlərində öz əksini tapmışdır [2].

Təhsil sistemi artıq bir ildir ki, ali təhsil müəssisələrində distant olaraq davam etdirilir. Təhsilin keyfiyyətli, ardıcıl, səmərəli, peşəkar təşkili üçün Təhsil Nazirliyi akademik heyətlə birlikdə səriştəli şəkildə bu işin öhdəsindən layiqincə gəlməyə çalışır. Çünki təhsil bizim gündəlik həyat tərzimizin, fəaliyyət sahəmizin, cəmiyyətimizin inkişafının mühüm tərkib hissəsidir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Təhsil millətin gələcəyidir". Dünyanın qəbul etmiş olduğu qlobal məqsədlərdən biri "Təhsilin keyfiyyəti" problemidir. Keyfiyyətli təhsil sayəsində insanların intellektual səviyyəsi yüksəlir, dünyagörüşü genişlənir, müasir texnika və texnologiyalardan istifadə bacarığı artır, fəaliyyətində innovasiyaları tətbiq edə bilir və ondan bəhrələnir.

Təhsilin keyfiyyəti, dövlətin, cəmiyyətin və təhsilalanların sosial tələbi olmaqla, dövlətin təhsil siyasətinin prioritet məsələsidir. Təhsilin keyfiyyəti bir çox cəhətdən, təhsil müəssisəsinin düzgün, məqsədyönlü, planlı idarəedilməsindən və həmçinin idarəetmənin yeni, səmərəli mexanizmlərinin tətbiqindən və effektiv stimullaşdırmadan asılıdır.

Pandemiya şəraitində təhsilin davamlılığını təmin etmək təhsilverənlərin əsas amalına çevrilmişdir. Dünyanı bürüyən Koronovirus pandemiyası ümumtəhsil sisteminin qarşısında bir sıra təxirəsalınmaz vəzifələr qoydu. Müstəqil təhsilalma bacarığı, İKT bacarıqlarından istifadə təhsilin təmin olunmasında praktik məsələlərə çevrildi. Tədris prosesinin davamlılığının təmin olunması üçün pedaqoji kadrların hazırlığı, onlayn dərslərin keçirilməsi üçün müxtəlif internet resurs və vasitələrin (ZOOM, Microsoft Teams, Youtube, Skipe və s.) istifadəyə geniş yer verdi.

Burada da tələbələrin fəallığını təmin etmək məqsədilə, onların fəaliyyətlərinin effektivliyini artırmaq məqsədilə müxtəlif onlayn müsabiqələr keçirilmişdir.

Tədris mühitində müəllim şəxsiyyəti əsas simadır. A.S.Makarenko deyirdi: "Müəllim özünü elə aparmalıdır ki, onun hər hərəkəti tərbiyə etməyə xidmət etsin, və hər zaman mövcud anda nə istədiyini və ya nə istəmədiyini bilməlidir. Bunu bilməyən müəllim necə tərbiyə işi ilə məşğul ola bilər?"

Müəllim şəxsiyyətinin, səriştə və peşəkarlığının tədris prosesinin səmərəliliyinə həlledici təsir göstərir. Hal-hazırda biliyin, sosial və mədəni təcrübənin ötürülməsində əsas rol birbaşa müəllimə məxsusdur. Həqiqətən, müəllimin ixtisas səviyyəsi, onun əməksevərliyi və çalışqanlığı təhsil prosesinin səmərəliliyinə çox müsbət təsir göstərir. Bundan əlavə, müəllimin işinə yaradıcı münasibəti təhsil prosesinin mövcud həqiqi şərtlərindən optimal istifadə etməyə kömək edə bilər.

Müasir dövrdə dünyada gedən qloballaşma prosesləri qədim köklərə malik olan ingilis dilinin tədrisinə də öz təsirini göstərməkdədir. Qloballaşma prosesi cəmiyyət və insan fəaliyyətinin bütün sahələrinə nüfuz edərək müxtəlif inkişaf səviyyəli ölkələrdə özünü fərqli ampluada göstərir. Qloballaşmaya müasir informasiya-kommunikasiya vasitələri, internet də geniş müdaxilə edir və beləliklə, onlayn və ya distant təhsilə tələbat və maraq artır.

Müasir dövrdə dünyanı öz ağuşuna alan COVID-19 pandemiyası onlayn və ya distant təhsili aktuallığına görə ən önəmli təhsil metoduna çevirdi. Sözügedən təhsil formasında informasiyalar tələbələrə çap materialları, elektron dərslik, televerilişlər və s. formalarda təqdim edildi və eləcə də kompüter, televizor, audio-video maqnitofon, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olundu.

Bütün yaş kateqoriyaları üçün əlverişli təhsil forması olan distant təhsil bir sıra müsbət və mənfi keyfiyyətlərə malikdir. Distant təhsilin müsbət cəhətləri:

– ətrafına daha çox öyrənən cəlb etməsi,

– imkanı zəif olan və ya imkanı olmayan şəxslər üçün əlçatan və münasib olması,

– insanın auditoriya qarşısında çıxış etmək qorxusu kimi psixoloji maneələri dəf etməsi və s.

– gəlirliyinə və etibarlılığına, rahatlığına görə digər təhsil alma formalarından, hətta əyani təhsildən də daha üstün olması.

Distant təhsilin mənfi cəhətləri təhsil formasında müəllim və tələbə arasında canlı ünsiyyətin aşağı səviyyədə və internet sürətinin zəif olmasında büruzə verir. Artıq müəllim informasiya mənbəyi deyil, informasiya məkanında bələdçi rolunu oynayır. Bundan əlavə pandemiya tələbələrin düzgün şəkildə həyat sürməsinə mənfi təsirlər göstərir. Buna aşağıdakı sadalanan xüsusiyyətlər daxildir:

– düzgün gün rejiminin müəyyənləşdirilməsi;

– rasional qidalanma;

– fiziki tərbiyə və idmanın təbliği;

– asudə vaxtın səmərəli keçməsi (ailədə məktəbdə, cəmiyyətdə davranış qaydaları və ünsiyyət haqqında söhbətlərin təşkili, məişət, mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə biliklərin verilməsi, təəssüf ki, indiki pandemiya dövründə kompüter və telefondan uzaq olmaq mümkün deyil);

Bu zaman kəsimində valideynlərin də üzərinə yük düşür. Distant təhsil öyrənməyi daha yaxşı və əlçatan edən müasir bir texnologiyalardır. Bu kompüterin öyrənmə vasitəsi və internetin bir təhsil mühiti kimi istifadəsi ilə sıx əlaqəli olan yeni minilliyin formalaşmasıdır. Təhsilin yeni forması olan distant təhsilin həyata keçirilməsi üçün valideynlərin qarşısında müəyyən öhdəliklərin yerinəyetirilməsi məsuliyyəti yaranır. Onlar çalışmalıdılar ki, evdə uşaqlarına düzgün şərait qursunlar, yəni övladlarının ardıcıl, fasiləsiz təhsil almağına kömək olmaq üçün özləri də onların cədvəllərinə uyğun gün rejimlərini müəyyənləşdirsinlər. Belə olan təqdirdə tələbələrin dərslərə marağı və mütəmadi olaraq qoşulması təmin olunacaqdır. Çünki onlara ailədən gələn dəstək hər zaman mənəvi güc yaradacaq və onlara daha həvəs və maraqla tapşırıqların öhdəsindən gələcəklər. Buna görə də valideynlər də müəllimlərlə birlikdə səriştəli şəkildə çalışmalıdırlar. Onlar övladları ilə düzgün ünsiyyət qurmağı bacarmalı, onlara bu təhsil sitemində xüsusi qayğı ilə yanaşmalıdırlar.

Dünyada COVID-19 virusunun geniş yayıldığı bu dövrdə dünyanın təhsil arenasında distant təhsilin imkanları getdikcə artmağa başladı. Bir çox sahələr, eləcə də orta və ali ixtisas məktəbləri distant təhsil imkanlarından geniş istifadə etməyə başladılar. Həm Koronovirus problemi, həm də orta və ali məktəblərin onlayn tədris sistemi distant təhsilin önəmini artırdı. Respublikamızda distant təhsilin infrastrukturunun kifayət qədər ürəkaçan olmaması, təhsildə bir sıra problemlərin yaranmasına gətirib çıxardı. Lakin bu qısa vaxt kəsiyində həm orta, həm də ali məktəblər üzləşdikləri çətin vəziyyətdən çıxış yolu tapa bildilər. Daha sonra bu ilin sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin 44 gün müddətində zəfərlə başa çatması, Ermənistan tərəfindən zəbt edilmiş torpaqlarımızın işğaldan azad olması da onlayn təhsil sisteminə ara verilməsinə səbəb oldu. Lakin sonda əldə etdiyimiz qələbə itirdiklərimizin yanında ən böyük qazancımız oldu. Qeyd olunur ki, ali baş komandanın rəhbərliyi altında müzəffər ordumuzun fədakarlığı, rəşadəti ilə Cəbrayıl, Qubadlı, Hadrut, Füzuli, Zəngilan, Şuşa öz azadlığına qovuşdu. Həmin şəhər və rayonlarında Azərbaycan bayrağı dalğalandı. Noyabrın 10-da Azərbaycan Respublikası Prezidenti, Rusiya Federasiyası Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanan bəyanat yada salınır. Qeyd olunur ki, Ermənistanın biabırcasına təslim olması nəticəsində növbəti 20 gün müddətində Ermənistan silahlı qüvvələri Kəlbəcər, Ağdam və Laçını tərk edib Azərbaycana təhvil verməyi öhdələrinə götürür. 2020-ci il dekabrın 1-nə qədər haqqında danışılan rayonlarda Azərbaycan bayrağı dalğalandı.

Tələbələr onlayn qaydada oxunan mühazirəyə, mövzu üzrə materiala diqqət kəsildilər. Tələbə auditoriyası uğurla idarə olundu. Bir tərəfdən müəllim-tələbə münasibətlərinin düzgün qurulmasına, digər tərəfdən mühazirənin maraqlı və məzmunlu olmasına görə.

Deməli, tələbə auditoriyanın idarə olunmasını asanlaşdıran məhz mühazirə mövzusunun maraqlı olması, müəllimin öz şərhinin yüksək səviyyədə qurması, auditoriyanı özünə cəlb edə bilməsidir.

Azərbaycan tarixi üzrə mühazirələrdə tələbə oğlan və qızlar başqa məsələlərlə bərabər, dünənimiz, bu günümüz, qədim dövlətlərimiz, torpaqlarımız, şəhərlərimiz, qalalarımız, ərazilərimizin müstəqilliyi, müdafiəsi naminə aparılan mətin mübarizələrdən məlumat almaqla bərabər, xalqımızın

təşəkkülü, mədəniyyəti və s. barədə biliklərə yiyələnərək düşünür, müqayisə, tutuşdurma, təhlil və tərkiblər, ümumiləşdirmələr aparmaqla müəyyən nəticəyə gəlirlər.

Onlayn dərsləri daha effektiv keçirmək üçün bir sıra mərhələlərdən istifadə ön plana keçdi. Bunlar: analiz, inkişaf, tətbiqetmə və qiymətləndirmədir. Analiz mərhələsində dərsin mahiyyəti, mövzunun düzgün seçimi, təhsilin keyfiyyət göstəriciləri və məqsədi araşdırıldı, inkişaf mərhələsində tədrisin strategiyası, qiymətləndirmənin metodları, tədris zamanı qazanılmış bilik və bacarığın tətbiqi və inkişafı, üçüncü mərhələdə – (tətbiqetmə – A.S.) internet vasitəsilə öyrənilən biliyin praktikaya tətbiq edilməsi, qiymətləndirmə mərhələsində isə bir sıra metodların tətbiqi, müəllimin peşəkar inkişafı, tələbənin nümayiş etdirdiyi bilik əsas götürüldü.

"Bu gün dünyada tələbələrə distant təhsil təklif edən universitetlərin çoxu "açıq universitet" adı altında fəaliyyət göstərir. Distant təhsil zamanı keçirilən dərslər adi universitetlərdə tədris olunan dərs proqramından bir o qədər də fərqlənmir. Yeganə fərq ondan ibarətdir ki, distant təhsil zamanı tələbə və müəllim arasındakı ünsiyyət üz-üzə deyil, virtual olaraq məsafədən həyata keçirilir. Yəni internet vasitəsilə" [7].

Pandemiya dövründə təhsilin təşkili ölkəmizdə başlıca problemlərdən biri kimi qiymətləndirilir. Əslində, təhsil sistemi distant formada davam edən ilk günlər akademik heyətə proqramlardan istifadə etmək, dərsləri təşkil etmək, tələbələrin marağını cəlb etmək çətin gəlirdi. Lakin zamanla daha rahat bir şəkildə bu işin öhdəsindən gəlmək mümkün olmuşdur. 1 ildən artıqdır ki, onlayn təhsil sistemi ölkəmizdə tətbiq olunur. Buna baxmayaraq, bu təhsil sisteminin özünün yuxarıda da qeyd olunduğu kimi, hələ də çatışmayan cəhətləri mövcuddur. Düşünürük ki, təhsilimizin beynəlxalq standartlara cavab verməsi üçün distant təhsilin güclü infrastrukturu yaranmalı, informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməlidir.

Ədəbiyyat

1. 2013-cü il 24 oktyabr "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət strategiyası"
2. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası.
3. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" 24 oktyabr 2013-cü il tarixli ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı/Xalq, 25 oktyabr 2013-cü il.
4. Əhmədov H.. Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları. https://www.almazhasret.com/?p=3575
5. İkisahil.com>post>distant –tehsil-n.
6. Rzayev O., Məmmədov S.M., İsmayılov Ş.N. "Təhsilin idarə olunmasının əsasları" səh.218
7. https://modern.az/az/news/10003.
8. www.e-qanun.az
9. https://president.az/articles/21084

Фарход КАРАКУЛОВ
Ташкентский государственный экономический университет,
к.э.н., старший преподаватель
f.z.karakulov@mail.ru

Шахло МАШАРИПОВА
Ташкентский государственный экономический университет,
PhD, доцент

Аида БАТИРБЕКОВА
Петербургский государственный университета путей сообщения Императора Александра I, Магистрант
aida_0686@mail.ru

ИНТЕГРАЦИИ УЧЕБНОГО ПРОЦЕССА С ПРОИЗВОДСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТЬЮ ПРЕДПРИЯТИЯМИ НАРОДНОГО ХОЗЯЙСТВА ВО ВРЕМЯ ГЛОБАЛЬНОЙ ПАНДЕМИИ COVID-19

INTEGRATION OF THE EDUCATIONAL PROCESS WITH THE PRODUCTION ACTIVITIES OF ENTERPRISES OF THE NATIONAL ECONOMY DURING THE GLOBAL PANDEMIC COVID-19

Резюме: Рассмотрены особенности и проблемы развития интеграции учебного процесса с производственной деятельности предприятиями народного хозяйства Республики Узбекистан в условиях пандемии. Актуальность выбранного направления определяется высокой значимостью для научного, экономического развития высших учебных заведений и предприятий народного хозяйства Республики Узбекистан. Предложено создание электронного технопарка, который позволяет реализовать инновационные проекты на электронной научно-технической платформе, а также, способствует интегрировать учебный процесс с производством во время пандемии.

Ключевые слова: *интеграция, учебный процесс, производство, народное хозяйство.*

Abstract: The features and problems of the development of the integration of the educational process with production activities by enterprises of the national economy of the Republic of Uzbekistan in the context of a pandemic are considered. The relevance of the chosen direction is determined by the high significance for the scientific, economic development of higher educational institutions and enterprises of the national economy of the Republic of Uzbekistan. The creation of an electronic technopark is proposed, which allows the implementation of innovative projects on an electronic scientific and technical platform, and also helps to integrate the educational process with production during a pandemic.

Keywords: *integration, educational process, production, national economy.*

В настоящее время интеграцию учебного процесса с производством необходимо рассматривать как один из важнейших приоритетов, направленных на подготовку высококвалифицированных специалистов, соответствующих потребностям рынка труда во время глобальной пандемии, а также в условиях развития национальной экономики.

При этом эффективное взаимодействие Ташкентского государственного экономического университета (ТГЭУ) с другими отраслями экономики Республики Узбекистан и рынком труда в целом требует развития комплексного стратегического партнерства сторон, целью которого является объединение финансовых, кадровых, материально-технических и иных ресурсов для взаимовыгодного сотрудничества.

За последние годы наблюдается тенденция в стремлении компаний установить взаимодействие с ТГЭУ. Это взаимодействие, как правило, включает:

- вовлечение компаний в формирование учебных программ, в обучение и организацию практик, развитие профессиональных компетенций студентов, востребованных на рынке труда;
- проведение совместных научных исследований и разработок по различным инновационным направлениям;
- трудоустройство выпускников;
- финансирование целевой подготовки студентов, дополнительные стипендии и гранты для студентов и преподавателей;
- создание социальных и материальных условий для закрепления и адаптации молодых специалистов на предприятии.

Партнерство ТГЭУ с другими предприятиями народного хозяйства представляет собой с одной стороны кадровое обеспечение деятельности предприятий с учетом выделенных перспективных направлений развития, а с другой стороны, выражается в особой форме бизнеса, когда объединяются ресурсы нескольких субъектов, в рамках выполнения научно-исследовательских проектов.

Таким образом, в современных условиях создание системы подготовки кадров можно рассматривать в двух направлениях.

Первое направление - ТГЭУ осуществляет образовательную деятельность в тесном сотрудничестве с предприятиями. При этом работодатель принимает активное участие в формировании профессиональных компетенций специалистов, совместно с предприятиями разрабатываются инновационные образовательные траектории развития студентов, системы профессиональной адаптации и наставничества выпускников, а также, подключает студентов к онлайн-собраниям во время пандемии для расширения практических навыков будущих молодых специалистов.

В отличие от индивидуальных учебных планов инновационные образовательные траектории выстраиваются не для отдельного студента, а для студенческой группы (от 3-6 чел.), «помещая» их в формат командной работы. Это позволяет выпускнику получить не только фундаментальное образование, но и сформировать дополнительные профессиональные и общекультурные компетенции, адаптивность к инновациям, способность к творчеству, навыкам проектной работы.

Второе направление заключается в подготовке специалистов не только для конкретных предприятий, но и способных самостоятельно организовать предприятие во время пандемии. Это - создание «новых предпринимателей». В реализации данного направления следует отметить значительную роль бизнес-инкубаторов, которые позволяют сформировать у студентов предпринимательские компетенции.

Таким образом, главным результатом деятельности ТГЭУ в области подготовки кадров является креативная личность, способная к саморазвитию, к творческому, исследовательскому подходу ко всем процессам и явлениям современности. Для достижения вышеуказанных результатов необходимо создать электронный технопарк, который позволяет реализовать инновационные проекты на электронной научно-технической платформе, а также, способствует интегрировать учебный процесс с производством во время пандемии. Совместные подобные проекты формируют у студентов сознательную мотивацию при выборе место работы, основанную на желании работать в будущем на конкретном предприятии. Все это позволяет обеспечить конкурентоспособность наших специалистов на рынке труда.

В условиях глобальной пандемии необходимо отметить еще одну проблему – отсутствие ориентиров по количеству и структуре подготовки высококвалифицированных кадров. Попытка Министерства высших учебных заведений Республики Узбекистан самостоятельно прогнозировать потребность в специалистах и выстраивать на их основе планы подготовки специалистов приводит к сильным диспропорциям на рынке труда. Следовательно, возникает необходимость в проведении маркетинговых исследований совместно с работодателями, которые позволят учесть складывающиеся тенденции развития рынка труда.

Литература

1. Казанская Л.Ф. Развитие высокоскоростного железнодорожного транспорта как фактор повышения конкурентоспособности национальной экономики страны // В книге: Экономика и управление в XXI веке: актуальные вопросы, достижения и инновации. Монография. – Пенза: МЦНС «Наука и просвещение». - 2017. - С. 55-63.
2. Казанская Л.Ф. Качество системы образования как индикатор развития транспортной системы в условиях глобализации // В сборнике: Профессиональное образование, наука и инновации в XXI веке /Сборник трудов X Санкт-Петербургского конгресса. Министерство образования и науки РФ, Правительство Санкт-Петербурга, Комитет по науке и высшей школе, Петербургский государственный университет путей сообщения Императора Александра I. 2016. С. 221-224.
3. Казанская Л.Ф., Бахарева Л.А., Беляков В.Ю. Методические основы формирования финансовой модели портфельного инвестирования // Вестник гражданских инженеров. 2017 - № 5(64). - С.174-181.
4. Каракулов Ф.З. Корпоративное управление как фактор успешного развития в железнодорожном комплексе Республики Узбекистан // Развивающиеся рынки: перспективы развития бизнеса и государства: Сб. статей. – СПб., 2016. – С. 603-606.
5. Убайдуллаев М.Б. Проблемы использования земельных ресурсов в условиях личных подсобных хозяйств // Агропродовольственная экономика. 2015. № 4. С. 41-49.

Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.

Çapa imzalanıb: 29.10.2021
Format: 84x108 1/8. Qarnitur: Times.
Həcmi: 13, 5 ç.v. Tiraj: 200. Sifariş № 196.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
e-mail: mutarjim@mail.ru
www.mutercim.az